# AZƏRBAYCAN TARİXİ 5




METODİK VƏSAİT

PƏRVİZ AĞALAROV
NİYAMƏDDİN QULİYEV
ELNUR HÜSEYNOV

Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün

# AZƏRBAYCAN TARİXİ

fənni üzrə

**Metodik vəsait**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT


**Azərbaycan tarixi fənninin tədrisinin müasir tələbləri**.....6

**Tarix necə öyrənilir?** *(Birinci saat)*.....15

**Tarix necə öyrənilir?** *(İkinci saat)*..... 16

**Vətənim Azərbaycan**..... 22

**Azərbaycanda ilk insan məskənləri** *(Birinci saat)*..... 24

**Azərbaycanda ilk insan məskənləri** *(İkinci saat)*..... 26

**Əmək alətləri necə yarandı?**..... 28

**Dövlətlər nə üçün lazımdır?**..... 30

**Azərbaycanın qədim dövlətləri** *(Birinci saat)*.....32

**Azərbaycanın qədim dövlətləri** *(İkinci saat)*.....34

**Əsarətlə barışmayan qəhrəman**.....36

**Azərbaycanı birləşdirən ilk hökmdar**.....39

**Səlcuqlar və Azərbaycan**..... 42

**Atabəy Şəmsəddin Eldəniz**.....44

**Qara Yusif kim idi?**..... 46

**Həsən padşah Bayandur**..... 48

**Şeyx necə şah oldu?** *(Birinci saat)*..... 51

**Şeyx necə şah oldu?** *(İkinci saat)*.....53

**Tariximizin qadın səhifələri** *(Birinci saat)*..... 55

**Tariximizin qadın səhifələri** *(İkinci saat)*..... 58

**Şərqin son fatehi**..... 60

**Birlik yoxdursa, dirilik də yoxdur** *(Birinci saat)*..... 62

**Birlik yoxdursa, dirilik də yoxdur** *(İkinci saat)*..... 64

**Azərbaycan necə parçalandı?**..... 66

**Daş keşikçilər**..... 69

**Şəhərlər necə yarandı?**.....72

**Qədim Azərbaycan şəhərləri** ........................................ 75

**Azərbaycan taxtı – Təbriz** ........................................ 77

**Müsəlman Şərqinin ilk Cümhuriyyəti** *(Birinci saat)* ........................................ 79

**Müsəlman Şərqinin ilk Cümhuriyyəti** *(İkinci saat)* ........................................ 82

**Sovet işğalı** ........................................ 85

**Azərbaycan xalqı faşizmə qarşı** *(Birinci saat)* ........................................ 89

**Azərbaycan xalqı faşizmə qarşı** *(İkinci saat)* ........................................ 92

**Dövlət müstəqilliyimizin bərpası** *(Birinci saat)* ........................................ 94

**Dövlət müstəqilliyimizin bərpası** *(İkinci saat)* ........................................ 97

**Birinci Qarabağ müharibəsi** *(Birinci saat)* ........................................ 98

**Birinci Qarabağ müharibəsi** *(İkinci saat)* ........................................ 100

**Dövlətin xilaskarı** *(Birinci saat)* ........................................ 102

**Dövlətin xilaskarı** *(İkinci saat)* ........................................ 105

**Müzəffər Ali Baş Komandan** *(Birinci saat)* ........................................ 108

**Müzəffər Ali Baş Komandan** *(İkinci saat)* ........................................ 110

**Böyük Zəfərin ilk qaranquşu – Aprel döyüşləri** *(Birinci saat)* ........................................ 112

**Böyük Zəfərin ilk qaranquşu – Aprel döyüşləri** *(İkinci saat)* ........................................ 114

**Qanı ilə tarix yazan qəhrəmanlar** ........................................ 116

**Vətən müharibəsi** *(Birinci saat)* ........................................ 119

**Vətən müharibəsi** *(İkinci saat)* ........................................ 122

**Qarabağda quruculuq** ........................................ 124

**“Kitabi-Dədə Qorqud”** ........................................ 126

**Nizami Gəncəvi** ........................................ 129

**Elmlə siyasət yürüdən alimlər** ........................................ 131

**Azərbaycan tarixinin atası** ........................................ 133

**“Əkinçi”dən başlanan yol** ........................................ 138

**Milli operamızın banisi** ........................................ 141

**Lütfi Zadə** ........................................ 144

# AZƏRBAYCAN TARİXİ FƏNNİNİN TƏDRİSİNİN MÜASİR TƏLƏBLƏRİ

## 5-ci SİNİFLƏR ÜÇÜN AZƏRBAYCAN TARİXİ DƏRSLİYİNİN KONSEPSİYASI

***Ümumi müddəalar:***

Hazırda bəşəriyyət dördüncü sənaye çevrilişi hesab edilən yeni bir mərhələyə qədəm qoymuşdur. Texnologiyaların sürətli inkişafı, əldə edilən nailiyyətlər, insan faktorunun daha da önə çəkilməsi təhsil sahəsində də yeni çağırışları zəruri edir. Müasir dövrün gerçəklikləri ilə ayaqlaşan, müvafiq bacarıqlara və vərdişlərə malik şəxsiyyətin, nəslin yetişdirilməsi təhsil sisteminin qarşısında duran əsas vəzifələrdəndir.

Yeni çağırışlar, dövrün tələbləri Azərbaycan tarixi fənninin tədrisində də nəzərə alınmalıdır. Tarix – hadisə və proseslərin, tarixi şəxsiyyətlərin fəaliyyətinə aid faktların yadda saxlanılması deyil, onların müqayisə edilməsi, təhlili və dəyərləndirilməsidir. Ona görə də bu fənnin tədrisinin müasir tələblərə uyğunlaşdırılması zəruridir. Bu istiqamətdə ən vacib amillərdən biri də tədris prosesinin əsas resurslarından biri olan dərsliklərin məzmun və forma baxımdan təkmilləşdirilməsi, onların yalnız bilik mənbəyi deyil, həmçinin bacarıq və dəyərlər aşılamaq üçün vasitə olmasına nail olmaqdır. Bu modelin əsasında tarixi hadisə, təzahür və proseslərə aid məlumatları, anlayış və dəyərləri qazandırmaqla yanaşı, şagirdlərə gələcəkdə istifadə edə biləcəyi müqayisə, təhlil, ümumiləşdirmə və nəticəyə gəlmə bacarıqları qazandırmaq təşkil edir. Beynəlxalq təcrübə şagirdlərdə aşağıdakı bacarıqları formalaşdırmağı hədəfləyir.

- tarixi hadisə, proses və təzahürləri araşdırmaq və nəticələrini təqdim etmək;
- tarixi mənbələri təsnif etmək, orada verilən məlumatları anlamaq, analiz etmək, sintez etmək və dəyərləndirmək;
- tarixi hadisələri müvafiq dövrün tarixi şərtləri əsasında dəyərləndirmək və bu günü anlamaqda ondan istifadə etmək;
- müəyyən tarixi hadisə və proseslə bağlı məlumatları sistemləşdirmək, yəni səbəb-nəticə əlaqələrini təsbit etmək;
- təhlil və sintezə əsaslanan şifahi və yazılı təqdimatlar hazırlamaq.

***Azərbaycan tarixi fənninin tədrisinin ümumi məqsədləri:***

Azərbaycan tarixi ölkəmizin ərazisində uzaq və yaxın keçmişdə yaşamış insanların həyatını, onların həyatında baş verən hadisələri və dəyişiklikləri səbəb-nəticə əlaqəsində öyrənən elmdir. Onun bir fənn kimi ümumi təhsil müəssisələrində öyrənilməsi xüsusi əhəmiyyət daşıyır.

Bu fənnin ümumi təhsil müəssisələrində tədrisi dərin və əhatəli biliyə, bacarıq və vərdişlərə, yüksək intellektə, geniş dünyagörüşünə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmağa, öz soykökünə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərə əsaslanan, şərəfli tarixi keçmişinə dərindən yiyələnən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan vətəndaş tərbiyə etməyə xidmət edir.

Azərbaycan tarixi fənni şagirdlərdə ünsiyyət qurmaq və əməkdaşlıq etmək kimi yüksək mənəvi keyfiyyətlərin, mühakimə yürütmək, qoyulmuş problemə fərqli baxış nümayiş etdirmək, öz nöqteyi-nəzərini əsaslandırmaq, hüquqlarını qorumaq, başqalarının hüquqlarına hörmətlə yanaşmaq, dövlət, cəmiyyət və xalq qarşısında vəzifələrinə məsuliyyətlə yanaşmaq bacarığının formalaşmasında mühüm rol oynayır.

Bu fənnin tədrisi şagirdlərdə xalqımızın dövlət qurma bacarığını dəyərləndirməyə, müstəqil dövlətə malik olmanın əhəmiyyətini anlamağa daha geniş imkanlar yaradır. Şagirdlər tariximizi öyrəndikcə Azərbaycanın dünyadakı mövqeyini, yerləşdiyimiz coğrafiyanın özünəməxsus xüsusiyyətlərini, geosiyasi reallıqları, dövlətlərimizin və tarixi şəxsiyyətlərimizin Azərbaycanda və regionumuzdakı rolunu, həmçinin xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi töhfələri olduğu kimi dəyərləndirmə bacarığına yiyələnir.

Azərbaycan tarixi fənni üzrə təhsil proqramının (kurikulumun) əsas cəhətlərindən biri kimi ***nəticə yönümlülük:***

1. Şagird fəaliyyətinin ardıcıl izlənilməsini, onun nailiyyətlərindəki irəliləyişlərin müntəzəm qiymətləndirilməsini təmin edir.

2. Şagirdlərə gündəlik həyatda lazım olan zəruri bacarıqların aşılanmasını və onun ardıcıl olaraq inkişaf etdirilməsini ön plana çəkir, təlim prosesi ilə gözlənilən nəticə arasında qarşılıqlı əlaqə üçün zəmin yaradır.

3. Ümumi təhsil müəssisələrində Azərbaycan tarixi fənninin əsas məqsədi məktəblilərdə vətənpərvərlik, fəal vətəndaşlıq mövqeyi, digər xalqlara, ümumbəşəri dəyərlərə hörmət, ənənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırmaq üçün onlara keçmiş və müasir dövrün hadisələrini sərbəst təhlil etmək, faktları ümumiləşdirmək, əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirməsində istifadə, tarixi mənbə, müxtəlif fikir və konsepsiyaları təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək, eləcə də sərbəst nəticə çıxarmaq və kollektivdə işləmək bacarıq və vərdişlərini aşılamaqla informativ-kommunikativ və hüquqi mədəniyyət formalaşdırmaqdan ibarətdir. Bu məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi məqsədəmüvafiq hesab edilir:

- tarixi hadisələrin, həmçinin müasir həyatda baş verən ictimai hadisələrin dərk, təhlil və təsnif edilməsi;
- milli-mənəvi dəyərlərdən, mədəni irsdən istifadə etməklə daxili potensialın zənginləşdirilməsi və onların gələcək nəsillərə ötürülməsi;
- dövlətçilik ənənələrinə istinad olunması, ölkəmizin müstəqil dövlət quruculuğunda şüurlu və məsuliyyətli vətəndaş kimi iştirak etməsi;

- vətənin tarixində baş vermiş hadisələr nəzərə alınmaqla milli mənafenin və maraqların qorunması;
- müxtəlif mənbələri təhlil etməklə onlardan nəticələrin çıxarılması, sosioloji məlumatlar üzərində işin təşkili, sosial, iqtisadi, mədəni problemlərin tarixi baxımından inkişafının digər fənlərlə əlaqədə izlənilməsi;
- tarixi hadisələrin qarşılıqlı əlaqələrini təhlil etməklə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi.

Deyilənləri nəzərə alaraq, tarixçi düşüncəsinin necə olduğuna, qavrama prosesində hansı dəyişikliklərin olmasına dair, tarixin tədrisi zamanı əsas bacarıq və fəaliyyət sahələrini özündə əks etdirən interaktiv sxemi sizə təqdim edirik.



## TƏLİM PROSESİNDƏ OXUNUN ROLU

Şagirdlərin oxu bacarıqlarını necə yüksəltmək olar? Məlumdur ki, bunun yolu uşaqları ardıcıl şəkildə oxu ilə məşğul edib məktəbin digər fəaliyyətlərindən təcrid etməkdə deyil. Nə də şagirdləri kitabxanaya göndərməklə buna nail olmaq mümkün olur. Müəllimlər bir məsələni qəbul etməlidir ki, şagirdlərə oxumağı öyrətmək yalnız Azərbaycan dili müəllimlərinin vəzifəsi hesab edilə bilməz. Hər bir fənn müəllimi öz fənni üzrə mətnlərin oxu texnikasını uşaqlara mənimsətməli və onları inandırmalıdır ki, strategiyalı oxu yalnız fənnin daha yaxşı təliminə xidmət göstərməyəcək, həm də yaşadıqları bu mürəkkəb həyatda uğura nail olmasını təmin edəcək.

Təlimi oxudan kənarda təsəvvür etmək qeyri-mümkündür. Odur ki müvafiq strategiyalardan, metod və üsullardan istifadə etmək və mətnin oxusunun düzgün təşkilinə nail olmaqla şagird fəaliyyətinin məhsuldarlığının artırılmasına və oxu üzrə təlim nəticələrinin yüksəldilməsinə geniş imkanlar yaradılır. Şagirdlərin strategiyalı oxusu anlayaraq, dərk edərək təşkil edilmiş oxuya cəlb olunmasıdır.

Strategiyalı oxu ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bəzi mütəxəssislər hesab edirlər ki, strategiyalı oxu – düşünərək oxudur. Bəziləri isə strategiyalı oxunun şagirdə daha məharətlə düşünməyi öyrətdiyini güman edirlər. Üçüncülər isə hesab edirlər ki, strategiyalı oxu təhsilin məqsədidir, yəni bu oxu təlimə, tətbiqə və təhlilə aparan əsas yoldur. Bununla oxucu çevik düşünmək, sual vermək, keçmiş biliklərə əsaslanan yeni biliklər əldə etmək, fikir mübadiləsinə nail olmaq, nəticədə fikri dəqiq müəyyənləşdirmək və onlardan həyati problemlərin həllində bəhrələnmək kimi bacarıqlara yiyələnir. Bütün bunlardan çıxış edərək mütəxəssislər strategiyalı oxunu üç mərhələyə ayırmışlar:

• Strategiyalı oxu şagirdlərin oxu fəaliyyətini təşkil və idarə etməsidir. Yəni onlar oxu üçün təqdim olunan mətnin mənasını dərk etməyi problem, mətnin oxusunu isə problemi həlletmə forması kimi dəyərləndirir, məqsədə nail olmaq üçün fəaliyyətini düşünülmüş şəkildə təşkil edir. Oxuya strategiyalı yanaşma ona xidmət edir ki, şagirdlər gözlənilən nəticəni mətnin oxusuna başlamazdan əvvəl aydın təsəvvür etsinlər. Onlar dəqiq bilirlər:

– Hansı suallar cavablandırılmalıdır?

– Hansı plana əsasən oxu təşkil edilməlidir?

– Bu barədə artıq nələri bilirlər?

– Uğura nail olmaq üçün nələr etmək lazımdır?

• Strategiyalı oxu şagirdlərə müstəqil olaraq öz oxu nəticəsini yoxlama imkanı verir. Şagirdlər oxu zamanı gəldiyi qənaətlər barədə düşünürlər. Bu onlarda mühüm idraki bacarıqları inkişaf etdirir: əsas məsələnin aşkar olunması, oxudan əvvəl mövcud biliklərlə əlaqələndirilməsi, digər mətn materialları ilə müqayisə aparılması, mətnin ssenarisinə uyğun xəyalların qurulması...

Bu, təfəkkürün inkişafının yüksək mərhələsi olaraq təxəyyülə atılan ilk addım kimi dəyərləndirilə bilər. Bu zaman şagirdlər yalnız mətndəki mənanı dərk etmir, həm də mənanın dərk edilməsi prosesini şüurlu şəkildə qavrayırlar.

• Strategiyalı oxu materialları əsasında oxunun təşkili, idarə edilməsi və nəticənin qiymətləndirilməsi mərhələsindən sonra məzmundan əldə edilən qənaətlər müxtəlif həyati problem və tapşırıqların həllində və şagirdin dünyagörüşünün zənginləşdirilməsində vasitə kimi dəyərləndirilə bilər.

Yuxarıda göstərilənlər belə nəticəyə gəlməyə əsas verir ki, strategiyalı oxu "oxu qaydaları"nın praktik tətbiqi ilə düşünmə mühitinin yaradılması deməkdir.

### *Şagirdyönümlü sinfin yaradılması*

Təhsildə şagirdyönümlülük strategiyalı oxunun inkişafında xüsusilə əhəmiyyətli məsələdir. Strategiyalı oxunun inkişafı o deməkdir ki, şagirdlər zehinlərindəki ilkin düşüncələrini təlimlə əlaqələndirməyi öyrənməlidirlər.

Hər fənn üzrə oxunun özünəməxsus cəhətləri olduğundan şagirdlərə öncə fənlər üzrə materialları oxumağın yolları mənimsədilməlidir. Müəllimlər uşaqlara, sadəcə, "Kitablarınızı açın və mətni oxuyun!" deməməli, onları oxudan əvvəl, oxu zamanı və oxudan sonra mühüm təlim strategiyalarının tətbiqinə istiqamətləndirməlidir.

Şagirdyönümlü sinifdə təlimin səmərəliliyinə nail olunmasında öyrənənlərin mətnlə, başqa şagirdlərlə, müəllimlə qarşılıqlı fəaliyyəti böyük əhəmiyyət daşıyır. Təlimin təşkilində müəllimin vəzifəsi yeni prizmadan təqdim edilir. Müəllim şagirdin əvəzinə mətnin məzmununu başa düşə bilməz. Şagird bunu özü etməlidir. Tədqiqatlar göstərir ki, şagirdyönümlü sinifdə müəllim mühüm səkkiz prinsipə əsaslanmaqla təlimi təşkil edirsə, bu zaman təlim üçün məsuliyyətli şagirdlərin öz üzərinə götürməsinə şərait yaratmış və onları mühüm vəsaitlərlə təmin etmiş olur.

Tədqiqatçılar strategiyalı oxunun səkkiz prinsipini müəyyənləşdirmişlər. Belə ki strategiyalı öyrənən:

1) idraki və yüksək idraki bacarıqları əlaqələndirir;
2) məqsədləri müəyyənləşdirir və inkişaf haqqında düşünür;
3) yeni məlumatları mövcud bilikləri ilə əlaqələndirir;
4) mətnin mənasının dərk edilməsində fəal iştirak edir;
5) müəyyən işarələrdən istifadə edir;
6) fərdi oxunu faydalı hesab edir;
7) təlim zamanı özgələri ilə əməkdaşlıq edir;
8) düşünmənin üç mərhələsinə cəlb edilir.

**1. Strategiyalı oxucu idraki (koqnitiv) və yüksək idraki (metakoqnitiv) bacarıqları əlaqələndirir.** Yüksək idraki bacarıqlara malik olan şəxs bu bacarıqları nəzarətdə saxlayır. Strategiyalı oxucu avtomatik olaraq təlimdən əvvəl, təlim zamanı və təlimdən sonra baş verən idraki bacarıqları bir-biri ilə əlaqələndirir. Şagird əvvəl mövcud bilikləri üzərində düşünür, sonra bilik və bacarıqlarını genişləndirir. Strategiyalı öyrənən təlim zamanı problemi görür və strategiyalardan istifadə edərək onları aradan qaldırır. Strategiyalı oxucu oxu zamanı strategiyalardan düşünərək istifadə edir. Mətnin hər hansı hissəsini dərk edə bilməyən şagird bələd olduğu oxu strategiyalarını tətbiq edərək həmin hissənin mənimsənilməsinə nail olur. Məsələn, "Ucadan düşünmək" strategiyası mürəkkəb mətnlərin məzmununun dərk olunması üçün çox faydalıdır. Şagirdlərin "Oxudan əvvəl mülahizələr yürütdüm", "Oxu zamanı özümə suallar verdim", "Mətnin hissələri arasında əlaqələr yaratdım" kimi fikirləri onların yüksək idraki bacarıqlarından istifadə etdiklərindən xəbər verir. Ümumiləşdirmək, sual vermək, mətndən nəticə çıxarmaq və yekunlaşdırmaq kimi bacarıqlar metakoqnitiv bacarıqlardır. Şagirdlər metakoqnitiv bacarıqları nə qədər çox istifadə edirlərsə, təlim materiallarını o qədər tez mənimsəyirlər.

**2. Strategiyalı oxucu məqsədləri müəyyənləşdirir və inkişaf haqqında düşünür.**

Strategiyalı öyrədənlər məqsədlərini müəyyənləşdirməyi bacarırlar və öz təlimlərini idarə edirlər. Onlar bilirlər ki, məqsədini müəyyənləşdirən öyrənənlər həyatda daha çox müvəffəqiyyət qazananlardır. Məqsədlərini dəqiq müəyyənləşdirən insanın həmin tapşırığı yerinə yetirmək ehtimalı yüksəkdir, yəni məqsədlər nə qədər dəqiq olarsa, tapşırıqların da keyfiyyəti o qədər yüksək alınar.

Məqsədin müəyyənləşməsində seçmək bacarığı mühüm amildir. Şagirdlər dəqiq biləndə ki, əsas fikri nəyə yönəltməlidirlər, tapşırıqların icrasını daha maraqla və ruh yüksəkliyi ilə həyata keçirir, sərf olunan səyləri ilə nəticələr arasında əlaqəni görürlər. Məqsədlərə o zaman nail olunur ki, strategiyalı öyrənənlər öz inkişafları üzərində ardıcıl şəkildə işləyir, lazım gəldikdə müvafiq düzəlişlər edirlər.

Strategiyalı oxucular məqsədi müəyyənləşdirdikdən sonra oxu fəaliyyətinə başlayır, nəyin necə oxunmasının səmərəli olduğunu aydınlaşdırırlar. Bu zaman BİBÖ və digər məqsədləri müəyyənləşdirmə strategiyaları intensiv şəkildə istifadə edilir. Kollektiv sinif əməkdaşlıq şəraitində oxuya şərait yaradır. Şagirdlər təlim qrupunun üzvü olduqda onların təlim prosesində iştirakı daha da fəallaşır.

**3. Strategiyalı oxucu yeni məlumatları mövcud biliklərlə əlaqələndirir.**

İstənilən yeni təlim ilkin biliklərə əsaslanır. İlkin biliklər öyrənənin mövzu baxımından bildiyi və tətbiq etdiyi bütün məsələlərlə əlaqələndirilir.

Strategiyalı oxucular avtomatik olaraq mövcud biliklərini oxu materialı ilə bağlayırlar. Onlar bilirlər ki, oxunun əsasını hansı ilkin təcrübələr təşkil edir. Bilmək oxunun məqsədi olub, oxu müddətində diqqəti istiqamətləndirir. İlkin bilikləri qiymətləndirmək oxucunun diqqətinin ən mühüm məsələlərə yönəldilməsində mühüm rol oynayır. İlkin biliklərin oxu-

nan mətnin başa düşülməsində böyük rolu olduğundan şagirdlər mövcud biliklərini qiymətləndirməyin yollarına da bələd olmalıdırlar. Bunun üçün bir çox strategiyalar mövcuddur. Bunlardan "Anlayışları müəyyənləşdirmək üçün xəritə tərtib etmək" strategiyası diqqəti cəlb edir. Bu strategiya yeni sözlərin mənasını öyrənməkdə çox yararlıdır.

Məsələn,




Əgər oxucu öz ehtiyacına cavab verən strategiyanı düzgün seçib tətbiq edirsə, deməli, o, strategiyalı oxucudur.

**4. Strategiyalı oxucu mətnin mənasının dərk edilməsində fəal iştirak edir.**

Məna müəllimin yazılı izahı və ya mətn kimi başa düşülməməlidir. Məna dinlənilən və ya oxunulan məlumatlarla qarşılıqlı fəaliyyət əsasında yaranır. Əhəmiyyətsiz məlumat tezliklə unudulur.

Mənanı dərk etməyə yönəldən nədir? Şagird təlim materialının öyrənilməsində maraqlı olanda və ya hər hansı məlumatı almağa ehtiyac duyanda mənanı dərk edir. Oxucu mənanı dərk etmək üçün məzmunu əlaqələndirməli, nəticə çıxarmalı və məzmunla bağlı şərhlər verməlidir. Strategiyalı oxucular bilirlər ki, suallar tərtib etmək, məsələ haqqında digərləri ilə söhbət etmək və düşündürücü yazılar yazmaq mənanı dərk etməyin yollarıdır. Oxu – mətn vasitəsilə düşünmək deməkdir. Oxucu mətnlə qarşılıqlı fəaliyyət nəticəsində mənanı dərk edir. Bu, əlbəttə ki, yazılmış işarələrin üzərinə göz gəzdirmək deyil. Hər bir oxucu oxuduğu materialdan anladığı mənanı yazıçının yazdığı və ya nəzərdə tutduğu məna ilə müqayisə edir. Bu zaman mənanın dərk edilməsi üçün ilkin biliklər cəlb olunur və müvafiq strategiyalardan istifadə edilir. Strategiyalı oxucu intensiv olaraq bacarıq və strategiyaların köməyi ilə mənanı başa düşür. Məsələn, strategiyalı oxucu oxudan əvvəl bütün ilkin biliklərini səfərbər edir. Məlumatlarla rastlaşdıqca bu barədə fikirlərini başqaları ilə müzakirəyə çıxarır. Aydın olmayan və sual doğuran fikirlərlə bağlı kitaba bənd etdikləri vərəqlərdə qeydlər aparır.

**5. Strategiyalı oxucu mətnin təşkili quruluşundan istifadə edir.**

Strategiyalı oxucu bilir ki, düşünmək və öyrənmək üçün məlumatların təşkil edilməsi mühüm şərtdir. O, təşkilati quruluşdan istifadə edərək fikirlərini həm konsepsiyalar, həm də yazılmış mətn şəklində formalaşdırmağın yollarını öyrənir. Məsələn, strategiyalı oxucu Venn diaqramında oxşarlıqları və fərqləri müəyyən edə bilər.

Şagirdlərə quruluşdan, strukturdan düzgün istifadənin yolları öyrədiləndə məlumatların yaddaşda mühafizəsinin təşkilinin keyfiyyəti də yüksəlir. Müəllim müxtəlif təşkilati işarələrdən düzgün istifadə etməyi nümunələr əsasında ardıcıl olaraq göstərəndə şagirdlər onu məqsədyönlü düşünmək, məlumatları qiymətləndirmək, yadda saxlamaq, fərqli şəraitlərdə istifadə etmək sistemi kimi qavrayırlar.

Oxu zamanı mətnin quruluşunu müəyyən etmək çox faydalıdır. Məlumatlandırıcı və hekayə xarakterli mətnlərin quruluşu fərqli olduğu kimi, bu, fərqli düşünmə tərzi də tələb edir. Hekayə xarakterli mətnləri oxuyarkən oxucu hekayənin başlanğıc, əsas hissə və nəticəsi kimi hissələri ilə bağlı məlumatlar alır. Məlumatlandırıcı mətn isə əsasən:

- səbəb
- müqayisə etmək
- anlamaq
- məqsəd
- problem
- sübut etmək
- ardıcıllıq
- tələb edir.

Hər təşkilati strukturun unikal xüsusiyyəti var və düşünməni də fərqli yollarla təşkil edir. Bu strukturlarla tanışlıq yeni anlayışların öyrənilməsini maksimum dərəcədə yüksəldir. Bəzən mətnlər struktur baxımından zəif və qeyri-mütəşəkkil olduğundan oxucuların onu anlaması çətinləşir. Belə mətnlərin oxusu və dərk edilməsi üçün şagirdlər həmin materialların təşkili strukturunu müəyyən etməyin və məzmunu aydınlaşdırmağın yollarını bilməlidirlər. Strategiyalardan istifadə etməklə oxucular hətta ən zəif təşkil olunmuş mətnin strukturunu belə müəyyənləşdirə bilirlər.

**6. Strategiyalı oxucu fərdi oxunu faydalı hesab edir.**

Öyrənmə arzusu və bacarığı yaranışdan insanların xislətində var. Lakin oxucuların öyrənmə üslubları fərqlidir. Bəzi şagirdlər mənzərəni dəqiqliklə təsəvvür edərək məsələni bütövlükdə, digərləri isə problemi kiçik hissələrə ayıraraq dərk edirlər.

Hovard Qardner dərketmənin müxtəlif növlərini tədrisin təşkilində əhəmiyyətli hesab edir. O inanır ki, hər bir şagird müəyyən qabiliyyətlərə malikdir və müəllim həmin qabiliyyəti aşkarlayaraq təlimi müvafiq şəkildə təşkil etməlidir. Bəzi şagirdlər tədqiqatların nəticələri haqqında yazmağa, digərləri isə şifahi təqdimatlar etməyə üstünlük verirlər. Elələri də var ki, problemlə bağlı şeir yazmağı, mahnı bəstələməyi və ya film çəkməyi xoşlayır.

Təlim zamanı dərketmənin bütün imkanlarının nəzərə alınması öyrənənlərin müvəffəqiyyəti ilə nəticələnir. İnsanlar müxtəlif olduğu kimi, onların öyrənmə tərzi, öyrənmənin təşkili və bilikləri nümayiş etdirmə yolları da fərqlidir.

Hər kəs bu barədə düşünə bilər: "Mən necə oxuyacağam?", "Mən hansı şəraitdə oxumağı sevirəm?", "Mən hansı vərdişlərə sahibəm?" Siz söz, fikir və obrazlar haqqında götür-qoy edərək oxuyursunuz, ya oxuduğunuzu bir film kimi təsəvvür edirsiniz? Bəlkə də, sürətlə oxuyursunuz, fikirləri çevik müəyyənləşdirərək irəliləyirsiniz?

Kinestik oxucular aramla və mətni emosional şəkildə əlaqələndirməklə oxuyurlar. Onlar oxu zamanı bədənlərini hərəkətə gətirir və barmaqları ilə izləməyi xoşlayırlar. Sətiraltı əsas fikirlərə böyük əhəmiyyət vermək və yapışqanlı qeyd vərəqlərindən istifadə etmək kinestik oxucuların əsas göstəricisidir.

Vizual intellekti yüksək olan oxucular oxuduqlarını film kimi yadda saxlayırlar və ya mövcud biliklərindən istifadə edərkən xəyallarındakı filmləri sözlərlə ifadə edirlər. Bu oxucular oxuduqlarını sxem və ya qrafiklər şəklində də yaddaşlarında mühafizə edirlər.

Dinləmə intellekti yüksək olan oxucular, əsasən, sürətli oxucular kimi səciyyələnirlər və materialları ucadan təkrar-təkrar oxumağı sevirlər. Onlar məlumatları tez fəhm edir və suallara çevik cavab verirlər.

Bütün bunlar yalnız şagirdlərin öyrənmə üslubu haqqında məlumatlı olması deyil, həm də oxu zamanı onlara köməyin təşkil edilməsi üçün yararlıdır. Müxtəlif oxu üslublarının modelləşdirilməsi, şagirdlərə oxu zamanı boyalardan istifadə etməyə şəraitin yaradılması strategiyalı oxucuların formalaşması istiqamətində görülən mühüm işlərdir. Boyalardan istifadə etməyin yolunu, qrafiklər hazırlamağı, təlim materiallarını ucadan oxumağı şagirdlərə öyrətmək onların oxu bacarıqlarını yüksəldir. Mürəkkəb mətnlərin oxusu zamanı anlamaq məqsədinə nail olmaq üçün müxtəlif strategiyalardan istifadə etməklə şagirdlər daha da təkmilləşirlər.

### 7. Strategiyalı oxucu öyrənmək üçün başqaları ilə əməkdaşlıq edir.

Təlim ictimai baxımdan fəaliyyətdir və şagirdlər öyrənmək məqsədilə bir-biri ilə qarşılıqlı fəaliyyətdə olmağa ehtiyac duyurlar. Qrup fəaliyyətləri təlimin təşkilində böyük əhəmiyyət daşıyır. Həyatda da insanların birlikdə fəaliyyət göstərməsinə tez-tez ehtiyac duyulur. Birlikdə çalışan şagirdlər bu cür fəaliyyətdən necə faydalanırlar:

- Mövzu ilə bağlı düşünməyin müxtəlif yollarını aşkar edirlər;
- Mürəkkəb tapşırıqların yerinə yetirilməsində bir-birinə kömək göstərirlər;
- Başqa şagirdləri hörmətlə dinləməyi öyrənir və eşitdikləri fikirlərdən yararlanırlar;
- Qarşılıqlı şəkildə faydalanmağın yollarını aşkar edirlər;

Məsələ ilə bağlı rəylərini dəlillərlə müdafiə, eləcə də müxtəlif baxışları təsdiq etməyi öyrənirlər.

Əməkdaşlıq təlimini əhatə edən siniflərdə şagirdlər öyrənən icmaların üzvünə çevrilirlər. Bir yerdə işləyərkən onlar bir-birinin fikrinə hörmətlə yanaşmağı və qarşılıqlı şəkildə bəhrələnməyi mənimsəyirlər. Strategiyalı öyrənənlər mətnin kəsb etdiyi məzmunu fərdi

və qrup şəklində müəyyənləşdirirlər. Onlar bir-biri ilə əməkdaşlıq edərkən müəllifin fikirlərini anlamaqla yanaşı, dünyagörüşlərinin də formalaşmasına nail olurlar.

Şagirdlərə qruplarda təlimi öyrətmək çox əhəmiyyətlidir. Onlar digərlərinin təlimində iştirak edəndə öz təlimləri üçün də böyük məsuliyyət daşımağa başlayırlar. Çünki hər hansı bir məsələni kiməsə öyrədəndən sonra insanın özünə daha aydın olur. Strategiyada, əsasən, şagirdlərdən biri ucadan oxuyur, digəri isə onu dinləyir və oxunanları ümumiləşdirir. Mətnin oxusu başa çatdıqdan sonra cütlər vəzifələrini dəyişirlər. Digər “Kitab müzakirələri” strategiyalarına əsasən isə şagirdlər qruplarda oxuduqları kiçik və ya böyük mətnləri, eləcə də kitabları müzakirə edirlər. Müzakirə zamanı onlar məzmunu daha yaxşı anlayır, biliklərini digər şagirdlərin bilikləri ilə müqayisə edir, qiymətləndirirlər.

### 8. Strategiyalı oxu şagirdi üç mərhələyə cəlb edir.

Uğurlu təlim düşünmənin üç mərhələsində baş verir: təlimdən əvvəl, təlim prosesi zamanı və təlimdən sonra.

- I mərhələ – “Planlaşdırma mərhələsi” beyni təlimə hazırlayır.
- II mərhələ – “Qarşılıqlı fəaliyyət mərhələsi” təlim zamanı düşünərək yadda saxlamağı təmin edir.
- III mərhələ – “Düşünmə mərhələsi” təlimdən sonra inteqrasiya edir, əlaqələndirir və fikirləri tətbiq edir.

Planlaşdırma mərhələsi təlimin ilk addımı olduğundan ən məsuliyyətli mərhələdir. Öyrənən tapşırığı təhlil edib təlimin daha səmərəli təşkili üçün planlaşma aparır. İlkin hazırlıq nə qədər keyfiyyətli olarsa, şagirdin uğuru da o qədər yüksək olar.

“Təlim prosesi” mərhələsi şagirdlərin düşünməsini və təliminin nəticələrinin qiymətləndirməsini təmin edən metakoqnitiv (yüksək idraki) strategiyaların tətbiqini tələb edir. Şagird təlim zamanı düşünməni təmin edən qrafiklər tərtib edir və ya icmal hazırlayır. Bu vaxt müəllim nümayiş etdirilən filmi, aparılan təcrübəni saxlamaqla şagirdlərin diqqətini xüsusi məqamlara yönəldə bilər. İnformasiyalardan birini və ən mühümünü vurğulamaq üçün təlim prosesində şagirdləri saxlamaq, yoxlamaq, bilikləri möhkəmləndirmək və ümumiləşdirmək çox əhəmiyyətlidir.

“Təlimdən sonra” mərhələsində tətbiq edilən strategiyalar təlimdən sonra şagirdin düşünməsinin təşkilinə yönəldilir. Bu mərhələdə nail olunan nəticələrin təhlil və müqayisəsi, məsələ ilə bağlı şagirdlərin daha əhatəli düşünməsi, qənaətlərin ümumiləşdirilməsi əsas məqsəd kimi dəyərləndirilir.

Strategiyalı oxucular təlimin bu üç mərhələsi ilə yalnız tanış olmur, həm də onları oxu zamanı tətbiq edirlər. Onlar bilməlidirlər ki, oxu materialı oxudan əvvəl lazımi fəaliyyətlər yerinə yetiriləndə daha yaxşı dərk edilir. Təlim o zaman başlayır ki, oxucu məqsədi müəyyənləşdirsin, ilkin biliklərini təşkil etsin və təlimlə bağlı proqnozlaşdırma aparsın.

Strategiyalı oxucular bilirlər ki, oxunun interaktiv mərhələsi şagirdlərin oxu materialı ilə bağlı fikirlərinin yoxlanması və nizamlanması deməkdir və bu, dərketmənin yüksəldil-

məsinə xidmət edir. Əgər hər hansı parça anlaşıqlı deyilsə, şagirdlər oxunu saxlayır, həmin hissəni yenidən, aramla və ya ucadan oxuyur, kənarda sadə qələmlə qeydlər edirlər.

Şagirdləri oxuduqları materiallarla bağlı suallar verməyə istiqamətləndirmək təlim prosesinin nizamlanmasında onlara kömək edir. Oxu zamanı yeni öyrənilmiş məsələləri artıq bilinən və ya proqnozlaşdırılan məsələlərlə müqayisə etmək imkanları yaranır. Strategiyalı oxucu təlim prosesinin əngəlləndiyi məqamı hiss edir və problemi aradan qaldırmağın yollarını bilir.

Amerika pedaqoqu Con Dyui demişdir: “Biz gördüyümüz işlər haqqında düşünən zaman öyrənirik”. Strategiyalı oxucular oxuduqları materiallar üzərində düşünür, məqsədə çatıb-çatmadıqları haqqında qərarlar qəbul edir, tapşırığı yerinə yetirir, əldə edilmiş yeni bilikləri mövcud biliklərlə əlaqələndirir.

Oxu prosesinin istiqamətləndirilməsi üçün təlimin göstərilən səkkiz prinsipinin düşünülmüş şəkildə əlaqələndirilməsindən şagirdlər əhəmiyyətli dərəcədə faydalana və strategiyalı oxuculara çevrilə bilərlər.

## 5-ci SİNİFLƏR ÜÇÜN AZƏRBAYCAN TARİXİ DƏRSLİYİNİN YENİDƏN TƏRTİB EDİLMƏSİNDƏ BAŞLICA MƏQSƏDLƏR:

– Dərsliyin təhsil proqramının (kurikulum) tələblərinə uyğunlaşdırılması;
– Azərbaycanın coğrafi adı və tarixi əsasında şagirddə zaman və məkan anlayışının formalaşdırılması;
– Şagirdlərin yaş səviyyəsinə uyğun olmayan faktoloji materialların azaldılması, dərsliyin sadələşdirilməsi, şagirdlər üçün daha maraqlı və oxunaqlı vəziyyətə gətirilməsi;
– Dərsliyin həcminin optimallaşdırılması, aktual olmayan mövzuların çıxarılması;
– Mətnlərin tarixi hekayə janrına uyğunlaşdırmaqla daha cəlbedici olmasının təmin edilməsi;
– Şagirdlərdə azərbaycançılıq anlayışının formalaşdırılması, onlara ölkənin multikultural ənənələrinin öyrədilməsi;
– Azərbaycanda qalaların, şəhərlərin necə və hansı zərurətdən meydana gəlməsinin, tikilmə texnologiyasının maraqlı formada təqdimi;
– Azərbaycanın dünyadakı mövqeyi və rolunu, dünyanın bizə baxışını sadə şəkildə dəyərləndiməyə imkan verən mövzulara yer verilməsi;
– Tariximizə ümumi baxış formalaşdırmaq;
– Şəkillər, illüstrasiyalar əsasında sadə tədqiqat imkanı yaradılması;
– Mövzularla bağlı tarixi xəritələrdən istifadənin öyrədilməsi;
– Tarixi mənbələr haqqında ilkin təsəvvürlərin yaradılması.

Yuxarıda göstərilən şərtlər əsasında Azərbaycan tarixini şagirdlərə yaş səviyyəsinə uyğun şəkildə öyrətməyə imkan verən bir dərslik tərtib etmək qarşıya qoyulan başlıca məqsəddir.

Vəsaitin sonunda xəritələr verilmişdir. Xəritələr qruplarla iş zamanı şagirdlərə təqdim oluna bilər. Onlar xəritələrin üzərində müvafiq dövlətlərin adlarını qeyd etməlidir. Diqqət yetirmək lazımdır ki, şagirdlər xəritələr üzərində işləyərkən dərslikdən köçürməsinlər.

## 5-ci SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ MƏZMUN STANDARTLARI

**V sinfin sonunda şagird:**
- tarixi zaman anlayışlarını fərqləndirir;
- maddi və yazılı mənbələr əsasında sadə tədqiqatlar aparır;
- insanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir;
- insan və cəmiyyətin inkişafı üçün əlverişli təbii coğrafi amilləri izah edir və mühüm tarixi abidələri xəritədə müəyyənləşdirir;
- Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir və xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir;
- Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri müəyyən edir;
- Azərbaycanın maddi mədəniyyət abidələrini və mənəvi dəyərlərini qiymətləndirir.

## MƏZMUN XƏTLƏRİ ÜZRƏ ƏSAS VƏ ALT STANDARTLAR

### 1. Tarixi zaman
**Şagird:**

*1.1. Xronologiya ilə bağlı əsas anlayışları fərqləndirir.*

1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.
1.1.2. Sadə xronoloji məsələləri həll edir.

*1.2. Tarixi mənbələri tanıdığını nümayiş etdirir.*

1.2.1. Maddi və yazılı mənbələri fərqləndirir.
1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.

*1.3. İnsanların həyat tərzindəki dəyişiklikləri sivilizasiyalarla əlaqələndirir.*

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.

### 2. Tarixi məkan
**Şagird:**

*2.1. Azərbaycan ərazisinin təbii-coğrafi şəraitini tarixi hadisə, proses və təzahürlərlə əlaqələndirir.*

2.1.1. İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.
2.1.2. Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir.

**3. Dövlət**

**Şagird:**

*3.1. Azərbaycan ərazisində dövlətlərin yaranması, inkişafı və tənəzzülü ilə bağlı bilik nümayiş etdirir.*

3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.

3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur.

**4. Şəxsiyyət**

**Şagird:**

*4.1. Tarixi şəxsiyyətləri dövr baxımından qiymətləndirir.*

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) müəyyən edir.

4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.

**5. Mədəniyyət**

**Şagird:**

*5.1. Mədəniyyət və sivilizasiyaları qiymətləndirir.*

5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir.

5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.

5.1.3. Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır.

## 5-ci SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ STANDARTLARIN İNTEQRASİYA İMKANLARI

| **Tarixi zaman** | |
|---|---|
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir. | Azərbaycan dili (Az.d.) 1.2.4.<br>Riyaziyyat (Riy.) 1.2.1., 1.3.1.<br>Xarici dil (X.d.) 1.1.1. |
| 1.1.2. Sadə xronoloji məsələləri həll edir. | Azərbaycan dili (Az.d.) 1.2.2.<br>Riyaziyyat (Riy.) 1.2.1., 1.2.5., 1.3.1.<br>Xarici dil (X.d.) 1.1.1. |
| 1.2.1. Maddi və yazılı mənbələri fərqləndirir. | Azərbaycan dili (Az.d.) 1.1.1., 1.2.2., 1.2.4.<br>Ədəbiyyat (Əd.) 1.1.4., 1.2.1.<br>Xarici dil (X.d.) 2.1.2. |
| 1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır. | Azərbaycan dili (Az.d.) 1.2.2., 1.2.4.<br>Ədəbiyyat (Əd.) 3.1.2.<br>İnformatika (İnf.) 3.1.3., 3.2.3., 3.3.2. |
| 1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir. | Azərbaycan dili (Az.d.) 1.1.1., 1.2.1.<br>Ədəbiyyat (Əd.) 1.2.4.<br>Xarici dil (X.d.) 2.1.3.<br>Texnologiya (Tex.) 3.1.1. |
| **Tarixi məkan** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 2.1.1. İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir. | Azərbaycan dili (Az.d.) 1.2.2., 1.2.4.<br>Ədəbiyyat (Əd.) 3.2.1.<br>Təsviri incəsənət (T.i.) 1.1.1.<br>Xarici dil (X.d.) 2.1.2. |
| 2.1.2. Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir. | Azərbaycan dili (Az.d.) 1.1.1.<br>Xarici dil (X.d.) 3.1.4.<br>Texnologiya (Tex.) 1.3.3. |
| **Dövlət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir. | Azərbaycan dili (Az.d.) 1.2.2., 1.2.4.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Xarici dil (X.d.) 3.1.4. |

| | |
|---|---|
| 3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir. | Azərbaycan dili (Az.d.) 1.2.4.<br>Ədəbiyyat (Əd.) 2.2.1.<br>Texnologiya (Tex.) 1.3.3.<br>Xarici dil (X.d.) 2.1.2. |
| 3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur. | Azərbaycan dili (Az.d.) 3.1.4., 4.1.4.<br>Ədəbiyyat (Əd.) 3.1.3.<br>Xarici dil (X.d.) 2.1.3. |
| **Şəxsiyyət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) müəyyən edir. | Azərbaycan dili (Az.d.) 2.2.2., 2.2.3.<br>Ədəbiyyat (Əd.) 1.2.2., 2.2.1.<br>Təsviri incəsənət (T.i.) 1.3.1.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır. | Azərbaycan dili (Az.d.) 3.1.2.<br>Ədəbiyyat (Əd.) 3.1.2.<br>İnformatika (İnf.) 3.1.3., 3.2.3., 3.3.2.<br>Təsviri incəsənət (T.i.) 2.2.1. |
| **Mədəniyyət** | |
| **Standartlar** | **Digər fənlərlə inteqrasiya** |
| 5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir. | Azərbaycan dili (Az.d.) 1.2.2, 2.1.2., 2.2.3.<br>Ədəbiyyat (Əd.) 1.2.2.<br>Musiqi (Mus.) 1.1.1., 1.2.1.<br>Texnologiya (Tex.) 1.3.3.<br>Xarici dil (X.d.) 2.1.3. |
| 5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir. | Azərbaycan dili (Az.d.) 1.2.1., 1.2.4.<br>Ədəbiyyat (Əd.) 1.1.4., 1.2.2.<br>Musiqi (Mus.) 1.1.1., 1.2.1. |
| 5.1.3. Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır. | Azərbaycan dili (Az.d.) 3.1.2.<br>Ədəbiyyat (Əd.) 3.1.2.<br>İnformatika (İnf.) 3.1.3., 3.2.3., 3.3.2.<br>Təsviri incəsənət (T.i.) 2.2.1. |

## 5-ci SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİNİN 1.2.2. STANDARTINA AİD QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İllüstrasiya, şəkil və sənədli materialları tanıyır. | İllüstrasiya, şəkil və sənədli materialların mahiyyətini izah edir. | İllüstrasiya, şəkil və sənədli materiallar əsasında fikir söyləyir. | İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək ***tarixi tədqiqat aparır.*** |

Cədvəldən göründüyü kimi, IV səviyyədə 1.2.2. standartı olduğu kimi verilmişdir. IV səviyyə taksonomiyanın SİNTEZ səviyyəsini özündə əks etdirir. Belə olduğu halda, taksonomiyaya əsaslanaraq şagirdləri TƏTBİQETMƏ (III səviyyə), ANLAMA (II səviyyə), BİLMƏ (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirməyi tövsiyə edirik.

## 5-ci SİNİF AZƏRBAYCAN TARİXİ FƏNNİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏLƏRƏ DAİR NÜMUNƏ

### 3.1.2. STANDARTI ƏSASINDA QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ:

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Xalqın mənafeyinin dövlət tərəfindən qorunmalı olduğunu bilir. | Xalqın mənafeyinin dövlət tərəfindən qorunmalı olduğuna aid nümunələr göstərir. | Xalqın mənafeyinin dövlət tərəfindən qorunmalı olduğuna aid nümunələr göstərərkən faktlardan istifadə edir. | Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir. |

Cədvəldən göründüyü kimi, 3.1.2. standartı üzrə şagirdləri taksonomiyanın BİLMƏ (I səviyyə), ANLAMA (II səviyyə), TƏTBİQETMƏ (III səviyyə) və DƏYƏRLƏNDİRMƏ səviyyəsinə uyğun qiymətləndirməyi məqsədəmüvafiq bilmişik.

### 4.1.2. standartı əsasında qiymətləndirmə nümunəsi

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mənbələrə əsasən şəxsiyyətləri tanıyır. | Mənbələrə əsasən şəxsiyyətləri öz sözləri ilə təsvir edir. | Mənbələrə əsasən şəxsiyyətləri müqayisə edir. | Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır. |

Cədvəldən göründüyü kimi, 4.1.2. standartı üzrə IV səviyyə taksonomiyanın SİNTEZ səviyyəsini özündə əks etdirir. Belə olduğu halda, taksonomiyaya əsaslanaraq şagirdləri TƏHLİLETMƏ (III səviyyə), ANLAMA (II səviyyə), BİLMƏ (I səviyyə) səviyyələrinə uyğun olaraq qiymətləndirməyi məqsədəmüvafiq hesab edilir.

## DƏRSLƏRİN İLLİK PLANLAŞDIRILMASI

| Nº | Mövzu | Standart | Saat | Qiymətləndirmə |
|---|---|---|---|---|
| **Diaqnostik qiymətləndirmə** | | | | |
| **I bölmə: Qədim Azərbaycan** | | | **10** | |
| 1. | Tarix necə öyrənilir? | 1.1.2., 1.2.1., 1.2.2. | 2 | Formativ |
| 2. | Vətənim Azərbaycandır. | 2.1.1., 2.1.2. | 1 | Formativ |
| 3. | Azərbaycanda ilk insan məskənləri | 1.2.2., 2.1.1. 3.1.3. | 2 | Formativ |
| 4. | Əmək alətləri necə yarandı? | 1.3.1., 2.1.1. | 1 | Formativ |
| İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparmağa dair ümumiləşdirici dərs | | 1.2.2. | 1 | Formativ |
| 5. | Dövlət nə üçün lazımdır? | 3.1.2., 3.1.3. | 1 | Formativ |
| 6. | Azərbaycanın qədim dövlətləri | 3.1.1., 3.1.2. | 2 | Formativ |
| **Kiçik summativ qiymətləndirmə** | | | 1 | |
| **II bölmə: Azərbaycan dövlətləri** | | | 16 | |
| 7. | Əsarətlə barışmayan qəhrəman | 4.1.1., 4.1.2. | 1 | Formativ |
| 8. | Azərbaycanı birləşdirən ilk hökmdar | 3.1.1., 3.1.2. | 1 | Formativ |
| 9. | Səlcuqlar və Azərbaycan | 1.1.2., 3.1.3. | 1 | Formativ |
| 10. | Atabəy Şəmsəddin Eldəniz | 4.1.1., 4.1.2. | 1 | Formativ |
| 11. | Qara Yusif kim idi? | 1.1.1., 4.1.1. | 1 | Formativ |
| 12. | Həsən padşah Bayandur | 4.1.1. | 1 | Formativ |
| 13. | Şeyx necə şah oldu? | 1.2.2., 3.1.3., 4.1.1., 4.1.2. | 2 | Formativ |
| 14. | Tariximizdə qadınlar | 1.1.1., 1.3.1., 4.1.1. | 2 | Formativ |

| | | | | |
|---|---|---|---|---|
| **Kiçik summativ qiymətləndirmə** | | | 1 | |
| 15. | Şərqin son fatehi | 4.1.1. | 1 | Formativ |
| 16. | Birlik yoxdursa, dirilik də yoxdur. | 1.1.2., 2.1.2., 3.1.2. | 2 | Formativ |
| 17. | Azərbaycan necə parçalandı? | 3.1.2. | 1 | Formativ |
| Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlamağa və dövlətlər haqqında kiçikhəcmli tarixi hekayə qurmağa dair ümumiləşdirici dərs | | 3.1.3. 4.1.2. | 2 | Formativ |
| **III bölmə: Qalalar və şəhərlər** | | | 4 | |
| 18. | Daş keşikçilər | 1.2.2., 2.1.2. | 1 | Formativ |
| 19. | Şəhərlər necə yarandı? | 1.2.1., 1.2.2. | 1 | Formativ |
| 20. | Qədim Azərbaycan şəhərləri | 2.1.1., 2.1.2. | 1 | Formativ |
| 21. | Azərbaycanın taxtı – Təbriz | 2.1.1., 5.1.2. | 1 | Formativ |
| **Kiçik summativ qiymətləndirmə** | | | 1 | |
| **IV bölmə Azərbaycan respublikaları** | | | 22 | |
| 22. | Müsəlman Şərqinin ilk Cümhuriyyəti | 1.1.1., 3.1.1., 3.1.2. | 2 | Formativ |
| 23. | Sovet işğalı | 3.1.1. | 1 | |
| 24. | Azərbaycan xalqı faşizmə qarşı | 1.1.1., 3.1.3. | 2 | Formativ |
| 25. | Dövlət müstəqilliyinin bərpası | 1.2.2., 1.3.1., 3.1.1. | 2 | Formativ |
| 26. | Birinci Qarabağ müharibəsi | 3.1.1., 3.1.2. | 2 | Formativ |
| **Kiçik summativ qiymətləndirmə** | | | 1 | |
| 27. | Dövlətin xilaskarı | 1.1.2., 4.1.1. | 2 | Formativ |
| 28. | Müzəffər Ali Baş Komandan | 1.1.1., 4.1.1. | 2 | Formativ |
| Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlamağa dair ümumiləşdirici dərs | | 4.1.2. | 2 | Formativ |
| 29. | Böyük Zəfərin ilk qaranquşu – Aprel döyüşləri | 1.3.1., 3.1.2., 3.1.3. | 2 | Formativ |

| | | | | |
|---|---|---|---|---|
| 30. | Qanı ilə tarix yazan qəhrəmanlar | 4.1.2. | 2 | Formativ |
| 31. | Vətən müharibəsi | 1.2.2.,3.1.2. | 2 | Formativ |
| **Kiçik summativ qiymətləndirmə** | | | 1 | |
| 32. | Qarabağda quruculuq | 2.1.2., 3.1.2. | 1 | Formativ |
| **IV bölmə: Mədəniyyət inciləri** | | | 9 | |
| 33. | "Kitabi-Dədə Qorqud" | 5.1.1., 5.1.2. | 1 | Formativ |
| 34. | Nizami Gəncəvi | 5.1.2. | 1 | Formativ |
| 35. | Elmlə siyasət yürüdən alimlər | 5.1.1. | 1 | Formativ |
| 36. | Azərbaycan tarixinin atası | 5.1.1. | 1 | Formativ |
| 37. | "Əkinçi"dən başlanan yol | 5.1.3. | 1 | Formativ |
| 38. | Milli operanın banisi | 5.1.3. | 1 | Formativ |
| 39. | Lütfi Zadə | 5.1.1., 5.1.2. | 1 | Formativ |
| Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlamağa dair ümumiləşdirici dərs | | 5.1.3. | 2 | Formativ |
| **Kiçik summativ qiymətləndirmə** | | | 1 | |
| **YEKUN** | | | 68 | |

# 1 Tarix necə öyrənilir?

**Qeyd.** Tədris edilən mövzu dərsliyin ilk mövzusu olduğundan, eləcə də şagirdlərin məhz bu dərsdə tarix, zaman, dövr, mənbə, tarixin hesablanma qaydası və s. bu kimi məsələlərlə ilk dəfə tanış olacağını nəzərə alaraq mövcud dərsin tədrisinə iki saat ayrılmışdır. Bu paraqraf dərsliyin 6–9-cu səhifələrini əhatə edir. Bu paraqraf tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölünmüşdür.

– Birinci dərsdə 1.1.2., 1.2.1. standartlarının reallaşdırılması; İkinci dərsdə 1.2.2. standartının reallaşdırılması nəzərdə tutulmuşdur. Bu dərsdə şagirdlərə illüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparılması tapşırıla bilər.

Onu da bildirək ki, bu bölgü mütləq deyil. Müəllim öz təlim strategiyasına, sinifdəki şagirdlərin bacarığına uyğun olaraq bu bölgünü dəyişə bilər.

**Standartlar:**
1.1.2. Sadə xronoloji məsələləri həll edir.
1.2.1. Maddi və yazılı mənbələri fərqləndirir.

**Təlim məqsədləri:**
1. Azərbaycan tarixi ilə bağlı sadə xronoloji məsələləri həll edir.
2. Tarixi mənbələri fərqləndirir.

**Təlim formaları:** kollektiv, fərdi
**Təlim üsulları:** beyin həmləsi, zaman oxu

**Dərsin gedişi**

**Motivasiya.** Şagirdlərdə dərsə maraq oyatmaq üçün onların diqqətini *zaman, vaxt, saat, il, fəsil, dövr, tarix* və s. bu kimi anlayışlara yönəltmək olar. Bunun üçün onlara beyin həmləsi üsulundan istifadə etməklə aşağıdakı sualları vermək olar.

– *Zaman nədir?*
– *Dövr anlayışını necə başa düşürsünüz?*
Cavablar alınandan sonra şagirdlərə növbəti sual verilə bilər.
– *Sizcə, tarix nədən ibarətdir? Fikirlərinizi necə əsaslandırarsınız?*

Alınan cavablar ümumiləşdirilir, yeni dərsə keçid edilir.

**Tədqiqat sualı.** Tarixin öyrənilməsində mənbələrin rolu nədir?

**Tədqiqatın aparılması.** Dərsin kiçik qruplarla iş formasından istifadə etməklə təşkili məqsədəmüvafiqdir. Zaman oxu üzərində işin təşkili tarix fənninin şagirdlərə öyrədilməsində ən əhəmiyyətli məsələlərdən biridir. Qruplara verilən tapşırıqlar aşağıdakı kimi ola bilər.

**I qrup**
**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**
a) 1501-ci il – Səfəvilər dövlətinin yaradılması
b) 837-ci il – Bəzz qalasının tutulması
c) 1736-cı il – Muğan qurultayı
d) 1991-ci il – Azərbaycan Respublikasının qurulması

**2. Verilmiş hadisənin ilini minilliyə, yüzilliyə və rüblərə ayırın.**

1501-ci il – Səfəvilər dövlətinin yaradılması

---

**3. Verilənlər içərisindən görüntülü mənbələri fərqləndirin.**

qayaüstü yazılar, fotolar, əmək alətləri, daş kitabələr, sənədli filmlər, əfsanələr, qalalar, silahlar, dastanlar, rəsmlər, qəzetlər, videogörüntülər, qablar, pullar, jurnallar, aşıq mahnıları, tikililər, əmək alətləri, nağıllar, kitablar, bayatılar, salnamələr, televiziya çəkilişləri

**II qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

a) 1918-ci il – Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması
b) 1501-ci il – Səfəvilər dövlətinin yaradılması
c) 2020-ci il – 44 günlük Vətən müharibəsi
d) 1752-ci il – Pənahabad qalasının salınması

**2. Verilmiş hadisənin ilini minilliyə, yüzilliyə və rüblərə ayırın.**

1918-ci il – Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması

---

**3. Verilənlər içərisindən yazılı mənbələri fərqləndirin.**

qayaüstü yazılar, fotolar, əmək alətləri, daş kitabələr, sənədli filmlər, əfsanələr, qalalar, silahlar, dastanlar, rəsmlər, qəzetlər, videogörüntülər, qablar, pullar, jurnallar, aşıq mahnıları, tikililər, əmək alətləri, nağıllar, kitablar, bayatılar, salnamələr, televiziya çəkilişləri

**III qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

a) 1918-ci il – Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması
b) 837-ci il – Bəzz qalasının tutulması
c) 1736-cı il – Muğan qurultayı
d) 2020-ci il – 44 günlük Vətən müharibəsi

**2. Verilmiş hadisənin ilini minilliyə, yüzilliyə və rüblərə ayırın.**

2020-ci il – 44 günlük Vətən müharibəsi

---

**3. Verilənlər içərisindən maddi mənbələri fərqləndirin.**

qayaüstü yazılar, fotolar, əmək alətləri, daş kitabələr, sənədli filmlər, əfsanələr, qalalar, silahlar, dastanlar, rəsmlər, qəzetlər, videogörüntülər, qablar, pullar, jurnallar, aşıq mahnıları, tikililər, əmək alətləri, nağıllar, kitablar, bayatılar, salnamələr, televiziya çəkilişləri

**IV qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

a) 1501-ci il – Səfəvilər dövlətinin yaradılması
b) 2020-ci il – 44 günlük Vətən müharibəsi
c) 1752-ci il – Pənahabad qalasının salınması
d) 1991-ci il – Azərbaycan Respublikasının qurulması

**2. Verilmiş hadisənin ilini minilliyə, yüzilliyə və rüblərə ayırın.**

1991-ci il – Azərbaycan Respublikasının qurulması

---

**3. Verilənlər içərisindən şifahi mənbələri fərqləndirin.**

qayaüstü yazılar, fotolar, əmək alətləri, daş kitabələr, sənədli filmlər, əfsanələr, qalalar, silahlar, dastanlar, rəsmlər, qəzetlər, videogörüntülər, qablar, pullar, jurnallar, aşıq mahnıları, tikililər, əmək alətləri, nağıllar, kitablar, bayatılar, salnamələr, televiziya çəkilişləri

**Qeyd.** Qruplara verilən tapşırıqlarda xronoloji müxtəlif illər, həmin illərdə baş vermiş tarixi hadisələr verilmişdir. Şagirdlər bu tarixi hadisələrlə növbəti dərslərdə tanış olacaqlar. Bu tapşırığın verilməsində məqsəd şagirdlərdə xronoloji ardıcıllığın müəyyən edilməsi bacarığının formalaşdırılmasıdır.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Şagirdlərin cavabları dinlənilir, müzakirə olunur və əlavələr edilir. Səhv nəticələrin səbəbləri araşdırılır, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir. Müzakirələr zamanı bütün sinif şagirdlərinin fəallığının təmin olunması diqqətdə saxlanılmalıdır. Şagirdlərin müzakirələrdə fəal iştirakı təlim nəticələrinin alınmasına yardım edəcəkdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə verilən yönləndirici suallar vasitəsilə ümumiləşdirmə aparılır və tədqiqat sualına cavab tapılır. Bununla belə, tədqiqat sualının tam cavabını almaq üçün aşağıdakı suallardan istifadə etmək müəllimə yardım edə bilər.

– *Tarixi hadisələri xronoloji qaydada sistemləşdirmək üçün nə etmək lazımdır?*
– *Mühüm tarixi hadisələri xronoloji ardıcıllıqla yadda saxlamaq yaxşıdır və ya hər bir hadisənin baş verdiyi tarixi yadda saxlamaq?*
– *Yaşadığınız ərazidə və ya onun yaxınlığında hansı tarixi abidələr var?*
– *Təsəvvür edin ki, yazı yoxdur. Fikirlərinizi hansı vasitələrdən istifadə etməklə izah edə bilərsiniz?*

**Yaradıcı tətbiqetmə.** Müəllim şagirdlərə onların bir-birlərinə eradan əvvəlki və yeni erada baş verən hadisələrlə bağlı suallar verməsini və cavablandırılmasını təklif edir. Bu sual-cavabda müəllimin iştirakı ilə şagirdlər hesablanma qaydaları ilə tanış olurlar.

**Qiymətləndirmə meyarları:** həll etmə, fərqləndirmə

Müəllimin dərs prosesini izləməsi nəticəsində formativ qiymətləndirmə həyata keçirilir. Bununla belə, bu mərhələdə müxtəlif suallar verməklə də müəllim təlim prosesində fəaliyyətini izləmiş olduğu şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilər. Dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi də təqdim edilə bilər.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı və soyadı** ________________________________

**Sinif** _____________

Fəaliyyətinizi düzgün şəkildə ifadə edən seçimi işarələyin. (X)

| **Bacarıqlar** | **Dərəcələr** | | |
|---|---|---|---|
| | Həmişə | Bəzən | Heç vaxt |
| 1. Başqalarının izahlarını və məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Sinif yoldaşlarımı təşviq etdim. | | | |
| 4. Tapşırıqlarımı yerinə yetirdim. | | | |
| 5. Anlamadığım məsələlərə aid sual verdim. | | | |
| 6. Qrup yoldaşlarıma tapşırığın həllində kömək etdim. | | | |
| 7. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | | | |
| 8. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə etdim. | | | |

# 1 Tarix necə öyrənilir?

**Standart:** 1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.

**Təlim məqsədi.** İllüstrasiya və şəkillərdən istifadə edərək tarixi tədqiqat aparır.

**Təlim forması:** kiçik qruplar

**Təlim üsulu:** müzakirə

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərs birinci paraqrafın tədrisi üçün nəzərdə tutulan ikinci saatdır. Müəllim motivasiya qurmaqda sərbəstdir.

**Tədqiqat sualı.** Tarix necə öyrənilir?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını kiçik qruplarla iş formasından və müzakirə üsulundan istifadə edilməklə aparılması tövsiyə edilir. Fəal təlimin şagirdləri illüstrasiya və şəkillərin köməyi ilə tədqiqata yönləndirmək üçün müvafiq materialların əvvəlcədən hazırlanması məqsədəmüvafiqdir. Bu materialları şagirdlərə "PowerPoint" proqramının köməyi ilə və ya üzünün (surətinin) çıxardılması yolu ilə kağız variantda təqdim edilə bilər. Dərsliyin 11, 16, 18 və 23-cü səhifələrindəki şəkil və illüstrasiyalar üzərində işin aparılması diqqətdə saxlanılmalıdır. Qruplara tədqiqat üçün aşağıdakı suallar verilə bilər.

**I qrup**

Tarixi öyrənmək baxımından maddi mənbələrin əhəmiyyətini izah edin.

______________________________

______________________________

**II qrup**

Tarixi öyrənmək baxımından yazılı mənbələrin əhəmiyyətini izah edin.

______________________________

______________________________

**III qrup**

Tarixi öyrənmək baxımından görüntülü mənbələrin əhəmiyyətini izah edin.

______________________________

______________________________

**IV qrup**

Tarixi öyrənmək baxımından şifahi mənbələrin əhəmiyyətini izah edin.

______________________________

______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi həyata keçirilir. Bu mərhələdə şagirdlərə müəyyən vaxt verilir, onlardan bu vaxt ərzində cavablarını təqdim etmələri tapşırılır. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir.

Qruplar əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirib nəticə çıxartmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– *Təsəvvür edin ki, yaşadığınız yerin yaxınlığında və ya səyahət etdiyiniz hansısa bir ərazidə saxsı qab, qədim əşya tapmışsınız. Siz nə etməlisiniz? Bu barədə müzakirə aparın.*
– *Qədim insanlar daş, qaya üzərində təsvirləri necə çəkirdilər?*
– *Yazının əhəmiyyətini və vacibliyini nümunələrlə izah edin.*
– Şifahi mənbələr nə üçün ağızdan ağıza keçərək dövrümüzə gəlib çatmışdır?
– *Sizcə, ağac üzərindəki cızıqlar, yaxud düyünlər qədim insanlarda hansı fikirləri formalaşdırdı?*
– *Sizcə, telefonlardan qədim tariximizi öyrənmək üçün necə istifadə etmək olar?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə "X-O" oyununu xatırladan bir üsul təklif etmək olar. Bunun üçün, ilk növbədə, şagirdlərə aşağıdakı kimi bir vərəq paylamaq lazımdır.

***NÜMUNƏ 1***

| | | |
|---|---|---|
| 1 | 2 | 3 |
| 4 | 5 | 6 |
| 7 | 8 | 9 |

Vərəqlərin işlənmə qaydası şagirdlərə izah olunur. Müəllim bu üsuldan istifadə zamanı 9 fikir (cümlə) səsləndirir. Hər fikirdən sonra şagirdlər cədvəl üzərində müvafiq qeydlər aparırlar: onlar düz hesab etdikləri fikirlərə "0", səhv hesab etdikləri fikirlərə "X" yazırlar. Müəllimin səsləndirdiyi cümlələrin 4-ü düz, 5-i isə səhv (və ya əksinə) olmalıdır.

Nümunə üçün aşağıdakı faktlardan istifadə edə bilərsiniz:

*1. Pullar maddi mənbələr sayılır.*
*2. Hicri təqvimi Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köç etdiyi tarixdən başlayır.*
*3. Tarixin ən etibarlı yaddaşı rəsm əsərləridir.*
*4. Azərbaycan Respublikasında miladi təqvimdən istifadə edilir.*
*5. Tarixi mənbələr, əsasən, 5 qrupa bölünür.*
*6. Silahlar maddi mənbələrdir.*
*7. XXI əsr ikinci minillik deməkdir.*
*8. Miladi təqvim İsa peyğəmbərin hakimiyyətə gəldiyi tarixdən başlayır.*
*9. İsa peyğəmbərin anadan olmasından əvvəlki dövrə eradan əvvəl deyirlər.*

Səsləndirdiyiniz cümlələrə şagirdlər tərəfindən doğru cavab verilərsə, cədvəl aşağıdakı qaydada doldurulacaq.

| | | |
|---|---|---|
| 1 X | 2 O | 3 X |
| 4 O | 5 X | 6 O |
| 7 X | 8 X | 9 O |

**Qeyd.** Təcrübə göstərir ki, bu "oyun" şagirdlərin həddən artıq xoşuna gəlir və mövzunu daha yaxşı mənimsəməsinə kömək edir. Lakin bu üsuldan mütəmadi istifadə etmək olmaz. Çünki bu, yeknəsəkliyə səbəb olmaqla yanaşı, uşaqlarda hafizə yönümlülüyün formalaşmasına gətirib çıxara bilər.

**Qiymətləndirmə meyarları:** tədqiqat aparma

Qiymətləndirmə müəllimin dərs prosesində şagirdlərin fəaliyyətini izləməsi nəticəsində həyata keçirilir.

Dərsin sonunda qrup təqdimatının qiymətləndirilməsi vərəqindən istifadə etməklə şagirdləri qiymətləndirmək mümkündür. Qiymətləndirmədə 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.

**Qrup təqdimatının qiymətləndirilməsi cədvəlinə nümunə**

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Tədqiqat aparma səviyyəsinə cavab verir. | | | | |
| Vaxta əməl edir. | | | | |
| Tapşırığı vaxtında yerinə yetirir. | | | | |
| Qrup üzvləri bir-biri ilə əməkdaşlıq edir. | | | | |
| Təqdimatçı sərbəst çıxış edir. | | | | |
| Məlumat üçün seçilən material keyfiyyətlidir. | | | | |
| Çıxış edən əlavə suallara cavab verir. | | | | |
| Nəticə çıxarır. | | | | |

# 2 Vətənim Azərbaycan

**Standartlar:**
2.1.1. Azərbaycanda insan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.
2.1.2. Xəritədə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir.

**Təlim məqsədləri:**
1. Azərbaycan həyatı üçün əlverişli təbii amilləri təsvir edir.
2. Xəritədə Azərbaycanın mühüm tarixi abidələrini müəyyənləşdirir.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulları:** beyin həmləsi, fasiləli oxu

**Dərsin gedişi**

**Motivasiya.** Səməd Vurğunun "Azərbaycan" şeirindən bir, yaxud bir neçə bənd səsləndirilir və şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

– *Bu şeir parçası sizdə hansı hissləri oyatdı?*
– *Bu şeirdə doğmalıq bildirən hansı ifadələri qeyd edə bilərsiniz?*
– *Şeir vasitəsilə oxuculara hansı fikirlər çatdırılır?*

Şagirdlərin cavabları ümumiləşdirilir və tədqiqat sualı formalaşdırılır.

Motivasiyanın hansı üsul və vasitələrlə həyata keçirilməsindən asılı olmayaraq, əsas onun düşündürücü olması, şagirdlərdə fərziyyələrin yaranması və onların tədqiqata sövq edilməsidir. Motivasiya mərhələsinə 4-6 dəq. ayrılması məqsədəmüvafiqdir.

**Tədqiqat sualı.** Vətən nədir və haradır?

**Tədqiqatın aparılması.** Bu mərhələni həyata keçirmək üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Mətn növbə ilə şagirdlərə oxudulur, müəyyən hissələrdə fasilələrə yol verilir. Mətndaxili sual və tapşırıqların verildiyi hissələr fasilə edilən hissələr ola bilər. Şagirdlərin və sinfin səviyyəsindən asılı olaraq, bu fasilələri daha mürəkkəb görünən, düşünməyə və eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də aparıla bilər. Dərslikdə verilmiş sual və tapşırıqlardan da istifadə etmək məqsədəmüvafiqdir.

– *Qədim insanların köç etmə səbəbləri hansılardır?*
– *Sizcə, qalalar yalnız müdafiə məqsədi ilə tikilirdi? Şəkillərdən istifadə etməklə fikrlərinizi sübut edin.*
– *Hazırda Azərbaycan Respublikası hansı dövlətlərlə həmsərhəddir?*
– *Azərbaycanın coğrafi mövqeyini xəritədə müəyyən edin.*

Sonuncu tapşırığın üzərində iş aparmaq üçün coğrafi mövqe termininin izah edilməsi məqsədəmüvafiqdir.

Sual və tapşırıqların müzakirəsi zamanı şagirdlərin cavablarına hörmətlə yanaşmaq lazımdır. Onların cavablarını dəyərləndirmək şagirdlərdə özünəinam hissinin formalaşmasına, müxtəlif fərziyyələr söyləməsinə şərait yaratmış olar. Şagirdlərə veriləcək suallar onların mövzu ilə bağlı əldə etdikləri biliklərin üzə çıxmasına, yeni məlumatlardan nəticə çıxarmaq və əvvəlki mövzulardan öyrəndikləri materiallara istinad etməklə faktlar söyləməsinə şərait yaradacaqdır. Bu müzakirələr şagirdlərdə məlumatı emaletmə, münasibət bildirmə, izahetmə bacarıqlarını formalaşdırmağa yardımçı olar.

Şagirdlərin öz fikirlərini söyləyərkən ən zəruri məqamları yazılı şəkildə qeyd etməsi ümumiləşdirmə və nəticələrin əldə olunması mərhələsində faydalı resurs ola bilər. Fasiləli oxu zamanı təkcə mövzunu əhatə etmiş sual və tapşırıqlar deyil, xəritə və əyani vəsaitlər də diqqət mərkəzində saxlanılmalıdır. Şagirdlərin qiymətləndirilməsini mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində həyata keçirə bilərsiniz.

Fasiləli oxu bitdikdən sonra mövzu ilə bağlı yekun müzakirə aparıb dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsinə keçid edilir. Burada müəllim şagirdlərə əlavə olaraq insan və cəmiyyətin həyatı üçün əlverişli təbii amillərinə, Azərbaycan ərazisindəki mühüm tarixi abidələrinə dair əlavə sual və tapşırıqlar verə bilər. Şagirdlərin verdikləri cavablar dinlənilir, arqumentlər lövhədə qeyd olunur və müzakirəsi təşkil edilir. Lazım gələrsə, istiqamətləndirici suallardan istifadə olunur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün müəllim şagirdlərə aşağıdakı ümumiləşdirici sual və tapşırıqlarla müraciət edə bilər.

– *Qədim insanların hər hansı bir yerdə məskunlaşması üçün vacib şərtlər hansılardır?*
– *Qədim insanların dünyaya yayılması necə baş verdi?*
– *İnsanların dağlıq ərazilərdə məskunlaşmasının səbəbi nə idi?*
– *Tayfa ittifaqları nə üçün yarandı?*
– *Vətən haradır?*

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər Azərbaycanda həyat üçün əlverişli təbii amilləri təsvir edə, Azərbaycan ərazisində mühüm tarixi abidələri müəyyənləşdirə biləcəklər.

**Yaradıcı tətbiqetmə.** Bu mərhələdə şagirdlərə aşağıdakı cədvəlin tamamlanması tapşırıla bilər.

| **Təbii sərvətlərimizin bol olmasının** | |
|---|---|
| **üstünlükləri** | **mənfi nəticələri** |
| | |

**Ev tapşırığı.** Şagirdlərə “Müharibələrin insanların həyatına təsiri” adlı kiçik təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** təsvir etmə, müəyyənləşdirmə

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər.

Şagirdlərin bilik və bacarıqları, təlim nəticələrinə uyğun olaraq müvafiq meyarlara əsasən 4 səviyyə üzrə qiymətləndirilir. Refleksiya üçün aşağıdakı suallardan istifadə etmək mümkündür.

– *Dərsdə hansı yeni məlumatları öyrəndiniz?*
– *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
– *Sizə nə aydın olmadı?*
– *Hansı suallarınız var?* və s.

# 3 Azərbaycanda ilk insan məskənləri

**Qeyd.** 3-cü paraqrafın tədrisinə iki saat ayrılmışdır. Tədrisin birinci saatının 2.1.1. *(İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.);* ikinci saatının isə 1.2.2. (İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.) və 3.1.3. *(Kiçikhəcmli tarixi hekayə qurur.)* standartları əsasında qurulması tövsiyə edilir.

Mövzunun tədrisinin birinci saatında tədqiqatın ancaq mətn əsasında; ikinci saatında dərslikdəki şəkil, illüstrasiya və mənbə tipli “Bunu bilmək maraqlıdır”, “Bilirsinizmi?” başlıqlı məlumatlar əsasında aparılması tövsiyə edilir.

**Standart:** 2.1.1. İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.

**Təlim məqsədi.** Azərbaycanda qədim insanların həyatı üçün əlverişli təbii amilləri təsvir edir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulu:** “üç cümlə”

**Dərsin gedişi**

**Motivasiya.** Dərsliyin 14-cü səhifəsindəki şəkil üzərində müzakirə təşkil edilir. Şagirdlərə suallarla müraciət edilir.



– *Şəkildə nə təsvir olunmuşdur?*

– *Şəkil əsasında qədim insanın geyimi, yaşayış yeri, əmək alətləri haqqında hansı fikirləri yürütmək olar?*

Alınan cavablar ümumiləşdirilir və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.** Azərbaycanda ilk insan məskənləri necə yarandı?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını “üç cümlə” üsulundan istifadə etmək olar. Müəllim planlaşdırdığı dərsdən asılı olaraq, istənilən üsuldan istifadə edə bilər. “Üç cümlə” üsulundan istifadə edilərsə, şagirdlər onlara təqdim edilən materialı daha yığcam şəkildə təqdim edər və fikirlərini əsaslandırarlar. Az sözlə daha çox fikir ifadə edən qrup qalib gəlir. Məzmun diqqətdə saxlanılır. Tədqiqat aparmaq üçün aşağıdakı sual və tapşırıqlardan istifadə etmək olar.

**I qrup**

Qədim insanların yaşaması üçün əlverişli təbii amilləri və Azıx adamını təsvir edin.

________________________________________

________________________________________

**II qrup**

Odun insanlar üçün əhəmiyyətini yazın.

________________________________________

________________________________________

**III qrup**

Qobustan abidələrinin bizə hansı məlumatları verdiyini təqdim edin.

________________________________________

________________________________________

**IV qrup**

Qavaldaş və qədim qayıqlar haqqında bildiklərinizi yazın.

________________________________________

________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra **mübadilə və müzakirə** mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim etməlidirlər. Cavabların diqqətlə dinlənilməsinə, müzakirə olunmasına, əlavələr edilməsinə şərait yaradılır. Sinifdəki bütün şagirdlərin müzakirələrdə iştirakı təmin edilməlidir. Bütün şagirdlərin müzakirələrdə iştirakı şagird fəallığını təmin etmək və ümumi nəticəyə gəlməyə yardım etməklə yanaşı, qiymətləndirmənin də rahat həyata keçirilməsinə kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Ümumi nəticəyə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

– *Qədim insanların ov zamanı ağır daşlardan istifadə etməsi nəyi sübut edir?*

– *Od insan həyatında hansı rola malikdir?*

– *Sizcə, qayaüstü təsvirlərin çəkilməsi hansı zərurətdən ortaya çıxmışdı?*

– *Qobustandakı qayıq təsvirləri və tapılan yerli xammal nəyi sübut edir?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə mövzu ilə əlaqədar 4-5 sözdən ibarət krosvord hazırlamaq tapşırılır.

Krosvord hazırlamaq üçün şagirdlərə təlimat verilir.

- Mövzu ilə bağlı açar sözlər seçilir.
- Açar sözlər biri digəri ilə uzlaşdırılır.

**Ev tapşırığı.** “Qobustanda həyat” adlı afişa hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarı:** təsviretmə

**Qiymətləndirmə** müəllimin dərsdə şagirdlərin fəaliyyətini izləməsi nəticəsində həyata keçirilir. Müəllim səviyyələr üzrə şagirdləri həm fərdi, həm cütlər, həm də qrup şəklində qiymətləndirə bilər. Qrupun qiymətləndirilməsi üçün aşağıdakı qiymətləndirmə vərəqindən istifadə edə bilər.

**Qrupun qiymətləndirmə vərəqi**

**Qrupun adı** ___________________

***Təlimat.*** *Hər meyar 1-dən 5-dək ballarla qiymətləndirilir.*

| Meyarlar | Ballar |
|---|---|
| Qrup üzvlərinin hazırlığı və təşkili qənaətbəxşdir. | |
| Qrupun hər bir üzvü mövzu üzərində çalışır. | |
| Qrup üzvləri birlikdə  və məhsuldar işləyir. | |
| Qrup bütün sinfi fəal olmağa sövq edir. | |
| Qrupun hər bir üzvü təmkinlə öz yoldaşlarına kömək edir. | |
| Qrup təqdimat üçün bir neçə üsuldan istifadə edir. | |

# 3 Azərbaycanda ilk insan məskənləri

**Standartlar:**
1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.
3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur.

**Təlim məqsədləri:**
1. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Azərbaycanın ilk insan məskənləri haqqında tarixi tədqiqat aparır.
2. Azərbaycanda ilk insan məskənləri haqqında kiçikhəcmli tarixi hekayə qurur.

**Təlim formaları:** fərdi, kiçik qruplar
**Təlim üsulu:** hekayə yazmaq

**Dərsin gedişi**

**Motivasiya.** Müəllim motivasiya qurmaqda sərbəstdir. Motivasiya qurmaq üçün müəllim mövzu ilə bağlı hər hansı bir sənədli filmdən, paylama materialından, sxemdən, cədvəldən və s. istifadə edə bilər.

**Tədqiqat sualı.** Azərbaycanda ilk insan məskənləri necə yarandı?

**Tədqiqatın aparılması.**

1.2.2. standartının reallaşması üçün şagirdlərə paraqrafın müvafiq səhifələrindəki (səh. 14–19) illüstrasiya, şəkil və mənbə tipli “Bunu bilmək maraqlıdır”, “Bilirsinizmi?” başlıqlı məlumatlar üzərində iş aparmaq tapşırılır.

3.1.3. standartını reallaşdırmaq üçün tədqiqatın kiçik qruplarla iş formasından istifadə edilməklə aparılması tövsiyə edilir. Kiçikhəcmli tarixi hekayə qurmaq üçün aşağıdakı mövzulardan istifadə etmək olar:

– “Azıx mağarasında yaşayan insanların fəaliyyəti”, “Qədim insanların həyat tərzi illüstrasiya və şəkillərdə”
– “Qobustan rəssamları”, “Qobustan qayıqları”

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tapşırığı icra etmək üçün verilmiş vaxt bitdikdən sonra qruplar hekayələri təqdim edirlər. İşi elə təşkil etmək lazımdır ki, hər qrupun hazırladığı hekayə dinlənilsin. Qrupların birinin digərinin təqdimatına münasibət bildirməsi məqsədəmüvafiqdir. Bu, şagirdlərdə ümumiləşdirmə, təqdimetmə, münasibət bildirmə kimi bacarıqların formalaşmasına yardım edəcəkdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin yekunlaşdırılması üçün şagirdlərə aşağıdakı sualları vermək olar:
– *Nə üçün mağaraları “insanların ilk evi” adlandırmaq olar?*
– *Odun əldə edilməsi insanlara nə qazandırdı?*

– *Yazının olmadığı bir dövrdə yaşayan insanlardan indiki dövrə xəyali məktub hansı formada göndərilə bilər? Qədim insanlar qayıqları necə və nə məqsədlə hazırlayırdı?*

**Ev tapşırığı.** Şagirdlərə ölkəmizdə mövcud olan mağaralar haqqında kiçik araşdırma aparmaq tapşırılır. Araşdırma aparmaq üçün şagirdlərə cütlər, yaxud kiçik qruplar şəklində fəaliyyət göstərmək tövsiyə edilir. Hər hansı bir şagird öz istəyi əsasında fərdi qaydada da tapşırığı icra edə bilər.

**Qiymətləndirmə meyarları:** tədqiqat aparma, hekayə qurma

Formativ qiymətləndirmə müəllim tərəfindən şagird fəaliyyətinin izlənməsi nəticəsində həyata keçirilir. Əgər dərsdə fərdi iş üstünlük təşkil edərsə, şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi təqdim etmək olar.

**Adı və soyadı** ________________________________

**Təlimat.** Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi (+) ilə işarələyin.

| Meyarlar | Dərəcələr | | |
|---|---|---|---|
| | həmişə | bəzən | heç vaxt |
| 1. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Tapşırıqlarımı vaxtında bitirdim. | | | |
| 4. Anlamadığım məsələyə aid sual verdim. | | | |
| 5. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | | | |
| 6. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə etdim. | | | |

# 4 Əmək alətləri necə yarandı?

**Standartlar:**

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.
2.1.1. İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.

**Təlim məqsədləri:**

1. Qədim insanların həyat tərzindəki dəyişiklikləri nümunə göstərməklə təsvir edir.
2. Qədim insanların və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.

**Təlim formaları:** kollektiv, fərdi

**Təlim üsulları:** beyin həmləsi, bir dəqiqə

**Dərsin gedişi**

**Motivasiya.** Mövzunun tədrisi zamanı müxtəlif vasitələrdən istifadə etməklə motivasiya qurmaq olar. Bunun üçün müxtəlif əmək alətlərinin şəkillərindən, yaxud, demək olar ki, hər evdə olan müxtəlif əmək alətlərinin (*kəlbətin, vintaçan, çəkic, bel, mişar, bıçaq və s.*) bir neçəsindən istifadə etmək olar. Şagirdlərə yönləndirici suallar verilə bilər:

– *Bu əşyalar haqqında nə bilirsiniz?*
– *Bu əşyalardan harada və nə üçün istifadə olunur?*
– *Sizcə, bu əşyaları ümumi hansı adla adlandıra bilərik?*
– *Əmək alətləri nə üçündür?*

Şagirdlərin cavabları ümumiləşdirilir, tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.** Əmək alətləri insanların həyatında nə kimi rol oynadı?

**Tədqiqatın aparılması.** Bunun üçün “bir dəqiqə” üsulundan istifadə etmək məqsədəmüvafiqdir. “Bir dəqiqə” üsulundan istifadənin qaydaları şagirdlərə izah olunur:

✓ **Materialla tanış olmaq üçün vaxt verilir;**
✓ **Şagirdlər materiallarla tanış olur;**
✓ **Müddət bitdikdən sonra şagirdlərə sual, yaxud hər hansı bir hökm təqdim olunur;**
✓ **Şagirdlər bir dəqiqə ərzində problemə münasibət bildirir, yaxud onu izah edirlər.**

Bu üsulun tətbiqi zamanı aşağıdakı sual və tapşırıqlardan istifadə etmək məqsədəmüvafiqdir:

– *Daş dövrü əmək alətlərini təsvir edin.*
– *Tunc dövrü əmək alətlərini təsvir edin.*
– *Dəmir dövrü əmək alətləri Daş və Tunc dövrlərinin əmək alətlərindən nə ilə fərqlənir?*
– *Əmək alətlərinin yaranmasını zəruri edən səbəbləri göstərin.*
– *Dərsliyin 20, 21, 22-ci səhifələrindəki şəkillərdə verilmiş əmək alətlərini təsvir edin və onlardan nə üçün istifadə edildiyini müəyyən edin. 23-cü səhifədəki şəkil əsasında insanların məşğuliyyəti haqqında fikirlərinizi bildirin.*
– *Maldarlıq və əkinçilik necə yarandı? Bunlar qədim insanlara yaşamaq üçün hansı dəstəyi vermişdir?*
– *Ox və kamanın ixtirasının əhəmiyyətini izah edin.*

**Qeyd.** Hörmətli müəllimlər, bir dərsdə bu qədər sual və tapşırıqdan istifadə vaxta qənaət baxımından müəyyən çətinliklər yarada bilər. Sinfin və şagirdlərin də səviyyəsini nəzərə almaq lazımdır. Tapşırıqlar azlıq təşkil edərsə, müəllim *əlavə tapşırıqlar hazırlaya və ya* tam cavablandırılmayan eyni tapşırığı təkrarən digər şagirdə verə bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə ümumi nəticə əldə etmək üçün əlavə sual və tapşırıqlardan istifadə etmək olar. Şagirdlərin cavabları dinlənilir, deyilən arqumentlər lövhədə qeyd olunur və müzakirəsi aparılır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün aşağıdakı suallardan istifadə etmək olar:

– *Daşla bağlı daha hansı "ilk"ləri sadalaya bilərsiniz?*
– *Hazırda bu əkin alətlərindən hansından istifadə edilir?*
– *Hazırda dəmir insanların həyatında hansı rolu oynayır?*
– *Dəmirin müasir dövrdə tətbiq sahələrini necə qruplaşdırmaq olar?*
– *Sizcə, tuncla dəmirin fərqi nədir?*
– *Mis alətlərlə tunc alətlərin fərqi nədir?*
– *Metal alətlərin daş alətlərdən üstün cəhətləri hansılardır?*

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələrdə şagirdlər qədim insanların həyat tərzindəki dəyişiklikləri nümunə göstərməklə təsvir edə, insan və cəmiyyətin həyatı üçün vacib olan əlverişli təbii amilləri nümunə kimi göstərməyi, Daş dövrü, Dəmir dövrü əmək alətlərinin yaradılması, istifadəsi haqqında müstəqil fikir yürütməyi bacararlar.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə qədim insanların fəaliyyət sahələrini qruplaşdırıb cədvəl hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** nümunə göstərməklə təsvir etmə, təbii amilləri təsvir etmə

Göstərilən meyarlar əsasında şagirdlərin formativ qiymətləndirilməsi aparılır. Formativ qiymətləndirmə aparmaq üçün aşağıda verilmiş özünüqiymətləndirmə vərəqindən də istifadə etmək olar.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı, soyadı** ________________________

**Tarix**__________________

| Meyarlar | Xeyr | Qismən | Tam |
|---|---|---|---|
| Qədim insanların həyat tərzindəki dəyişiklikləri nümunə göstərməklə təsvir etdim. | | | |
| Qədim insanların və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir etdim. | | | |
| Məntiqli yanaşmam var idi. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |
| Əməkdaşlıq etdim. | | | |

# 5 Dövlətlər nə üçün lazımdır?

**Standartlar:**

3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur.

**Təlim məqsədləri:**

1. Xalqın mənafeyinin qorunmasında dövlətin yaradılmasının vacibliyini dəyərləndirir.
2. Dövlət haqqında kiçikhəcmli tarixi hekayə qurur.

**Təlim formaları:** fərdi, böyük qruplar

**Təlim üsulları:** anlayışın çıxarılması, ardıcıl suallar

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyasını anlayışın çıxarılması üsulundan istifadə etməklə qurmaq olar.

Nümunə:




Şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

– *Bu ifadələri birləşdirən ümumi cəhət nədir?*

– *Bu sözləri hansı ümumi ad altında birləşdirmək olar?*

Sualların cavabları alınandan sonra fikirlər ümumiləşdirilir, dərsin növbəti mərhələsinə keçid edilir.

**Tədqiqat sualı.** Dövlətlər necə yarandı?

**Tədqiqatın aparılması.** Tədqiqatın ardıcıl suallar üsulundan istifadə edilməklə aparılması tövsiyə edilir. Üsulun tətbiqi ilə bağlı şagirdlər təlimatlandırılır:

- ✓ **Şagirdlərdən biri mətnin müəyyən hissəsini ucadan oxuyur;**
- ✓ **Digəri ona opponent təyin edilir;**
- ✓ **Opponent mətni oxuyan şagirdə oxuduğu hissədən bir, yaxud bir neçə sual verir;**

✓ **Mətni oxuyan sualları cavablandırır;**
✓ **Sonra sual verən şagird mətni oxuyur;**
✓ **İkinci şagird oxunan hissə ilə bağlı ona suallar verir.**

Bu üsulun tətbiqi şagirdlərdə ünsiyyət, mətnlə müstəqil işləmək, oxuyub-anlama vərdişləri ilə yanaşı, sual formalaşdırmaq, onu cavablandırmaq, müstəqil düşünmək kimi idraki bacarıqlar formalaşdırır.

Ardıcıl suallar üsulundan istifadə **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsini də həyata keçirmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab tapılır :

– *Təsəvvür edin ki, yaşadığınız yerdə evlər, binalar, yollar – bir sözlə, insan fəaliyyəti ilə bağlı olan heç nə yoxdur. Siz vəhşi təbiətlə üz-üzəsiniz. Ətrafınızda cürbəcür vəhşi heyvanlar dolaşır. İlk növbədə, nə edərdiniz?*
– *Qəbilə ilə tayfa arasında hansı fərq var?*
– *Sizcə, müasir dövrdə başçı, ağsaqqallar şurası və kahinləri hansı vəzifələrlə müqayisə etmək olar?*
– *Dövlətin rolunu və əhəmiyyətini dəyərləndirin.*

**Ev tapşırığı.**

Şagirdlərə aşağıdakılar ev tapşırığı kimi verilir:
✓ *Dövlətin vəzifələri haqqında kiçik təqdimat hazırlamaq;*
✓ *Dövlət haqqında kiçikhəcmli tarixi hekayə qurmaq.*

Tapşırığın iş formasını müəyyən etmək şagirdlərin ixtiyarına verilir.

**Qiymətləndirmə meyarı:** dəyərləndirmə

Təlim məqsədlərinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Vaxt qalarsa, şagirdlərə özlərini qiymətləndirmək üçün qiymətləndirmə vərəqi təqdim etmək olar.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı və soyadı** ________________________________

**Təlimat.** *Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi (X) ilə işarələyin.*

| Qabiliyyətlər | Dərəcələr | | |
|---|---|---|---|
| | həmişə | bəzən | heç vaxt |
| 1. Müəllimin məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Verilən hissəni səlis və aydın oxudum. | | | |
| 4. Yaxşı opponentlik etdim. | | | |
| 5. Mövzuya uyğun bir neçə sual verdim. | | | |
| 6. Verilən sualları cavablandırdım. | | | |
| 7. Oxuduğumu anladım. | | | |

**Şagirdlərə suallar verilmiş vərəqi də təqdim etmək olar.**

1. Bu dərsdə nə öyrəndim?________________________________

2. Öyrəndiklərimin əhəmiyyəti nədir? ________________________________

3. Öyrəndiklərimdən harada və necə istifadə edirəm?________________________________

# 6 Azərbaycanın qədim dövlətləri

**Qeyd.** Dərsliyin 28–33-cü səhifələrini əhatə edən mövcud paraqrafın tədrisinə iki saat ayrılmışdır. Xəritə, şəkil, illüstrasiya və maraqlı məlumatları özündə əks etdirən 6 səhifəlik materialın tədrisinə iki saat vaxt ayırmaqda məqsəd şagirdlərə dövlət və dövlətçiliyin nə olduğunu anlatmaq, ilk Azərbaycan dövlətlərinin hansı şəraitdə, necə yarandığını, dövlətlərin əsas qayəsinin nə olduğunu göstərməkdir.

**Standartlar:**

3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.
3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Manna, Atropatena və Albaniya haqqında sadə biliklər nümayiş etdirir.
2. Xalqın mənafeyinin qorunmasında Manna, Atropatena və Albaniyanın rolunu dəyərləndirir.

**Təlim formaları:** kollektiv, fərdi

**Təlim üsulları:** anlayışın çıxarılması, proqnozlaşdırılmış oxu

**Dərsin gedişi**

**Motivasiya.** Bu mərhələdə müxtəlif üsullardan istifadə edilə bilər. Əvvəlki dərslərdə əldə edilən biliklər və anlayışın çıxarılması bu dərs üçün motivasiya ola bilər. Müəllim şagirdlərə "Bu ifadələri hansı anlayışla ümümiləşdirmək olar?" sualını verir.




"Dövlətin əlamətləri" cavabı alınır, tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Manna, Atropatena və Albaniya dövlətləri necə yarandı?

**Tədqiqatın aparılması.** Bu mərhələni reallaşdırmaq üçün proqnozlaşdırılmış oxu üsulundan istifadə etmək məqsədəmüvafiqdir. Məzmunun mənimsənilməsinə həsr olunan dərsdə mətn-

dən bir hissə oxunur, fasilə edilir və şagirdlər hadisələrin sonrakı inkişafı barədə fərziyyələrini proqnoz cədvəlində qeyd edirlər. Mövzunun hissələri *“Sizcə, nə baş verəcək?”, “Nə üçün belə düşünürsünüz?”, “Hadisə necə davam edəcək?”* kimi sualları cavablandırmaqla davam edə bilər.

| **Sizcə, nə baş verəcək?** | **Nə üçün belə düşünürsünüz?** | **Nə baş verdi?** | **Hadisələr necə davam edəcək?** |
|---|---|---|---|
| | | | |
| | | | |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə şagirdlər tədqiqatın gedişində əldə etdikləri məlumatları, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Yeni bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır. Müəllim faktların müəyyən edilməsinə və onların məqsədyönlü müzakirəsinə nail olmalıdır. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə şagirdlər konkret nəticəyə gəlir və ümumiləşdirmələr aparırlar. Müəllim dərsi yekunlaşdırmaq üçün aşağıdakı suallarla şagirdlərə müraciət edə bilər:

– *Manna dövləti necə yarandı?*
– *Sizcə, ərazisi işğala məruz qalan ölkənin hökmdarında hansı xüsusiyyətlər olmalıdır?*
– *Sizcə, cəsarət, mərdlik kimi xüsusiyyətlərin əlamətləri hansılardır?*
– *Xalqın mənafeyinin qorunmasında Manna dövlətinin rolunu necə dəyərləndirmək olar?*
– *Atropatena dövləti necə yarandı?*
– *Atropatena dövlətinin yaranmasının əhəmiyyəti nə idi?*
– *Xalqın mənafeyinin qorunmasında Atropat hansı addımı atdı?*
– *Yun və kətan parçalar hansı sənət sahəsinin inkişafından xəbər verir?*
– *Albaniya dövləti necə yarandı?*
– *Dövlətin uzun müddət yaşaması üçün, sizcə, nələr lazımdır?*
– *Qəbirlərdən silahların tapılması nəyi sübut edir?*
– *Xalqın mənafeyinin qorunmasında Albaniya dövlətinin rolunu necə dəyərləndirmək olar?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə **“**Albaniya əhalisinin məşğuliyyəti və təsərrüfat həyatı” adlı kiçik mətn hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** sadə biliklər nümayiş etdirmə, rolunu dəyərləndirmə

Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilir.

Refleksiya üçün aşağıdakı suallardan istifadə etmək olar:

– *Yeni material sizə hansı təsiri bağışladı?*
– *Dərsdə informasiya əldə etməyin hansı yeni üsulunu öyrəndiniz?*
– *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
– *Sizə nə aydın olmadı?* və s.

# 6 Azərbaycanın qədim dövlətləri

**Standartlar:**

3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.
4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri *(İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

**Təlim məqsədləri:**

1. Manna, Atropatena və Albaniya haqqında sadə biliklər nümayiş etdirir.
2. İranzu və Atropatın Azərbaycan tarixində mühüm rolunu müəyyən edir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** karusel, Venn diaqramı

**Dərsin gedişi**

**Motivasiya.** Müəllimin qurduğu dərsdən asılı olaraq, müxtəlif üsul və vasitələrlə motivasiya qurula bilər.

**Tədqiqat sualı.** Manna, Atropatena və Albaniya dövlətləri necə inkişaf etdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunduqdan sonra kiçik qruplarla iş formasından, karusel təlim üsulundan istifadə etməklə dərs davam etdirilir. Şagirdlərin karusel üsulu haqqında məlumatlandırılması tövsiyə edilir. Tədqiqat aparmaq üçün qruplara aşağıdakı sual və tapşırıqlar verilə bilər. Sual və tapşırıqları özünüz də hazırlaya bilərsiniz.

**I qrup**
Manna dövləti necə yarandı?

___

**II qrup**
İranzunun Azərbaycan tarixində mühüm rol oynadığını əsaslandırın.

___

___

**III qrup**
Atropatın Azərbaycan tarixində mühüm rol oynadığını əsaslandırın.

___

___

**IV qrup**
Albaniyanın qədim Azərbaycan dövləti olduğunu əsaslandırın.

___

___

Şagirdlər işlərini təqdim edirlər, müzakirələr aparılır, müəyyən edilmiş zaman ərzində hər bir qrup digər qrupların yazılarına münasibət bildirir. Bu, şagirdlərdə dinləmə, münasibət bildirmə, rəy bildirmə bacarıqlarının formalaşmasına imkan yaradır.

Mübadilə və müzakirə mərhələsi bitdikdən sonra mövbəti mərhələyə keçid edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Tədqiqatla bağlı ümumiləşmə aparılır və yekun nəticə verilir. Müəllim lazım gələrsə, yönəldici suallardan: *"Niyə belə hesab edirsiniz?", "Hansı amillərin rolunu daha yüksək qiymətləndirirsiniz?"* və s. suallardan, yaxud mövzu ilə bağlı sual və tapşırıqlardan istifadə edə bilər.

Şagirdlərə aşağıdakı sual və tapşırıqlarla da müraciət etmək olar:

– *Sizcə, xarici düşmənlərdən qorunmaq təhlükəsi olmasa idi, Manna dövləti yarana bilərdimi? Fikrinizi necə əsaslandırarsınız?*
– *İranzuya müdrik hökmdar deyə bilərikmi? Fikrinizi necə sübut edərsiniz?*
– *Müasir dövrdə Azərbaycanın hansı bölgəsinin atları dünyada məşhurdur?*
– *"Uzaqgörən siyasətçi", "etibarlı müttəfiq" ifadələri dedikdə nə başa düşürsünüz?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlər Venn diaqramından istifadə etməklə İranzu ilə Atropatı müqayisə edir, oxşar və fərqli cəhətləri müəyyən edirlər.

**Qiymətləndirmə meyarları:** sadə biliklər nümayiş etdirmə, müəyyən etmə

Qiymətləndirmə şagirdlərin fəaliyyətinin izlənməsinə əsasən həyata keçirilir. Müəllim yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla müəyyən etdiyiniz səviyyələr üzrə şagirdləri qiymətləndirir.

Təqdimatın qiymətləndirilməsini şagirdlərin özləri də edə bilərlər.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı, soyadı** ____________________________

**Tarix** ___________________

| Meyarlar | Xeyr | Qismən | Tam |
|---|---|---|---|
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | | | |
| Dərsdə diqqətli idim. | | | |
| Problemin həllinə məntiqli yanaşdım. | | | |
| Sual-cavabda aktiv idim. | | | |
| Əməkdaşlıq etdim. | | | |
| Etiket qaydalarına riayət etdim. | | | |

# 7 Əsarətlə barışmayan qəhrəman

**Standartlar:**

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri *(İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Babəkin Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlərdən biri olduğunu müəyyən edir.
2. Mənbələrə əsasən Babək haqqında təqdimatlar hazırlayır.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, restavrasiya (bərpaetmə)

**Dərsin gedişi**

**Motivasiya.** Müəllim dərsə "Babək" filmindən bir fraqment (*bu, Babəkin ərəblərə qarşı döyüşü, Babəkin Afşinlə danışıqları, ərəb xəlifəsinə Xürrəmi üsyanları və ya Babəkin uğurları haqqında verilən məlumatlar səhnəsi ola bilər*) göstərməklə başlaya bilər. Deyilən epizodlar və ya müəllimin lazım bildiyi, əhəmiyyətli hesab etdiyi hər hansı bir səhnə nümayiş etdirilir, yönəldici suallar verməklə dərs davam etdirilir. Əgər texniki imkanlar yoxdursa, müəllim aşağıdakı üsullardan istifadə edə bilər:

- ✓ "Əsarət", "azadlıq", "müstəqillik", "üsyan", "müqavimət" və s. sözlər lövhəyə yazılır, söz assosiasiyası üsulundan istifadə etməklə ifadələrin mənası üzərində iş aparılmaqla;
- ✓ "Babək kimdir?", "Onun haqqında hansı məlumatlara maliksiniz? və s. suallardan istifadə etməklə;
- ✓ Mövzunun adına münasibət bildirməklə;
- ✓ Babəklə yanaşı, müxtəlif sahələrdə fəaliyyət göstərmiş şəxslərin şəkilləri nümayiş etdirilir və "Bunlardan hansı xalqın azadlığı uğrunda mübarizlərdən biridir?" sualı ilə şagirdlərə müraciət edilir.

Seçilən üsuldan asılı olmayaraq, şagirdlərin cavabları dinlənilir, ümumiləşmə aparılır və növbəti mərhələyə keçid edilir.

**Tədqiqat sualı.** Babək necə qəhrəman oldu?

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasından və restavrasiya üsulundan istifadə edilməklə aparılması tövsiyə edilir. Bu üsul şagirdlərə mətnlə işləməklə yanaşı, düzgün ifadəni seçmə, ümumiləşdirmə kimi bacarıqlar formalaşdırır. Qruplara ixtisar olunmuş mətn verilir. Onlar müəyyən edilmiş vaxt çərçivəsində mətni bərpa edirlər.

**I qrup**

Mətni bərpa edin.

Ərəblər qonşu ölkələrlə yanaşı, Azərbaycanı da işğal edib dövlətlərinin tərkibinə qatdılar. Bu dövlətə ________________________________________________

________________________________________________

___________________________________________________________

Xilafət dini dövlət olduğundan tutulan ___________________________________

___________________________________________________________

___________________________________________________________.

Bu isə vəziyyəti dəyişirdi. Yeni xəlifələr _______________________________

___________________________________________________________

**II qrup**

Mətni bərpa edin.

Azərbaycanda ərəb zülmünə qarşı çıxanları xürrəmilər adlandırırdılar. ________

___________________________________________________________

___________________________________________________________

____________________Əhalinin bütün təbəqələri _____________________

___________________________________________________________

___________________________________________________________

_______________Xalq içərisindən çıxan Babək tezliklə öz xalqının qəhrəmanına çevrildi. ______________________________________________________

**III qrup**

Mətni bərpa edin.

Xalq içərisindən çıxan Babək tezliklə öz xalqının qəhrəmanına çevrildi. ________

___________________________________________________________

___________________________________________________________

____________ Xürrəmilərin uğurları _________________________________

___________________________________________________________

___________________________________________________________

______________ Afşin əvvəlki ərəb sərkərdələrindən fərqli olaraq, __________

___________________________________________________________

**IV qrup**

Mətni bərpa edin.

Tarixi mənbələrin verdiyi məlumata görə, ağır edam ______________________

___________________________________________________________

_______________________________________________. Məğlub olmasına baxmayaraq, Xürrəmilər hərəkatı ___________________________________

___________________________________________________________

_____________________. Xalqımız öz qəhrəman oğlunu _________________

___________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra şagirdlər cavabları təqdim edirlər. Tamamlanmış mətnlər, cavablar diqqətlə dinlənilir, müzakirəsi təşkil edilir, lazım gələrsə, əlavələr edilir. Müzakirədə qruplardan birinin digərinin fəaliyyətini qiymətləndirməyə cəlb edilməsi məqsədəmüvafiqdir.

Əvvəlcədən müəyyən etdiyiniz meyarlar əsasında qruplar qiymətləndirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Mövzunu ümumiləşdirmək üçün aşağıdakı suallardan istifadə etmək olar:

– *Babəkin möhkəm xarakterli şəxs kimi yetişməsinin səbəbləri nə idi?*

*– Xalq birliyinin qələbə ilə nəticələnməsinə başqa hansı hadisəni nümunə göstərə bilərsiniz?*
*– Sizcə, Xürrəmilər hərəkatı hansı halda tam qələbə ilə nəticələnə bilərdi?*
*– Sizcə, Babək nə üçün xələfinin əfv fərmanını qəbul etməmişdi?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə "Ərəb əsarətinə qarşı üsyanların səbəbləri" adlı sxem tərtib etmək tapşırılır.




**Ev tapşırığı**

Şagirdlərə mənbələr əsasında Babək haqqında təqdimat hazırlamaq tapşırılır. Təqdimat şagirdlərin seçimi əsasında qruplar, cütlərlə və ya fərdi şəkildə hazırlana bilər.

**Qiymətləndirmə meyarları:** müəyyən etmə, təqdimat hazırlama

Qiymətləndirmə şagirdlərin fəaliyyətinin izlənməsinə əsasən həyata keçirilir. Müəllim yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla müəyyən etdiyiniz səviyyələr üzrə şagirdləri qiymətləndirir.

**Şagirdlərə özünüqiymətləndirmə vərəqi də təqdim edilə bilər.**

| Meyar | Qeyri-kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Əməkdaşlıq | | | | |
| Yoldaşlarıma kömək | | | | |
| Yoldaşlarıma hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Yoldaşları haqqında ədalətlə fikir yürütmə | | | | |

# 8 Azərbaycanı birləşdirən ilk hökmdar

**Standartlar:**

3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.

3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Sacoğulları dövləti haqqında sadə biliklər nümayiş etdirir.
2. Xalqın mənafeyinin qorunmasında vahid dövlətin rolunu dəyərləndirir.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulları:** anlayışın çıxarılması, beyin həmləsi, bitməmiş cümlələr

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün anlayışın çıxarılması üsulundan istifadə edə bilərsiniz. Lövhədə dairə çəkilir.




Şagirdlərə aşağıdakı sualla müraciət edilir:

*Fərz edin ki, sinif otağınız bu dairə şəklindədir. Sinfiniz də bir dövlətdir. Nailiyyət, uğur, düşmənə müqavimət, sərhədləri qorumaq baxımından nə baş verə bilər?*

Şagirdlərin cavabları ümumiləşdirilir, tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Azərbaycanda vahid dövlət necə yarandı?

**Tədqiqatın aparılması.** Tədqiqat “bitməmiş cümlələr” üsulundan istifadə edilməklə aparılır, şagirdlərin öz ideyalarını söyləməsinə şərait yaradılır. Bu halda şagirdlərə söylənilən fikirlər üzərində diqqətlə və dərindən düşünmək, onları digərləri ilə müqayisə etmək, təklif olunmuş mövzu üzrə daha sərbəst danışmaq, fikirlərini müstəqil şərh etmək bacarığını inkişaf etdirmək imkanı verilmiş olur. Bu üsuldan düzgün və səmərəli istifadə etmək üçün şagirdlərə yığcam izahat verilir. Belə ki şagirdlərə deyilən natamam cümlələri onlar 2-3 arqumentlə tamamlamalıdırlar.

“Bitməmiş cümlələr” aşağıdakı kimi ola bilər.

– *Ərəb xilafətinin zəifləməsinin səbəbini belə izah edərdim ki, ............................ .*

– *Sacoğulları dövlətinin yaranmasını belə əsaslandırardım ki, .......................... .*

– *Yusif Sacoğlunun dövlət yaratmasının səbəbi ......................*
– *Yusif Sacoğlunun əsas məqsədi haqqında mən .................... öyrəndim.*
– *Yusif Sacoğlunun vahid dövlət yaratması bizə belə bir nəticə çıxarmağa imkan verir ki, ...*
– *Sacoğulları dövlətinin ərazisi ........................... uzanırdı.*
– *Yusif Sacoğlu haqqında öyrəndim ki,.............................. ..*
– *Xəlifə ilə Yusif Sacoğlu arasında toqquşmaları belə izah etmək olar ki, .................. .*
– *Üsyançılara qarşı mübarizə aparmaq üçün Yusifin xəlifəyə kömək etməsini belə qiymətləndirmək olar ki, ..................... .*
– *Bugünkü dərsdə mən Sacoğulları dövləti haqqında ............................. öyrəndim.*
– *Sacoğulları dövlətinin süqutunun səbəblərini belə izah edərdim ki, ......................*
– *Xəlifənin Yusif Sacoğlunu həbsdən azad etməsinin səbəbləri .................. .*
– *Xalqın mənafeyinin qorunmasında vahid dövlətin rolunu belə dəyərləndirərdim ki, ........................... .*
– *Sacoğulları dövlətinin bütün Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirməsi belə nəticə çıxarmağa imkan verir ki, ......................... .*

Vaxt bölgüsünü əvvəlcədən elan etmək zəruridir. Natamam cümlələri tamamlamaq tapşırığı ya konkret şagirdlərə, ya da cavab vermək arzusunda olanlara verilir. Sinifdə fəallıq yaratmaq və bütün şagirdlərin diqqətini cəmləmək üçün müəllim digər şagirdlərə *"Yoldaşınızın fikirlərinə əlavə varmı?", "Cümlələr düzgünmü tamamlandı?"* və s. suallarla müraciət edilir. Lazım gələrsə, müəllim də müdaxilə edə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirələr tamamlandıqdan sonra tədqiqat sualına cavab tapmaq, təlim məqsədlərinin reallaşdırılmasını təmin etmək üçün suallarla şagirdlərə müraciət etmək olar:

– *Sizcə, pulların mis, gümüş və qızıldan kəsilməsinin səbəbi nə idi?*
– *Hazırda metal pul düzəldilməsi ənənəsi davam edirmi?*
– *Sizcə, yaşlı olsa da, xəlifənin köməyinə getməsi Yusifin hansı xüsusiyyətinin göstəricisidir?*
– *Sizcə, Sacoğulları dövlətinin yaranmasının əhəmiyyəti nə idi?*
– *Sacoğulları dövlətini Albaniya və Atropatena dövlətləri ilə müqayisə edib vahid dövlətin üstün cəhətlərini müəyyənləşdirin.*

**Yaradıcı tətbiqetmə.** Bu mərhələdə adları çəkilən şəhərlərin və ərazilərin xəritədə yerini müəyyən etmək tapşırığı verilə bilər.

**Qiymətləndirmə meyarları:** nümayiş etmə, rolunu dəyərləndirmə

Formativ qiymətləndirmə meyarlar əsasında həyata keçirilir. Formativ qiymətləndirmənin şagirdin fərdi xüsusiyyətlərini öyrənmək baxımından əhəmiyyətini nəzərə alaraq onların müzakirələrdə iştirak səviyyəsi, verdiyi məntiqli cavabları barədə yığcam rəy mübadiləsi aparmaq məqsədəmüvafiq olardı.

***Şagirdlərə aşağıdakı formada qarşılıqlı qiymətləndirmə vərəqi təqdim etmək olar.***

**Qarşılıqlı qiymətləndirmə vərəqi**

Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.

| Meyarlar | 1. Qiymətləndirilən şagirdin adı, soyadı | 2. Qiymətləndirilən şagirdin adı, soyadı | 3. Qiymətləndirilən şagirdin adı, soyadı |
|---|---|---|---|
| Verilən sualları düzgün cavablandırdı. | | | |
| Reqlamentə riayət etdi. | | | |
| Çıxış savadlı idi. (terminlərin istifadəsi, fikirlərin əsaslandırılması). | | | |
| Tapşırığı düzgün yerinə yetirdi. | | | |
| Nəticə çıxardı. | | | |
| Çıxış edən əlavə suallara cavab verdi. | | | |
| Yoldaşlarının fikirlərinə münasibət bildirdi. | | | |
| Dinləmək bacarığı var idi. | | | |
| Problemin həllinə məntiqli yanaşdı. | | | |

# 9 Səlcuqlar və Azərbaycan

**Standartlar:**

1.1.2. Sadə xronoloji məsələləri həll edir.
3.1.3.  Kiçikhəcmli tarixi hekayə qurur.

**Təlim məqsədləri:**

1. Azərbaycan tarixi ilə bağlı sadə xronoloji məsələləri həll edir.
2. “Səlcuqlar və Azərbaycan” adlı tarixi hekayə qurur.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulları:** beyin həmləsi, hekayə yazmaq

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün “Oyanış: böyük Səlcuqlu” filmindən bir kadr göstərmək və şagirdlərə düşündürücü, maraq oyadan suallar ünvanlamaq olar. Alınan cavablar ümumiləşdirilir, tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Səlcuqlar Azərbaycana necə gəldilər?

**Tədqiqatın aparılması.** 3.1.3. standartını reallaşdırmaq üçün tədqiqatın fərdi iş formasında aparılması tövsiyə edilir. Hekayə qurmaq üçün şagirdlərə aşağıdakı sualları vermək olar:

– *Oğuzlar kimlərdir?*
– *Oğuz boyları haqqında nə bilirsiniz?*
– *Azərbaycan adı necə yarandı?*
– *Azərbaycanın Səlcuqlar tərəfindən fəthini qiymətləndirin.*

**Məlumatın mübadiləsi və müzakirəsi.** Ayrılmış vaxt bitdikdən sonra şagirdlər hekayələri oxuyurlar. Hər mövzu üzrə 1-2 hekayənin dinlənilməsi tövsiyə edilir. Lakin digər şagirdlərin hekayələri toplanmalı, oxunaraq qiymətləndirilməli və nəticələri növbəti dərsdə şagirdlərə elan olunmalıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin yekunlaşdırılması üçün şagirdlərə aşağıdakı suallar verilə bilər:

– *Dövlətləri zəiflədən və onların dağılmasına səbəb olan amilləri sadalayın.*
– *Səlcuqların Azərbaycanı fəth etməsini asanlaşdıran səbəblər hansılardır?*
– *Sizcə, bir ölkədə bir neçə dövlətin olmasının hansı mənfi nəticələri ola bilər?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə Azərbaycan tarixi ilə bağlı sadə xronoloji məsələləri həll etmək üçün tapşırıqlar verilə bilər.

**Nümunə  tapşırıqlar:**

**1.** Bəzz uğrundakı döyüşdən, Səlcuq imperiyasının yaranmasından neçə əsr keçmişdir?
**2.** Səlcuq imperiyasının yarandığı əsrə aid bir il yazın.
**3.** Adları çəkilən şəxsləri xronoloji ardıcıllıqla düzün: Babək, Atropat, Səlcuq bəy, Yusif Sacoğlu, İranzu.

**Qiymətləndirmə meyarları:** həll etmə, hekayə qurma

**Formativ qiymətləndirmə** meyarlar əsasında həyata keçirilir. Formativ qiymətləndirmənin şagirdin fərdi xüsusiyyətlərini öyrənmək baxımından əhəmiyyətini nəzərə alaraq onların müzakirələrdə iştirak səviyyəsi, verdiyi məntiqli cavabları barədə yığcam rəy mübadiləsi aparmaq məqsədəmüvafiq olardı.

Dərsin əsas hissəsinin fərdi iş formasında təşkilini nəzərə alaraq şagirdlərə özünüqiymətləndirmə vərəqi təqdim etmək olar.

**Özünüqiymətləndirmə vərəqi**

**Adı və soyadı** ________________________________________

**Təlimat.** *Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi (+) ilə işarələyin.*

| Qabiliyyətlər | Dərəcələr | | |
|---|---|---|---|
| | həmişə | bəzən | heç vaxt |
| 1. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Çalışmalarımı bitirdim. | | | |
| 4. Anlamadığım məsələyə aid sual verdim. | | | |
| 5. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | | | |
| 6. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə etdim. | | | |

# 10 Atabəy Şəmsəddin Eldəniz

**Standartlar:**

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri *(İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Atabəy Şəmsəddin Eldənizin Azərbaycan tarixində mühüm rol oynamış şəxslərdən biri olduğunu müəyyən edir.
2. Mənbələrə əsasən Atabəy Şəmsəddin Eldəniz haqqında təqdimatlar hazırlayır.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** BİBÖ, təqdimat etmə

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyasını BİBÖ üsulundan istifadə etməklə qurmaq olar. BİBÖ üsulu dərsin əvvəlindən sonunadək olan bir mərhələni əhatə edir. BİBÖ cədvəli lövhədə çəkilir, şagirdlərdən Atabəy Şəmsəddin Eldənizin kimliyi, Azərbaycan Atabəylər dövləti haqqında məlumatlarının olub-olmadığı soruşulur. Cavabları BİBÖ cədvəlinin "*bilirəm*" hissəsində qeyd edilir. Daha sonra cədvəlin 2-ci sütunu üzərində iş aparılır. Şagirdlərin nəyi bilmək istədikləri qeyd olunur.

| Bilirəm | İstəyirəm, biləm | Öyrəndim |
|---|---|---|
| | | |
| | | |



**Tədqiqat sualı.** Atabəy Şəmsəddin Eldəniz dövləti necə qurdu?

**Tədqiqatın aparılması.** Bu mövzunun tədrisi zamanı təqdimat üsulundan istifadə etmək mümkündür. Təqdimatlar müxtəlif formalarda *(elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və s.)* və müxtəlif xarakterli ola bilər. Təqdimatla bağlı tapşırığın fərdi, cüt və qruplar şəklində verilməsi məqsədəuyğundur. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa cəlb etməkdir. Şagirdlərin təqdimatları şagirdin özünü qiymətləndirməsində də səmərəlidir.

Təqdimatın həyata keçirilməsi zamanı şagirdlər təlim prosesinin tamhüquqlu iştirakçıları olurlar. Tənqidi təfəkkürü formalaşdırmaqla onlarda hadisələrə münasibət bildirmə, məlumatı qiymətləndirmə bacarıqlarının aşılanması əsas məqsəddir. Şagirdlər verilən məlumatı təhlil edərək baş vermiş prosesin və ya şəxsiyyətin müsbət, mənfi cəhətlərini göstərməklə qiymətləndirmək qabiliyyətinə yiyələnirlər.

Didaktik təfəkkür vasitəsilə hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görmək və onların inkişaf istiqamətlərini aşkar etdirmək nəzərdə tutulur.

**I qrup**

Atabəy Şəmsəddin Eldənizin Səlcuq sarayına gəlişinə qədərki dövrə aid təqdimat hazırlayın.

**II qrup**

Atabəy Şəmsəddin Eldənizin atabəylik mərtəbəsinə yüksəlişini əks etdiirən təqdimat hazırlayın.

**III qrup**

Atabəy Şəmsəddin Eldənizin dövlət yaratmasına aid təqdimat hazırlayın.

**IV qrup**

Atabəy Şəmsəddin Eldənizin dövlət idarəçiliyinə dair təqdimat hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması üçün ayırdığınız vaxt bitdikdən sonra şagirdlərə hazırladıqları təqdimatı səsləndirmək üçün şərait yaradılır. Vaxtın məhdud olduğunu nəzərə alaraq hər təqdimat üçün reqlament müəyyənləşdirmək tövsiyə edilir. Hər tapşırıq üzrə təqdimatlardan sonra müzakirələr təşkil edilir. Ehtiyac yaranarsa, lazımi əlavələr etmək məqsədəmüvafiqdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin yekunlaşdırılması üçün şagirdlərə aşağıdakı suallar verilə bilər:

– *Sizcə, Eldənizin hansı xüsusiyyəti onun karvana çatmasına kömək etdi?*

– *Sizcə, mədəniyyətin inkişafına hansı amillər təsir göstərir?*

– *Sizcə, nə üçün Atabəy Şəmsəddin Eldənizi Azərbaycan tarixində mühüm rol oynamış şəxslərdən biri hesab etmək olar? Fikrinizi əsaslandırın.*

**Ev tapşırığı.** Şagirdlərə XII yüzilliyin memarlıq abidələri haqqında məlumat toplamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** müəyyən etmə, təqdimat hazırlama

Formativ qiymətləndirmə müəllimin dərs prosesini və şagirdlərin fəaliyyətini izləməsi nəticəsində həyata keçirilir. Qiymətləndirmə zamanı meyarlar nəzərə alınmalı, şagirdlər səviyyələr üzrə qiymətləndirilməlidir.

Şagirdlərə qrup təqdimatının qiymətləndirilməsi vərəqi də təqdim edilə bilər.

**Qrup təqdimatının qiymətləndirmə cədvəli**

**Təlimat.** *Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə edilməlidir.*

| **Meyarlar** | **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** |
|---|---|---|---|---|
| Mövzu açıqlandı. | | | | |
| Reqlamentə riayət olundu. | | | | |
| Çıxış savadlı idi (terminlərdən istifadə olundu, arqumentlər söylənildi). | | | | |
| Təqdimatçı sərbəst çıxış edirdi. | | | | |
| Təqdimat mükəmməl hazırlanmışdı. | | | | |
| Çıxış zamanı illüstrasiyalardan istifadə edirdi. | | | | |
| Məlumat üçün seçilən material maraqlı və əhatəli idi. | | | | |
| Nəticə çıxarıldı. | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bilir. | | | | |

# 11 Qara Yusif kim idi?

**Standartlar:**

1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.) müəyyən edir.

**Təlim məqsədləri:**

1. Tarixi zaman anlayışlarının gün, ay, il, yüzillik, minillik olduğunu müəyyənləşdirir.
2. Qara Yusifin Azərbaycan tarixində mühüm rol oynamış şəxslərdən biri olduğunu müəyyən edir.

**Təlim formaları:** böyük qruplar, cütlər

**Təlim üsulları.** beyin həmləsi, problemə müxtəlif nəzər nöqtəsindən baxış

**Dərsin mərhələləri.**

**Motivasiya.** Motivasiyanın qurulması üçün şəkillərdən istifadə oluna bilər. Bunun üçün məktəblərdə olan Azərbaycan hökmdarlarının şəkillərindən və ya internetdən yüklədiyiniz şəkillərdən istifadə edə bilərsiniz. Təbii ki müəllim olaraq seçdiyiniz şəkillərə münasib olaraq dərsə uyğun, şagirdləri dərsə motivəedici suallar qoymağınız vacibdir.

Motivasiyanı necə və hansı yolla reallaşdırılmasından asılı olmayaraq, əsas məsələ şagirdlərdə fərziyyələrin yaradılması və uzun vaxt aparmamasıdır. Motivasiya düşündürücü və 3-5 dəqiqəyə baş tutarsa, daha səmərəli olar. Motivasiya reallaşdırıldıqdan sonra tədqiqat sualının qoyulması zəruridir.

Əgər motivasiyanız uğurlu alınıbsa, deməli artıq tədqiqata şərait yaradılmışdır.

**Tədqiqat sualı.** Qara Yusif hansı tarixi zamanda hökmdar oldu?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını problemə müxtəlif nəzər nöqtəsindən baxış üsulu ilə keçirilməsi məqsədəuyğun olardı. Bunun üçün də sinfi cütlərə bölmək lazım gələcəkdir. Dərsi problemə müxtəlif nəzər nöqtəsindən baxış üsulu ilə tədris edərkən müəllim hər cütə mövzunu axıra qədər oxumağı, sonra isə hadisəni müxtəlif insanların dilindən nəql etməyə hazırlaşmağı tapşırır. Onlara tapşırığın icrası zamanı diqqətli olmağı, hadisəni nəql edən zaman məzmuna fikir verməyi məsləhət görülür.

Bunun ardınca cütlərə tədqiqat üçün aşağıdakı tapşırıqlar verilir.

**I cüt**

**Tapşırıqlar:**

1. Qara Yusifə müasir tarixçi mövqeyindən münasibət bildirin.

________________________________________

________________________________________

2. XV yüzilliyin neçənci minilliyə aid olduğunu müəyyənləşdirin.

________________________________________

**II cüt**
**Tapşırıqlar:**
1. Qara Yusifə Şirvanşahların nöqteyi-nəzərindən qiymət verin.

2. 1410-cu ilin neçənci yüzillik olduğunu müəyyənləşdirin.

**III cüt**
**Tapşırıqlar:**
1. Qara Yusifə Teymurilərin nöqteyi-nəzərindən qiymət verin.

2. 1410-cu ilin neçənci minillik olduğunu müəyyənləşdirin.

**IV cüt**
**Tapşırıqlar:**
1. Qara Yusifin dövlət əhəmiyyətli tədbirlərinə dövrün din xadimlərinin mövqeyindən münasibət bildirin.

2. 1420-ci ilin neçənci yüzillik olduğunu müəyyənləşdirin.

**V cüt**
**Tapşırıqlar:**
1. Qara Yusifin dövlət əhəmiyyətli tədbirlərinə dövrün elm və mədəniyyət nümayəndələrinin mövqeyindən münasibət bildirin.

2. 1420-ci ilin neçənci yüzillik olduğunu müəyyənləşdirin.

**Qeyd.** Sinifdə şagirdlərin sayı çox olarsa, eyni tapşırıqları yerlərini dəyişməklə bir neçə cütə vermək mümkündür.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Cütlərə hazırlaşmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir cüt təqdimat etmək üçün öz nümayəndəsini seçir. Təqdimatda cütün hər iki üzvü də iştirak edə bilər. Bu edilən təqdimatın daha maraqlı olmasına şərait yaratmaqla yanaşı, demək olar ki, sinif şagirdlərinin əksəriyyətini tədqiqata cəlb etmiş olar. Təqdimat zamanı müzakirələrin daha canlı alınması üçün çıxışların ardıcıllığını müəyyənləşdirmək, şagirdləri lazımi istiqamətə yönəltmək üçün suallar vermək tövsiyə edilir. Cütlərin də digərinə suallar verməsi əməkdaşlıq baxımından yaxşı olardı. Müzakirələr zamanı reqlamentə əməl etmək mütləqdir. Bu, şagirdlərdə fikri yığcam və lakonik ifadə etmək baxımından əhəmiyyətlidir.

# 12 Həsən padşah Bayandur

**Standart:**

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri *(İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

**Təlim məqsədi.**

Uzun Həsənin Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərdən biri olduğunu müəyyən edir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** anlayışın çıxarılması, "iki həqiqət, bir yanlış"

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiyanın düzgün qoyuluşu dərsə marağın köklənməsinə səbəb olur. Mövzunun tədrisi üçün anlayışın çıxarılması üsulundan istifadə etmək tövsiyə olunur. Lövhədə aşağıdakı formada sxem çəkilir:




Şagirdlərə suallarla müraciət edilir:

– *Sxemdəki adlar sizə tanışdırmı?*

– *Onları birləşdirən ümumi ifadə nədir?*

Sual işarəsinin yerinə yazılacaq sərkərdə sözü müəyyənləşdirilir və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.** Nə üçün Uzun Həsən Azərbaycan tarixində mühüm rol oynamış şəxslərdən biri hesab edilir?

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasından, "iki həqiqət və bir yanlış" üsulundan istifadə edilməsi ilə aparılması tövsiyə edilir. Sinif kiçik qruplara bölünür, hər qrupa mövzu ilə bağlı tapşırıq, tapşırığın icrası üçün təlimat verilir.

### TƏLİMAT

Verilmiş hökmlə bağlı üç fikir yazın. Fikirlərdən ikisi doğru, biri isə yanlış olmalıdır.

Hökmlər elə tərtib edilməlidir ki, yanlış və doğru fikirləri ilk baxışdan fərqləndirmək mümkün olmasın.

Fikirlər dərslikdən olduğu kimi köçürülməməlidir.

**I qrup**

Uzun Həsənin sərkərdəlik məharəti haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**II qrup**

Həsən bəyin Ağqoyunlu dövlətinin yaranmasından əvvəlki dövrdə fəaliyyəti haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**III qrup**

Həsən padşahın “Qanunnaməsi” haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**IV qrup**

Ağqoyunlu ordusu haqqında fikirlərinizi yazın.

1. ______________________________
2. ______________________________
3. ______________________________

Tapşırıqları cədvəl şəklində də hazırlamaq olar.

**Nümunə:**

| UZUN HƏSƏNİN SƏRKƏRDƏLİK MƏHARƏTİ | |
|---|---|
| **Doğru fikirlər** | **Yanlış fikirlər** |
| 1. | 1. |
| 2. | 2. |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tapşırığın icrasına ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimatını edir. Dinləyən qruplar yanlış fikri müəyyən etməlidirlər. Müəllim mövzu ilə bağlı üç fikir (ikisi doğru, biri yanlış) söyləməklə müzakirələrin daha canlı keçməsinə şərait yarada bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müəllim dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət edə bilər:

– *Ağqoyunlular dövləti necə yarandı?*
– *Sizcə, Həsən padşah nə üçün vergilərə xüsusi diqqət verirdi?*
– *Süvari döyüşçülərlə piyada döyüşçüləri müqayisə edin. Sizcə, onların bir-birindən hansı üstün və ya zəif cəhətləri ola bilər?*
– *Uzun Həsənin mahir sərkərdə olduğunu nədən bilmək olar?*
– *Bir şəxsiyyət kimi Uzun Həsəni necə qiymətləndirərsiniz?*
– *Sizcə, Uzun Həsən Azərbaycan tarixində hansı mühüm rol oynayıb?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə Həsən padşahın dövlətçilik fəaliyyətini qruplaşdırıb cədvəl hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarı:** müəyyən etmə

Dərs prosesində şagirdlərin fəaliyyətinin müşahidə edilməsi nəticəsində qiymətləndirilmə həyata keçirilir. Dərsin bu mərhələsində müəllim müxtəlif suallar verməklə də təlim prosesində izləmiş olduğu şagirdin hansı meyarın tələblərinə cavab verdiyini dəqiqləşdirə və əvvəlcədən müəyyən etdiyi səviyyələr üzrə qiymətləndirə bilər.

Qrup işini qiymətləndirmək üçün şagirdlərə qrup qiymətləndirmə vərəqi də təqdim edilə bilər. Meyarları artırıb-azaltmaq müəllimin planlaşdırdığı dərsdən asılıdır.

**Qrupun adı** ________________

**Təlimat.** *Meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.*

| Meyarlar | Səviyyələr | | | | |
|---|---|---|---|---|---|
| | heç vaxt | nadir hallarda | bəzən | tez-tez | həmişə |
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur. | | | | | |
| Qrupun hər bir üzvü tapşırıqların yerinə yetirilməsində iştirak edir. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edir. | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edir. | | | | | |
| Qrup üzvləri ziddiyətli fikirləri müzakirə edir. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərir. | | | | | |
| Qrup üzvləri məhsuldar işləyir. | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alır. | | | | | |

# 13 Şeyx necə şah oldu?

**Qeyd.** Mövcud paraqrafın tədrisinə iki saat ayrılmışdır. Burada məqsədimiz şagirdlərə Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətləri tanıtmaq, şagirdlərdə hekayə qurmaq bacarığını formalaşdırmaq, onları sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparmağa təşviq etmək, eləcə də mənbələr əsasında təqdimatlar etməyi öyrətməkdir. Deyilənləri nəzərə alaraq, bu paraqrafı tədris saatına uyğun olaraq aşağıdakı qaydada bölmüşük:

– birinci dərsdə 3.1.3. və 4.1.1.;
– ikinci dərsdə isə 1.2.2. və 4.1.2. standartlarının reallaşdırılması nəzərdə tutulmuşdur.

Onu da qeyd edək ki, yuxarıda müəllimlərə təqdim etdiyimiz tədris bölgüsü mütləq deyil. Bu bölgünü onlar dəyişə və yeni bölgü forması yarada bilərlər.

**Standartlar:**

3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur.

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (*İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.*) müəyyən edir.

**Təlim məqsədləri:**

1. Şah I İsmayıl haqqında kiçikhəcmli tarixi hekayə qurur.
2. Şah I İsmayılın Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərdən olduğunu müəyyən edir.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulları:** beyin həmləsi, hekayə qurmaq

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyasını "Həsən padşah Bayandur" paraqrafındakı məlumatlar əsasında beyin həmləsi üsulundan istifadə edərək qurmaq olar. Bunun üçün şagirdlərə Uzun Həsən, onun Azərbaycan tarixində mühüm rol oynamış şəxslərdən olması, həmçinin Ağqoyunlu dövlətinə dair qısa məlumat vermək vacibdir. Yaddan çıxarmayın ki, verəcəyiniz məlumatlar motivasiya xarakterli olmalı və şagirdləri yeni dərsə yönəltməlidir.

**Tədqiqat sualı.** Şah I İsmayıl necə şah oldu?

**Tədqiqatın aparılması.** 3.1.3. standartını reallaşdırmaqdan ötrü tədqiqatın fərdi iş formasından istifadə edilməklə aparılması tövsiyə edilir. Eyni tapşırığın bir neçə şagirdə verilməsi onların eyni mövzuya müxtəlif mövqedən yanaşmasını şərtləndirər. Bu zaman şagirdlərə hekayə qurmaq üçün aşağıdakı tapşırıqlar verilə bilər:

– *Şah I İsmayılın dövlət qurmasına qədərki fəaliyyətinə dair hekayə qurun.*
– *14 yaşlı İsmayıl necə şah oldu?*
– *İki türk dövləti arasında qardaş savaşına dair hekayə qurun.*
– *Şah I İsmayılın dövləti daxilən möhkəmləndirməsinə dair hekayə qurun.*

**Məlumatın mübadiləsi və müzakirəsi.** Hekayə yazmaq üçün şagirdlərə verilən vaxt bitdikdən sonra onlar yazdıqları hekayəni təqdim edirlər. Vaxtın məhdudluğunu nəzərə alaraq hər mövzu üzrə, ən azı, 2 hekayənin sinifdə dinlənməsi məqsədəmüvafiqdir. Digər şagirdlərin yazdıqları hekayələrin yığılıb yoxlanması, qiymətləndirilməsi və nəticələri ilə şagirdləri növbəti dərsdə məlumatlandırmaq mütləqdir.

Hər mövzu üzrə hekayələr oxunduqdan sonra müzakirələr təşkil etmək, ehtiyac yaranarsa, lazımi əlavələr etmək yaxşı olardı.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə edilməsi və tədqiqat sualı ilə bağlı nəticənin çıxarılması üçün şagirdlərə suallar vermək tövsiyə edilir. Veriləcək suallar əvvəlcədən hazırlanmalıdır. Dərslikdəki sual və tapşırıqlardan da istifadə etmək lazımdır.

– *Sizcə, nə üçün o dövrün hökmdarları Ərdəbil şeyxlərini özləri üçün təhlükə hesab edirlər?*
– *İsmayıla ərəb və fars dillərinin öyrədilməsi nəyi sübut edir?*
– *Sizcə, İsmayılın gələcək uğurlarında hansı amillər rol oynamışdır?*
– *Gənc İsmayılın hakimiyyətə gəlməsinə hansı amillər kömək etmişdir?*
– *Səfəvi-Osmanlı müharibələrindən hansı nəticələrə gəlmək olar?*
– *Sizcə, bu müharibənin qarşısını almaq üçün nə etmək olardı?*
– *Sizcə, dövlətə başçılıq etmək üçün insanda hansı keyfiyyətlər olmalıdır?*
– *İsmayılın elm və mədəniyyətə bu qədər diqqət göstərməsinin hansı əhəmiyyəti var?*

**Yaradıcı tətbiqetmə.** Səfəvi-Osmanlı münasibətlərini bugünkü Azərbaycan-Türkiyə münasibətləri ilə müqayisə edin.

**Ev tapşırığı.** Növbəti dərsdə şagirdlərə sənədli materiallar əsasında tarixi tədqiqat aparıb Şah I İsmayıl haqqında təqdimat hazırlayacaqları elan edilir. Bunun üçün onlara Şah I İsmayıl haqqında məlumat toplamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** hekayə qurma, müəyyən etmə

Təlim məqsədinə uyğun olaraq aparılan qiymətləndirmə dərsin bütün mərhələlərində həyata keçirilə bilər. Şagirdlərin bilik və bacarıqları, əsasən, 4 səviyyə üzrə qiymətləndirilir. Bu səviyyələr meyara uyğun həyata keçirilməlidir. Bu səviyyələr ən zəif bacarığa malik olan şagirddən tutmuş ən yüksək bacarıqlı şagirdə görə dəyişə bilər.

Dərsin əsas hissəsinin fərdi iş formasında istifadə edilməklə keçdiyini nəzərə alaraq müəllim şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi təqdim edə bilər.

**Özünüqiymətləndirmə cədvəli**
**Adı və soyadı** ________________________________

**Təlimat.** *Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

| Fəaliyyətlər | Qiymət |
|---|---|
| 1. Yazdığım hekayədə mövzu açıqlanıb. | |
| 2. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | |
| 3. Çalışmalarımı bitirdim. | |
| 4. Təlimata əməl etdim. | |
| 5. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | |
| 6. Anlamadığım məsələyə aid sual verdim. | |
| 7. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə etdim. | |
| 8. Hekayədə faktlardan, terminlərdən, durğu işarələrindən düzgün istifadə etdim. | |

ŞƏRHLƏR:

______________________________________________

# 13 Şeyx necə şah oldu?

**Standartlar:**

1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.
4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.

**Təlim məqsədləri:**

1. Sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.
2. Mənbələrə əsasən Şah I İsmayıl haqqında təqdimatlar hazırlayır.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulu:** təqdimat

**Dərsin gedişi**

**Tədqiqat sualı.** Şah I İsmayılın Azərbaycan tarixində hansı mühüm rolu olmuşdur?



**Tədqiqatın aparılması.** Əvvəlki dərsdə şagirdlərə verilmiş ev tapşırığı yoxlanılır. Onların əldə etdikləri material nəzərdən keçirilir. Lazım olduğu halda, şagirdlərə tədqiqat aparmaq üçün əlavə materiallar verilir. Tədqiqatın aparılması kiçik qruplarla iş formasından istifadə edilməklə qurula bilər. Şagirdlərə tədqiqat xarakterli tapşırıqlar verən zaman təqdimatın hazırlanmasına dair istiqamət vermək tövsiyə edilir.

– *Təqdimat üçün sinif yoldaşlarının anlaya biləcəyi məlumat xarakterli materiallar seçir;*
– *Məlumatlar xronoloji ardıcıllıqla düzülür;*
– *Təqdimatda illüstrasiyalardan istifadə edilir;*
– *Təqdimatda məlumatın əsas müddəalarının əks olunduğu yoxlanılır;*
– *Mövzu açıqlanır;*
– *Nəticə çıxarılır.*

Qruplara aşağıdakı tapşırıqlar verilə bilər:

**I qrup**
Səfəvilərin Ərdəbil hakimliyinə dair təqdimat hazırlayın.

**II qrup**
"Balaca İsmayıl dövlət qurmaq yolunda" adlı təqdimat hazırlayın.

**III qrup**
"Səfəvilər dövləti necə yarandı?" adlı təqdimat hazırlayın.

**IV qrup**
"Şah I İsmayıl dövlətini necə böyütdü?" adlı təqdimat hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi**. Ayrılmış vaxt bitdikdən sonra hər qrup təqdimatını təqdim edir, onların cavabları diqqətlə dinlənilir, müzakirə olunur və lazım gələrsə, əlavələr edilir. Bu bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir.

Müəllim yönəldici suallardan istifadə etməklə əldə edilmiş faktların məqsədyönlü müzakirəsini təşkil edə bilər. İnformasiya mübadiləsinin təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilməlidir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi və nəticə çıxarılması məqsədilə şagirdlərə yönləndirici suallar verilə bilər.  Bu da, öz növbəsində, tədqiqat sualına cavab tapmağa kömək etmiş olar. Şagirdlərin hazırladıqları təqdimatlara uyğun suallar vermək məqsədəmüvafiqdir.

**Qiymətləndirmə meyarları:** tədqiqat aparma, təqdimatlar hazırlama

Şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün formativ qiymətləndirmənin böyük əhəmiyyəti vardır. Müəllim dərs prosesində şagirdlərin (yaxud müşahidə etdiyi konkret şagird və ya şagirdlərin) şifahi cavabını dinləyir, onun onların müxtəlif bilik və bacarıqlara necə yiyələndiyini, həmçinin düşüncə tərzinin nə dərəcədə inkişaf etdiyini, təqdimetmə, fikrini dəqiq ifadə etmə və s. bacarıqlarını müəyyənləşdirir, formativ qiymətləndirmə aparır.

Qrupları qiymətləndirmək üçün aşağıdakı qrup qiymətləndirmə vərəqindən istifadə etmək olar.

**Qrup təqdimatının qiymətləndirmə cədvəli**
**Qrupun adı** ___________________

**Təlimat.** *Cədvəl doldurularkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Mövzu açıqlandımı? | | | | |
| Reqlamentə riayət olundumu? | | | | |
| Çıxış savadlı idimi (terminlərin səsləndiril-məsi, vurğuların düzgünlüyü)? | | | | |
| Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu? | | | | |
| Təqdimat nə dərəcədə mükəmməl hazırlanmışdı? | | | | |
| Çıxış zamanı illüstrasiyalardan istifadə edildimi? | | | | |
| Məlumat üçün seçilən material nə qədər keyfiyyətli seçildi? | | | | |
| Nəticə çıxarıldımı? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | | |

Şərhlər:

# 14 Tariximizdə qadınlar

**Qeyd.** Mövcud dərsin tədrisi iki saat üçün nəzərdə tutulmuşdur. Birinci saatda kiçik qruplarla iş formasından istifadə etməklə 1.1.1. və 4.1.1. standartlarının; ikinci saatda 1.3.1. standartının reallaşdırılması nəzərdə tutulmuşdur.

Hörmətli müəllimlər, bu bölgü mütləq deyil. Bölgünü müəllim tədris strategiyasına uyğun olaraq dəyişdirə bilər.

**Standartlar:**

1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri *(İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

**Təlim məqsədləri:**

1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.
2. Azərbaycan tarixində mühüm rol oynamış qadın şəxsiyyətləri müəyyən edir.

**Təlim formaları:** kollektiv, fərdi

**Təlim üsulları:** beyin həmləsi, karvan

**Dərsin gedişi**

**Motivasiya.** Beyin həmləsi üsulundan istifadə etməklə motivasiya qurula bilər. Şagirdlərə aşağıdakı suallarla müraciət etmək olar:

– *Ailə nədir?*
– *Ailə kimlərdən ibarətdir?*
– *Ailədə qərarların qəbul olunmasında kimlər rol oynayır? və s.*

Alınan cavablar ümumiləşdirilir, tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Tariximizin inkişafında qadınların rolu nə olmuşdur?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması üçün karvan üsulundan istifadə etmək məqsədəmüvafiq hesab edilir. Bu, "Karvan" üsuludur. Şagirdlər 4 qrupa ayrılır, 4 flipçartın hər birində mövzu ilə bağlı bir sual yazılır. Qruplar saat əqrəbi istiqamətində növbə ilə suallara, ən azı, 3 cavab yazır. Sonra növbə ilə bir qrup digər qrupların cavablarını qiymətləndirərək öz cavablarını yazır. Cavablar fərqlənsin deyə, qruplar fərqli rəngli qələmlərdən istifadə edə bilər.

Hər cavabın qarşısında üç işarədən biri qoyulur:

– *razıyam (✓),*
– *razı deyiləm (x),*
– *başa düşmədim (?).*

Qruplarda vəzifə bölgüsünün aparılması məqsədəmüvafiqdir. Bu üsulun ən üstün cəhəti qrup üzvlərinin hamısının prosesə qoşulmasını təmin etməkdir.

**I qrup**

**Qeyd.** Hər bir iş vərəqində qruplara üsulun təlimatı təqdim edilir:

1. Suallara, ən azı, 3 cavab yazın;
2. Digər qrupların cavablarını qiymətləndirin;

Hər cavabın qarşısında üç işarədən birini qoyun: razıyam (✓), razı deyiləm (x), başa düşmədim (?);

3. Öz cavablarınızı yazın.

**Tapşırıq 1.** Dərslikdən istifadə edərək Möminə xatunun neçə yüzillik əvvəl yaşadığını müəyyən edin.

______________________________________________

______________________________________________

2. Möminə xatunun fəaliyyətini qiymətləndirin.

______________________________________________

**II qrup**

1. Suallara, ən azı, 3 cavab yazın;
2. Digər qrupların cavablarını qiymətləndirin; Hər cavabın qarşısında üç işarədən birini qoyun: razıyam (✓), razı deyiləm (x), başa düşmədim (?);
3. Öz cavablarınızı yazın.

**Tapşırıq 1.** Dərslikdən istifadə edərək Canıbəy xatunun neçə yüzillik əvvəl yaşadığını müəyyən edin.

______________________________________________

______________________________________________

2. Canıbəy xatunun fəaliyyətini qiymətləndirin.

______________________________________________

**III qrup**

1. Suallara, ən azı, 3 cavab yazın;
2. Digər qrupların cavablarını qiymətləndirin; Hər cavabın qarşısında üç işarədən birini qoyun: razıyam (✓), razı deyiləm (x), başa düşmədim (?);
3. Öz cavablarınızı yazın.

**Tapşırıq 1.** Dərslikdən istifadə edərək Saray xatunun neçə yüzillik əvvəl yaşadığını müəyyən edin.

______________________________________________

______________________________________________

2. Saray xatunun fəaliyyətini təhlil edin.

______________________________________________

**IV qrup**

1. Suallara, ən azı, 3 cavab yazın;
2. Digər qrupların cavablarını qiymətləndirin; Hər cavabın qarşısında üç işarədən birini qoyun: razıyam (✓), razı deyiləm (x), başa düşmədim (?);
3. Öz cavablarınızı yazın.

**Tapşırıq 1.** Dərslikdən istifadə edərək Taclı Sultanın neçə yüzillik əvvəl yaşadığını müəyyən edin.

______________________________________________

______________________________________________

2. Taclı Sultanın fəaliyyətini təhlil edin.

______________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılmasının gedişində şagirdlər əldə etdikləri məlumatları, yeni informasiyanın mübadiləsini aparırlar. Suallara cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təqdimat bir növ yeni biliklərin çərçivəsini müəyyən edir. Bu biliklər hələ ki natamam və xaotik xarakter daşıyır. Yeni bir tələbat – həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaradır. Müəllim yönəldici, köməkçi suallardan istifadə etməklə əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək etməlidir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu mərhələdə şagirdlər yeni bilginin kəşfi yolunda son addımı ataraq konkret nəticəyə gəlir və ümumiləşdirmələr aparırlar. Şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldikləri nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq əlaqələndirirlər. Dərsi yekunlaşdırmaq üçün müəllim aşağıdakı sual və tapşırıqlardan istifadə edə bilər:

– *Xatun, xanım, bəyim sözlərini fərqləndirin.*
– *Sizcə, Saray xatunun elmə və mədəniyyətə xüsusi diqqət yetirməsinin səbəbi nə idi?*
– *Türk qadınlarının diplomat, döyüşçü kimi yetişməsinə hansı amillər təsir etmişdir?*
– *Möminə xatunla Taclı bəyim arasında hansı oxşarlıqlar var?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə öz seçimləri əsasında paraqrafdakı hər hansı bir şəkli təsvir etmək tapşırılır.

**Ev tapşırığı.** Şagirdlərə Saray xatun haqqında “Hökmdar anası” adlı kiçik hekayə hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** əlaqələri müəyyənləşdirmə, qadın şəxsiyyətləri müəyyən etmə

Meyarlara uyğun olaraq şagirdlər səviyyələr üzrə qiymətləndirilir. Bununla yanaşı, şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi də təqdim etmək olar.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

Aşağıda sadalananlar barədə öz şəxsi keyfiyyətlərinizi necə qiymətləndirərsiniz?

| Meyarlar | Qeyri kafi | Kafi | Yaxşı | Əla |
|---|---|---|---|---|
| Əməkdaşlıq | | | | |
| Başqalarına kömək | | | | |
| Başqalarına hörmət | | | | |
| Dinləmək bacarığı | | | | |
| Səhvin etirafı | | | | |
| Düzlük | | | | |
| Başqaları haqqında ədalətlə fikir yürütmə | | | | |

# 14 Tariximizdə qadınlar

**Qeyd.** Ailədə liderlik bacarığına malik olan qadınların olduğunu nəzərə alaraq dərsimizi 1.3.1. standartını reallaşdırmaqla qadınların liderlik bacarıqlarının işıqlandırılmasına yönəldilmişdir.

**Standart:** 1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.

**Təlim məqsədi.** Dövlətdə baş verən dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.

**Təlim formaları:** kollektiv, fərdi

**Təlim üsulu:** mikrofon

**Dərsin gedişi**

**Tədqiqat sualı.** Dövlətdə baş verən dəyişikliklərdə qadınlar hansı rolu oynayır?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "mikrofon" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlər müəyyən istiqamət üzrə tədqiqata yönəldilir. Tədqiqat istiqaməti kimi onlara aşağıdakı tapşırıqları verə bilərsiniz:

– *Ailənizin şəcərəsini tərtib edin.*
– *Ailənizin hansı nəslə mənsub olduğunu, həmin nəslin inkişaf mərhələlərini müəyyənləşdirin.*
– *Ailənizin həyat tərzindəki dəyişiklikləri qeyd edin.*
– *Ailənizdə baş verən dəyişikliklərin müsbət və mənfi tərəflərini, problemləri və s. təsvir edin.*
– *Bu problemlərin həllində ailənizdəki qadınların rolunu qiymətləndirin.*
– *Ailənizdəki qadınların ailə üçün əhəmiyyətli qərarların qəbul edilməsində rolunu müəyyənləşdirin.*

Şagirdlərə düşünmək üçün vaxt verin. Sonra onlara bu dərs üsulunun qaydalarını qısaca xatırladın: "Uşaqlar, sizə yuxarıdakı tapşırıqlardan birini verəcəyəm. Bu barədə 0.5-1 dəqiqə danışa bilən əlini qaldırsın, ona "mikrofonu" verim". Onlara şərti mikrofon kimi təsəvvür edilən hansısa əşya (qələm, karandaş və s.) təqdim edilir.

Səslənən ilk suala hazır olanlardan birinə şərti mikrofon verilir. Dərs prosesində mikrofonun bir şagirddən növbə ilə digərinə keçməsinə nəzarət edilir. Söz yalnız şərti mikrofon alana verilir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Dərsin tədqiqatın aparılması mərhələsi bitəndən, şagirdlər çıxışlarını yekunlaşdırandan sonra fikirlərinizi ifadə edib dərsin növbəti mərhələsinə keçə bilərsiniz. Bu zaman şagirdlərdən əlavə fikirlər alaraq onların da müzakirədə iştirakına şərait yaratmağınız daha yaxşı olardı.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi başa çatdıqdan sonra ümumiləşdirmələr apararaq dərsi yekunlaşdırmaq və tədqiqat sualına cavab tapmaq üçün aşağıdakı suallarla şagirdlərə müraciət edə bilərsiniz.

– *Ailəni kiçik dövlətə oxşatmaq olarmı? Fikrinizi əsaslandırın.*
– *Sizcə, ailənizdəki qadınlar ailənizin idarə edilməsində nə dərəcədə rol oynayır?*
– *Dövlətin idarə edilməsində iştirak edən hansı qadınları tanıyırsınız?*
– *Dövlətin idarə edilməsində qadınların rolunu necə qiymətləndirərdiniz?*
– *Əvvəlki dərsdə tanış olduğunuz qadın şəxsiyyətlərin dövlətdə baş verən dəyişikliklərdə rolunu necə dəyərləndirərdiniz?*

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlərə "Qadınların dövlətdə rolu" başlıqlı afişa yaradılması təklif edilir.

**Qiymətləndirmə meyarı:** təsvir etmə

Qiymətləndirmə zamanı şagirdlərin yuxarıdakı meyarlara uyğun olaraq aşağıda verilmiş cədvəldəki səviyyələr üzrə qiymətləndirməli olduğunuzu unutmayın.

Dərsin sonunda vaxtınız qalacağı halda şagirdlərə aşağıdakı formaya uyğun özünüqiymətləndirmə vərəqi verə bilərsiniz.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**
**Adı və soyadı** ________________________________

**Təlimat.** *Cədvəli doldurularkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

| **Fəaliyyətlər** | **Bal** |
|---|---|
| Verilən suala düzgün cavab verdim. | |
| Reqlamentə riayət etdim. | |
| Çıxışım savadlı idi. | |
| Tapşırığı başa düşdüm və fikrimi izah etdim. | |
| Nəticə çıxartdım. | |
| Suallara cavab verdim. | |
| Çıxışımla başqalarında maraq oyatdım. | |
| Başqalarını dinlədim. | |
| Məntiqli yanaşmam var idi. | |

# 15 Şərqin son fatehi

**Standart:**

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri (*İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

**Təlim məqsədi.** Nadir şahın Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyət olduğunu müəyyən edir.

**Təlim formaları:** böyük qruplar, cütlər

**Təlim üsulları:** beyin həmləsi, ardıcıl suallar üsulu

**Dərsin gedişi**

**Motivasiya.** Şagirdləri maraqlandırmaq üçün onların diqqətini tarixi şəxsiyyətlərə yönəldə bilərsiniz. Bunun üçün beyin həmləsi üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Aşağıdakı suallardan istifadə etmək olar:

– *Hansı tarixi şəxsiyyətləri tanıyırsınız?*
– *Sadaladığınız bu şəxslər hansı yolla hakimiyyətə gəldilər?*
– *Sizcə, tanınmış bir nəslin nümayəndəsi olmadan hakimiyyətə necə gəlmək olar?*

Alınan cavablar ümumiləşdirilir, tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Nadirin şahlığa ucalmasının səbəbləri hansılardır?

**Tədqiqatın aparılması.** Tədqiqat sualına cavab tapmaq üçün ardıcıl suallar üsulundan istifadə edilməsi tövsiyə edilir. Mətn abzaslara bölünür, hər abzası bir şagird ucadan oxuyur, digər bir şagird, bir növ, ona opponent təyin edilir. Abzasın oxunması bitdikdən sonra opponent mətni oxuyana oxuduğu abzasdan bir və ya bir neçə sual verir. Birinci şagird sualları cavablandırır. Sonra sual verən şagird oxumağa davam edir, ikinci isə oxunan abzasdan ona sual verir. Bu üsulun tətbiqi ilə şagirdlərdə ünsiyyət, mətnlə müstəqil işləmək, oxuyub anlama vərdişləri ilə yanaşı, sual hazırlamaq, onu cavablandırmaq, müstəqil düşünmək kimi idraki bacarıqlar formalaşdırmaq mümkündür.

Ardıcıl suallar üsulu ilə dərsin keçilməsi **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi ilə tədqiqatın aparılması mərhələsi birləşdirilmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Müəllim yönəldici sual və tapşırıqlar vasitəsilə tədqiqat sualına cavab ala bilər:

– *Hazırda güclü şəxs kimi yetişmək üçün hansı imkanlar vardır?*
– *Necə hesab edirsiniz, fiziki və mənəvi cəhətdən güclü olmaq üçün siz nə etməlisiniz?*
– *Əgər siz hökmdar olsa idiniz, dövlətin gəlirlərini artırmaq üçün nə edərdiniz?*
– *Nadirin hansı bacarığını hakimiyyətə gəlmək üçün vacib sayırsınız? Fikrinizi əsaslandırın.*
– *Nadir şahı bir sərkərdə kimi necə qiymətləndirirsiniz?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə Muğan qurultayının keçirildiyi yeri xəritədə göstərmək, hazırda hansı rayonun ərazisində olduğunu və ərazinin adını müəyyən etmək tapşırığı verilir.

**Ev tapşırığı.** Şagirdlərə tarixi şəxsiyyətlərin adından istifadə etməklə 5-6 sözdən ibarət krosvord qurmaq tapşırılır.

**Qiymətləndirmə meyarı:** müəyyən etmə

Şagirdlərin qiymətləndirilməsi yuxarıda yazılmış meyara uyğun olaraq səviyyələr üzrə aparılır. Şagirdlərin cütlərlə işlədiyini nəzərə alaraq onlara aşağıdakı formada özünüqiymətləndirmə vərəqi təqdim etmək olar:

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı və soyadı** ________________________________

**Təlimat.** *Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi (X) ilə işarələyin.*

| Fəaliyyətlər | Dərəcələr | | |
|---|---|---|---|
| | həmişə | bəzən | heç vaxt |
| 1. Müəllimin məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Verilən hissəni səlis oxudum. | | | |
| 4. Yaxşı opponentlik etdim. | | | |
| 5. Mövzuya uyğun bir neçə sual verdim. | | | |
| 6. Verilən sualları cavablandırdım. | | | |
| 7. Oxuduğumu anladım. | | | |

8. Bu dərsdə nələri öyrəndim?

______________________________________________

______________________________________________

9. Bu dərs müddətində ən yaxşı gördüyüm işlər:

______________________________________________

______________________________________________

ŞƏRHLƏR:

______________________________________________

______________________________________________

# 16 Birlik yoxdursa, dirilik də yoxdur

**Qeyd.** Paraqrafın tədrisinə iki saat ayrılmışdır.
Müəllim şagirdlərinin səviyyəsini nəzərə alaraq bölgünü dəyişə bilər.

**Standartlar:**

2.1.2. Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir.
3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Qarabağ, Şəki və İrəvan xanlıqlarının ərazisini xəritədə müəyyənləşdirir.
2. Xalqın mənafeyinin qorunmasında vahid dövlətin rolunu dəyərləndirir.

**Təlim forması:** böyük qruplar

**Təlim üsulları:** beyin həmləsi, akvarium

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün əvvəlki paraqrafın son üç cümləsindən (*Nadir şahın ölümündən sonra daxili çəkişmələr yenidən başlandı. Ölkə ərazisi müxtəlif xırda dövlətlərə parçalandı. Azərbaycan ərazisində də xırda dövlətlər – xanlıqlar yarandı.*) istifadə etmək olar. Yönəldici suallardan istifadə edilir, cavablar ümumiləşdirilir və tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Birliyin olmaması diriliyin olmamasına necə təsir etdi?

**Tədqiqatın aparılması.** Tədqiqatın böyük qruplarla iş formasından və akvarium üsulundan istifadə edilməklə aparılması tövsiyə edilir. İş üsulundan istifadə qaydaları şagirdlərə izah edilir:

- ✓ Sinif iki hissəyə bölünür;
- ✓ Bir qrup şagird iç dairə şəklində oturur, bu qrup müəyyən edilmiş zaman çərçivəsində verilmiş problemi müzakirə edir;
- ✓ Dairədən kənarda oturmuş ikinci qrup – müşahidəçilər qrupu müzakirənin düzgün aparılmasına diqqət yetirir.
- ✓ Müşahidəçi qrup müzakirə aparan qrupun fəaliyyətini qiymətləndirir. Sonra kənar və iç qruplar yerini dəyişir və müzakirəni davam etdirirlər.

Müzakirə üçün aşağıdakı sual və tapşırıqlardan istifadə etmək olar:

– *Şəki xanlığının Azərbaycan tarixində oynadığı rolu dəyərləndirin.*
– *Qarabağ xanlığının Azərbaycan tarixində oynadığı rolu dəyərləndirin.*
– *İrəvan xanlığının Azərbaycan tarixində oynadığı rolu dəyərləndirin.*
– *Vahid dövlətin olmamasının xalqın mənafeyinin qorunmasında hansı mənfi rolu vardı?*

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirələr ümumiləşdirilir və tədqiqat sualına cavab tapılır. Yardımçı suallardan istifadə etmək olar:

– *Dövlətin gəlirlərini artırmaq üçün siz nə edərdiniz?*
– *Sizcə, İrəvanda azərbaycanlılara məxsus abidələrin məhv edilməsinin səbəbi nə idi?*
– *İrəvan xanlığının əhalisinin Azərbaycan türklərindən ibarət olması nəyi sübut edir?*

– *Azərbaycanın Rusiya imperiyası tərəfindən işğal olunmasını asanlaşdıran səbəblər hansılar idi?*
– *Rusiya imperiyasının köçürmə siyasətinin məqsədləri nə idi?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə Qarabağ, Şəki və İrəvan xanlıqlarının ərazisini müxtəlif rənglərlə kontur xəritədə işarələmək və əraziləri rəngləmək tapşırılır.

**Ev tapşırığı.** Şagirdlərin səviyyəsini nəzərə almaqla müxtəlif tapşırıqlar verilə bilər:

✓ *Şuşanın mədəniyyət xadimləri Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Üzeyir Hacıbəyli, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski haqqında məlumat toplamaq;*
✓ *Adı çəkilən şəxslərdən biri haqqında şəkilli təqdimat hazırlamaq;*
✓ *Mövzu ilə bağlı kiçik hekayə yazmaq və s.*

**Qiymətləndirmə meyarları:** müəyyən etmə, dəyərləndirmə

Qiymətləndirmə müəllimin dərs prosesində şagirdlərin fəaliyyətini izləməsi nəticəsində həyata keçirilir. Səviyyələr üzrə meyarlar müəyyən edilir və qiymətləndirmə aparılır.

Hər bir şagirdin öz fəaliyyətini qiymətləndirməsini də həyata keçirmək mümkündür. Bunun üçün aşağıdakı cədvəldən istifadə etmək olar.

**Şagirdin adı və soyadı** ______________________________

| Dərsdə diqqətli idim. | Sual-cavabda aktiv idim. | Məntiqli yanaşmam var idi. | Əməkdaşlıq etdim. | Tapşırığı tam və düzgün yerinə yetirdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

Şagirdlər özlərinin fəaliyyətini ballar, yaxud müəyyən işarələrlə qiymətləndirə bilərlər. İşarə müəllim tərəfindən müəyyənləşdirilir.

*İkinci saat*

# 16 Birlik yoxdursa, dirilik də yoxdur

**Standartlar:**

1.1.2. Sadə xronoloji məsələləri həll edir.

3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycan tarixi ilə bağlı sadə xronoloji məsələləri həll edir.
2. Xalqın mənafeyinin qorunmasında vahid dövlətin rolunu dəyərləndirir.

**Təlim formaları:** böyük qruplar, fərdi iş

**Təlim üsulu:** auksion

**Dərsin gedişi**

Tədqiqat sualı qurmaqda müəllim sərbəstdir.

**Tədqiqatın aparılması.** Tədqiqatın auksion üsulundan istifadə edilməklə aparılması məqsədəmüvafiqdir. Şagirdlərə materialla tanışlıq üçün vaxt verilir, onlara auksionun qaydaları izah edilir:

✓ *Verilən sual 1, 2, 3 sayanadək cavblandırılmalıdır;*

✓ *Sual həmin müddətdə cavablandırılmazsa, cavab vermək şansı digər şagirdə keçir.*

**Müəllimə tövsiyə.** Qarışıqlığın və sual "itkisi"nin olmaması üçün şagirdlərdən 5 nəfər ayırıb onları sıra ilə düzün. Qeydlər aparmaq üçün bir nəfər şagird seçilir. Sıradakı birinci şagirdə sual verilir. Müəyyən edilən vaxtda sual cavablandırılmazsa, sual digər şagirdə ünvanlanır. Bu proses davam edir. Sual cavablandırılarsa, başqa sualdan istifadə edilir.

**Qeyd.** *Əslində, hazırda sizə təqdim edilən bu üsul "auksion" üsulunun təcrübədə sınanılmış və "improvizə" edilmiş formasıdır. Şagirdlərə daha maraqlı olması üçün hazırlanan suallar qeyd dəftərinizdə nömrələnir və hər sualın nömrəsi lövhədə yazılır. Proses zamanı şagirdlərin müstəqil şəkildə hər hansı nömrəni seçməsinə müstəqil şərait yaradılır. Hazırlanan və nömrələnən suallarla yanaşı, 3-5 nömrələnməmiş sualın da olması daha yaxşıdır.*

*Şagirdlər nömrələri seçdikcə müəllim lövhədən həmin rəqəmi silir. Hər bir şagirdə 3 və ya 4 sualın cavablandırılmasına şərait yaradılır. İlk şagird ona verilən sualları cavablandırdıqdan sonra yerinə əyləşir və onun yerinə sinifdən digər şagird sıraya qatılır. Hər şagirdin düzgün cavablandırdığı sualların sayını lövhə qarşısındakı şagird qeydə alır. Lövhədə aparılan bu qeydləri bütün şagirdlərin görməsi onlara əlavə stimul verir. Təcrübə göstərir ki, bəzən improvizə edilmiş bir üsul daha yaxşı effekt verir.*

Müzakirə üçün aşağıdakı suallardan və düzülüş formasından istifadə etmək olar:

*1. İrəvan adı necə yaranmışdır?*
*2. Nadir şahın ölümü nəyə səbəb oldu?*
*3. Qarabağ bəylərbəyliyinin mərkəzi hara idi?*
*4. Hansı şəhərə Pənahabad deyirdilər?*
*5. İrəvan xanlığını hansı tayfalar idarə etmişdi?*
*6. Hansı şəhər Qarabağın üzük qaşı hesab edilir?*

*7. Hacı Çələbi xan Borçalını necə geri aldı?*
*8. Rusiya İrəvan xanlığını nə vaxt ələ keçirdi?*
*9. Nadir şahın sağlığında yaradılan ilk Azərbaycan xanlığı hansı idi?*
*10. Ermənilərin Üçkilsədə məskunlaşmasına kim icazə vermişdi?*
*11. Kürəkçay müqaviləsi ilə nə baş verdi?*
*12. Ermənilərin İrəvana kütləvi köçü necə baş verdi?*
*13. Hansı Azərbaycan xanlıqları əvvəlki vilayət adı ilə adlandırılmışdı?*
*14. Xankəndi necə Stepanakert oldu?*
*15. Qərbi Azərbaycandan azərbaycanlıların kütləvi köçü nə vaxt baş verdi?*
*16. Şuşanı nə üçün "Qafqaz konservatoriyası" adlandırırlar?*
*17. Pənahəli xan hansı qalaları tikdirmişdir?*
*18. Necə oldu, Nadir şah Hacı Çələbini vəkil təyin etdi?*

**Qeyd.** Müəllim bu suallardan istifadə edə də bilər, yeni suallar da hazırlaya bilər. Sualların sayını artırıb-azaltmaqda müəllim sərbəstdir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Aparılan müzakirələrlə **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də yekunlaşmış olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Tədqiqat sualına cavab tapılır. Şagirdlərə aşağıdakı sual və tapşırıqlar verilə bilər:

– *"Birlik olmayan yerdə, dirilik olmaz" atalar sözünün mənasını izah edin.*
– *Sizcə, Azərbaycanda vahid dövlət olsa idi, Azərbaycanın Rusiya tərəfindən işğalı baş verə bilərdimi? Fikrinizi əsaslandırın.*
– *"Tarix ondan dərs çıxaranları sevir" ifadəsini necə başa düşürsünüz?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə aşağıdakı tapşırıqlar verilə bilər:
1. 1827, 1988, 1805 və 1752-ci illəri yüzilliyə çevirin.
2. 1752-ci illə 1988-ci il arasında neçə yüzillik fərq var?
3. 1827-ci il neçənci minillikdir?

**Ev tapşırığı.** Şagirdlərə Təpəbaşı məhəlləsi haqqında məlumat toplayıb buklet, yaxud yığcam təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** həlletmə, dəyərləndirmə
Müəllim meyarlar əsasında müəyyən etdiyi səviyyələr üzrə şagirdləri qiymətləndirir.
Dərsin sonunda refleksiya üçün aşağıdakı suallardan istifadə etmək olar:
– *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
– *Sizə nə aydın olmadı?*
– *Hansı suallarınız var?*
– *Yeni mövzu üzərində necə işlədiniz?*
– *Dərsdə qarşıya qoyulan hədəfə çatdınızmı?*
– *Dərsdə informasiya əldə etmənin hansı yeni üsullarını öyrəndiniz? və s.*

# 17 Azərbaycan necə parçalandı?

**Standart:** 3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədi.** Xalqın mənafeyinin qorunmasında vahid dövlətin rolunu dəyərləndirir.
**Təlim formaları:** böyük və kiçik qruplar
**Təlim üsulları:** beyin həmləsi, İNSERT

**Dərsin gedişi**
**Motivasiya.** Motivasiya qurmaq üçün xanlıqlara parçalanma, daxili çəkişmələr, işğal və s. açar sözlərdən istifadə edilir və şagirdlərə aşağıdakı suallarla müraciət edilir:

– *Bu sözlərin ifadə etdiyi mənanı izah edin.*
– *Parçalanma və çəkişmələrin nəticəsi nə ola bilər? və s.*

Cavablar ümumiləşdirilir və tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı**. Vahid dövlətin olmamasının hansı nəticələri oldu?

**Tədqiqatın aparılması.** Dərsin kiçik qruplarla iş formasından və İNSERT üsulundan istifadə edilməklə tədrisi tövsiyə edilir.

Qruplara aşağıdakı tapşırıqlar verilə bilər:

**I qrup**
**Tapşırıq:** Azərbaycan XIX yüzilliyin əvvəllərində (1813-cü ilin sonunadək)

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
– Tanış olduğunuz informasiya sizin üçün yeni deyilsə (!);
– Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə (-);
– Tanış olduğunuz məlumat yenidirsə (+);
– Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə (?).

________________________________________________

________________________________________________

**II qrup**
**Tapşırıq:** Xanlıqlar necə ləğv edildi?

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
– Tanış olduğunuz informasiya sizin üçün yeni deyilsə (!);
– Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə (-);
– Tanış olduğunuz məlumat yenidirsə (+);
– Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə (?).

________________________________________________

________________________________________________

**III qrup**
**Tapşırıq:** Ərdəbil kitabxanası

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
– Tanış olduğunuz informasiya sizin üçün yeni deyilsə (!);

– Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə (-;)
– Tanış olduğunuz məlumat yenidirsə (+);
– Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə (?).

**IV qrup**
**Tapşırıq:** Azərbaycan 1826–1828-ci illərdə

Oxuduğunuz məlumatın kənarında aşağıdakı işarələri qoyun:
– Tanış olduğunuz informasiya sizin üçün yeni deyilsə (!);
– Oxuduğunuz informasiya əvvəl bildiyinizi inkar edirsə (-);
– Tanış olduğunuz məlumat yenidirsə (+);
– Bu məsələ haqqında əlavə məlumat əldə etmək istəyirsinizsə (?).

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işi bitdikdən sonra hər qrup işlərini təqdim edir. Şagirdlərin cavabları diqqətlə dinlənilir, müzakirə olunur və lazım gələrsə, əlavələr edilir, faktlar arasında əlaqə yaradılır, şagirdlərin fikirləri lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir. Müzakirələr zamanı bütün şagirdlərin fəallığının təmin olunması müəllimdən asılıdır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə şagirdlərə yönləndirici suallar vermək olar. Bu da, öz növbəsində, tədqiqat sualına cavab tapmağa kömək etmiş olar.

Aşağıdakı suallardan istifadə etmək olar:
– *Sizcə, Rusiya nə üçün Azərbaycan torpaqlarına xüsusi önəm verirdi?*
– *Sizcə, xanlar hansı səhvə yol vermişdilər? Bu səhv nə ilə nəticələndi?*
– *Sizcə, Qacarlar dövləti nə üçün Şimali Azərbaycana hücum etmişdi?*
– *Sizcə, nə üçün Rusiya Azərbaycanı işğal edə bildi?*
– *Mətnə əsasən səbəb-nəticə əlaqələrini tamamlayın.*

| Səbəb | Nəticə |
|---|---|
| 1. Ruslar Qafqazı işğal edib Hindistana çatmaq istəyirdilər. | ✓ |
| 2. Ölkə xanlıqlara parçalanmışdı. | ✓ |
| 3. .... | 1813-cü il oktyabrın 12-də Qacarlar dövləti və Rusiya arasında Gülüstan sülhü imzalandı. |
| 4. 1826-cı ildə Qacarlar dövləti Şimali Azərbaycana hücum etdi. | ✓ |
| 5. .... | 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsi imzalandı. |

**Yaradıcı tətbiqetmə.** Mətnə əsasən cədvəli tamamlayın.

| AZƏRBAYCAN | |
|---|---|
| "Gülüstan" müqaviləsindən sonra | "Türkmənçay" müqaviləsindən sonra |
| | |

**Qiymətləndirmə meyarı:** dəyərləndirmə

Müəllim dərsboyu apardığı qeydlər əsasında şagirdləri fərdi və qrup şəklində qiymətləndirə bilər. Yeni biliyin mənimsənilməsi, şagirdlərin təqdimatları, müzakirələrdə iştirak səviyyəsi, verdiyi məntiqli cavabları barədə yığcam rəy mübadiləsi aparılır, şagirdlər qiymətləndirilir. Eləcə də şagirdlərin nailiyyətləri, eləcə də buraxdıqları səhvlər (əgər varsa) nəzərə çatdırılmalı, tövsiyələr verilməlidir.

Dərsin sonunda şagirdləri **qrup təqdimatının qiymətləndirilməsi** vərəqindən istifadə etməklə də qiymətləndirmək olar.

**Təlimat.** *Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

| Qruplar | Mübadilədən düzgün istifadə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# 18 Daş keşikçilər

**Standartlar:**

1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.
2.1.2. Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir.

**Təlim məqsədləri:**

1. Dərslikdəki illüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.
2. Xəritə əsasında Azərbaycanın mühüm tarixi abidələrini müəyyənləşdirir.

**Təlim formaları:** böyük və kiçik qruplar, fərdi

**Təlim üsulları:** beyin həmləsi, “iki həqiqət və bir yanlış”

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün şagirdlərin əvvəlki biliklərindən, yaxud mövzu ilə bağlı hər hansı bir filmdən, əlavə materiallardan, müəllimin təqdimatından, fotolar və ya illüstrasiyalardan istifadə etmək olar. İstifadə edilən resursdan asılı olaraq, şagirdlərə suallar vermək olar:

– *Şəkildə (illüstrasiyada) nə təsvir olunmuşdur?*
– *Qalalar nə üçün tikilirdi?*
– *Hansı Azərbaycan qalalarını sadalaya bilərsiniz?*

Sonuncu sualın cavabından sonra tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Azərbaycan qalaları necə yaradıldı?

**Tədqiqatın aparılması**. Bu mərhələni “iki həqiqət və bir yanlış” üsulunun köməyi ilə həyata keçirmək olar. Sinif kiçik qruplara bölünür, hər qrupa bir mövzu təqdim edilir və tapşırıq verilir:

✓ *Mövzu ilə bağlı üç fikir yazın.*
✓ *Fikirlərdən ikisi doğru, biri isə yanlış olmalıdır.*
✓ *Fikirlər kitabdan olduğu kimi götürülməməlidir.*

Qruplara aşağıdakı tapşırıqlar verilir.

**I qrup**

1. “Təpəgöz” tikililərinin  tikilmə səbəblərini müəyyən edin.

___________________________________________

___________________________________________

2. Qız qalalarının hansı qala növünə aid olduğunu müəyyənləşdirin.

___________________________________

**II qrup**

1. Azərbaycan qalalarının xüsusiyyətlərini şərh edin.

______________________________________________________________

______________________________________________________________

2. Dərbənd qalasının hansı qala növünə aid olduğunu müəyyənləşdirin.

______________________________________________________________

**III qrup**

1. Müdafiə qalaları haqqında fikirlərinizi yazın.

______________________________________________________________

______________________________________________________________

2. Təpəgöz tikililərinin hansı qala növünə aid olduğunu müəyyənləşdirin.

______________________________________________________________

**IV qrup**

1. Qız qalalarının xüsusiyyətini müəyyənləşdirin.

______________________________________________________________

______________________________________________________________

2. Bəzz, Əlincə və Gəncə qalalarının hansı qala növünə aid olduğunu müəyyənləşdirin.

______________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir qrupun təqdimatı dinlənilir. Digər qruplar təqdim edilən üç fikirdən hansının doğru, hansının yanlış olduğunu təxmin etməlidir. Müzakirələr zamanı müəllimin də üç fikir söyləməsi (təbii ki, ikisi doğru, biri yanlış) məqsədəmüvafiq olardı.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərə yönləndirici suallar verilir və nəticə çıxarılır. Aşağıdakı suallardan istifadə etmək olar:

✓ *Sizcə, düşmən hücumu haqqında məlumatın sürətlə ötürülməsinin hansı üstünlükləri var idi?*

✓ *Qalaların sıldırım qayalarda tikilməsinin səbəbini izah edin.*

✓ *Sizcə, nə üçün qalalar "daş məktublar" adlanır?*

**Yaradıcı tətbiqetmə.** Yaradıcı tətbiqetmə kimi şagirdlərə xəritə üzərində Azərbaycan qalalarının yerini müəyyənləşdirmək tapşırığı verilə bilər.

**Qiymətləndirmə meyarları:** tədqiqat aparma, müəyyənləşdirmə

Şagirdlərin qiymətləndirilməsi təqdim edilmiş meyarlar əsasında və dərs prosesinin izlənməsi nəticəsində həyata keçirilir. Əgər hər hansı bir şagirdin qiymətləndirilməsində müəyyən tərəddüd yaranarsa, mövzu ilə bağlı müəyyən suallar verməklə müəllim onun meyarlar üzrə hansı səviyyəyə uyğun olduğunu dəqiqləşdirə bilər.

Şagirdləri ***Qrup təqdimatının qiymətləndirilməsi*** vərəqindən istifadə etməklə də qiymətləndirmək mümkündür.

**Qrup təqdimatının qiymətləndirmə vərəqi**

**Təlimat.** *Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Müəyyənləşdirmə və tədqiqat aparma meyarlarına nə səviyyədə cavab verildi? | | | | |
| Reqlamentə riayət olundumu? | | | | |
| Tapşırıq vaxtında yerinə yetirildimi? | | | | |
| Qrup daxilində əməkdaşlıq var idimi? | | | | |
| Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu? | | | | |
| Məlumat üçün seçilən material nə qədər keyfiyyətli seçilib? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | | |
| Nəticə çıxarılıbmı? | | | | |

# 19 Şəhərlər necə yarandı?

**Standartlar:**

1.2.1. Maddi və yazılı mənbələri fərqləndirir.
1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.

**Təlim məqsədləri:**

1. Şəhərlərin yaranmasına dair maddi və yazılı mənbələri fərqləndirir.
2. İllüstrasiya və şəkillərdən istifadə edərək tarixi tədqiqat aparır.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, müzakirə

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün şagirdlərin diqqətini təsərrüfat sahələrinə yönəltmək olar. Aşağıdakı suallarla şagirdlərə müraciət etmək olar:

– *Hansı təsərrüfat sahələrini tanıyırsınız?*
– *Təsərrüfatın ... sahəsi ilə kimlər məşğul olur?*
– *Sadaladığınız bu sahələrlə məşğul olanları yaşadıqları yerə görə necə qruplaşdırmaq olar?*

Cavablar ümumiləşdirilir, tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Qədim Azərbaycan şəhərləri necə yarandı?

**Tədqiqatın aparılması.** Kiçik qruplarla iş formasından və müzakirə iş üsulundan istifadə etməklə bu mərhələni təşkil etmək mümkündür. Qruplara tədqiqat üçün aşağıdakı sual-tapşırıqlar, yaxud müəllimin planlaşdırdığı dərsə uyğun olaraq məsləhət bildiyi tapşırıqlar verilə bilər.

**I qrup**

86-cı səhifədəki şəkillər əsasında istehsal təsərrüfatının hər bir sahəsinə dair qeydlər aparın.

**II qrup**

Qədim Azərbaycan şəhərlərinin necə yarandığını təhlil edin.

**III qrup**

Qədim Azərbaycan şəhərlərinin quruluşunu təhlil edin.

**IV qrup**
Dərslikdəki materiallarla 88–89-cu səhifələrdəki şəkli uzlaşdırın, oxşar və fərqli cəhətləri müəyyən edin.

______________________________________________________________________________

______________________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Hazırlaşmaq üçün qruplara ayrılmış vaxt bitdikdən sonra hər qrup öz təqdimatını edir. Müəllim təqdimat əsasında müzakirələrin aparılması üçün konkret reqlament müəyyən edir. Bu, şagirdlərdə vaxta əməl etmə, vaxtdan səmərəli istifadə bacarıqlarının formalaşdırılmasına səbəb olar. Qrupların təqdimatında natamamlıq müşahidə edilərsə, boşluğu doldurmaq üçün digər qruplara müraciət edilir. Lazım gələrsə, yönəldici suallardan istifadə etmək olar. Müzakirələr zamanı şagirdlərin də suallar verməsini təmin etmək məqsədəmüvafiqdir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Ümumiləşdirmələr aparmaq və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə suallar verilməlidir.

Şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:
– *Sizcə, şəhərlərin yaranmasının əhəmiyyəti nədir?*
– *Sizcə, şəhərlər ayrı-ayrı şəxslər tərəfindən salına bilərmi? Fikrinizi əsaslandırın.*
– *Sizcə, şəhərlərin yaranması nəyin inkişafına şərait yaratdı?*
– *Şəhərləri yaranma xüsusiyyətlərinə görə qruplaşdırın.*
– *Kənd və şəhər həyatı arasındakı fərqləri qruplaşdırın.*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə mətn əsasında cədvəli tamamlamaq tapşırılır.

| | |
|---|---|
| Şəhərlərin yaranma səbəbləri | |
| Şəhərlərdə inkişaf edən sahələr | |

**Qiymətləndirmə meyarları:** fərqləndirmə, tədqiqat aparma

Qiymətləndirmə müəllimin dərs prosesində şagirdlərin fəaliyyətini izləməsi nəticəsində həyata keçirilir. Bununla belə, əgər hər hansı bir şagirdin qiymətləndirilməsində müəyyən tərəddüd yaranarsa, mövzu ilə bağlı müəyyən suallar verməklə müəllim onun meyarlar üzrə hansı səviyyəyə uyğun olduğunu dəqiqləşdirə bilər.

Planlaşdırılan dərsdən asılı olaraq, şagirdlərə qrup qiymətləndirmə vərəqi də təqdim edilə bilər.

**Qeyd.** Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək olar.

| Şagirdin adı, soyadı | Tapşırığa hazır olma | Başqalarını dinləmə | Məsuliyyəti bölüşmə | Qrup yoldaşlarına kömək etmə | Müzakirələrə qoşulma | Fikirlərini reallaşdırma | Fərqli fikirlərə hörmət etmə | Vəzifə almağa həvəsli olma | Zamandan məhsuldar istifadə etmə | Tapşırıqları yerinə yetirmə | Tapşırıqları təxirə salma | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

**Şərhlər:**

# 20 Qədim Azərbaycan şəhərləri

**Standartlar:**

2.1.1. İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.

2.1.2. Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir.

**Təlim məqsədləri:**

1. Qədim Azərbaycan şəhərləri üçün əlverişli təbii amilləri təsvir edir.
2. Xəritə əsasında Azərbaycanın qədim şəhərlərini müəyyənləşdirir.

**Təlim forması:** böyük qruplar

**Təlim üsulu:** beyin həmləsi, akvarium

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərsə motivasiya qurmaq üçün 20-ci paraqrafın giriş hissəsindəki məlumatı (*Artıq şəhərlərin necə yaranması haqqında məlumatınız var. Azərbaycan ərazisində də hələ qədim zamanlardan çoxsaylı şəhərlər mövcud olmuşdur. Təəssüf ki, onların bəziləri müxtəlif səbəblərdən dağılmış, dövrümüzə gəlib çatmamışdır. Bu paraqrafda tariximizdə mühüm rol oynamış yaşayış məntəqələri haqqında məlumatlar əldə edəcəksinz.*) şagirdlərə oxumaq və bu mövzuda onlarla qısa müzakirə aparmaq olar.

**Tədqiqat sualı.** Dərbənd və Bərdə şəhərləri Azərbaycan tarixində hansı əhəmiyyətə malik olmuşdur?

**Tədqiqatın aparılması.** Tədqiqatın böyük qruplarla iş forması və akvarium təlim üsulunun köməyi ilə aparılması məqsədəuyğundur. Bu iş üsulunun qaydalarına uyğun olaraq sinif iki dairəyə – iç və çöl dairələrinə bölünür, daha sonra iç dairəyə müəyyən vaxt ərzində hər hansı bir problemin müzakirəsi tapşırılır. İç dairədə müzakirə aparılan zaman çöl dairədəki şagirdlər qarşısındakı şagirdin müzakirələrdə necə iştirak etdiyini diqqətlə izləməli və müzakirə bitəndən sonra onlara “qiymət” verməlidirlər. Sonra isə qaydalara uyğun olaraq dairədəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirməlidir. Müzakirə üçün aşağıdakı tapşırıqlardan istifadə etmək olar:

– *Qədim Azərbaycan şəhərlərindən olan Dərbəndin strateji əhəmiyyətini, şəhərin inkişafı üçün təbii amilləri təsvir edin.*

– *Qədim Azərbaycan şəhərlərindən olan Bərdənin strateji əhəmiyyətini, şəhərin inkişafı üçün təbii amilləri təsvir edin.*

“Akvarium”da iş zamanı, əslində, dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də həyata keçirilmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində yönləndirici suallar vasitəsilə ümumiləşdirmə aparılır. Bu da, öz növbəsində, tədqiqat sualına cavab tapmağa kömək etmiş olar. Bununla belə, tədqiqat sualının tam cavabını almaqdan ötrü aşağıdakı sual və tapşırıqlar da yardımçı ola bilər:

– *Sizcə, qədim şəhərlərimizin dövrümüzə gəlib çatmamasının, dağıntılara məruz qalmasının hansı səbəbləri ola bilər?*

– *Sizcə, nə üçün Dərbəndi “Dəmir qapı” adlandırmışlar?*
– *Dərbəndin əhəmiyyəti haqqında müzakirə aparın. Onun hərbi, iqtisadi və siyasi əhəmiyyətini aydınlaşdırın.*
– *Bərdəni siyasi baxımdan hansı şəhərlərimizlə müqayisə edə bilərsiniz?*
– *Bərdə şəhərinin inkişafına səbəb olan amilləri qruplaşdırın.*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə qədim Azərbaycan şəhərlərindən olan Naxçıvan, Dərbənd, Təbriz, Gəncə, Şamaxı, Qəbələ və Bərdə şəhərlərinin yerinin xəritədə müəyyən edilməsi tapşırıla bilər.

**Ev tapşırığı.** Şagirdlərə Dərbənd haqqında “Dəmir qapı” adlı kiçik hekayə hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** təsvir etmə, müəyyən etmə

Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyara əsasən dərs izləməsi nəticəsində həyata keçirilir.

“Akvarium” üsulunun xüsusiyyətini nəzərə alaraq qiymətləndirmə zamanı şagirdlərə aşağıdakı formaya uyğun cütlərin özünüqiymətləndirmə vərəqi də verilə bilər.

**Cütlərin özünüqiymətləndirmə vərəqi**

**Təlimat.** Fəaliyyətinizi 5 ballıq şkala ilə qiymətləndirin.

| **Meyarlar** | **Şagirdlərin adı və soyadı** | |
|---|---|---|
| | 1. | 2. |
| Fəallıq səviyyəsi | | |
| Əməkdaşlıq | | |
| Qaydalara əməl olunması | | |
| Tapşırığın icrası zamanı müzakirə etmə | | |
| Ümumi rəyə gəlmə | | |
| Təqdimat etmə | | |

# 21 Azərbaycan taxtı – Təbriz

**Standartlar:**
2.1.1. İnsan və cəmiyyətin həyatı üçün əlverişli təbii amilləri təsvir edir.
5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.

**Təlim məqsədləri:**
1. Təbrizdə həyat üçün əlverişli təbii amilləri təsvir edir.
2. Təbrizin Azərbaycan üçün hansı dəyərlərə malik olduğunu fərqləndirir.

**Təlim forması:** böyük qruplar

**Təlim üsulu:** diskussiya

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud paraqraf bir növ bundan əvvəlki paraqrafın davamıdır. Dərslər arasında rabitənin olmasının vacibliyini nəzərə alaraq bir-iki cümlə ilə əvvəlki paraqrafdan çıxış edərək şagirdləri keçiləcək mövzuya istiqamətləndirmək olar.

**Tədqiqat sualı.** Təbrizin Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etməsinin səbəbi nə idi?

**Tədqiqatın aparılması.** Tədqiqatın böyük qruplarla iş formasından və diskussiya üsulundan istifadə edilməklə qurulması məqsədəmüvafiqdir.
Diskussiya prosesində şagirdlər müzakirə olunan bu və ya digər məsələ barədə öz fikirlərini söyləməklə öz baxışlarını əsaslandırmağı, faktları təhlil etməyi öyrənirlər. Bu zaman dinləmək və növbə ilə danışmaq bacarığı, fərqli baxışlara dözümlülük, diskussiya mədəniyyəti kimi vərdişlər inkişaf etməyə başlayır.
Diskussiya mədəniyyəti olduqca vacib və geniş bir məsələdir. Diskussiya mədəniyyətinin mühüm cəhətlərindən biri başqalarının fikir və əqidəsinə dözümlü münasibətdir. Bu çoxcəhətli anlayış yalnız əxlaqi-normativ məzmuna deyil, həm də dərin sosial-pozitiv məzmuna malikdir, belə ki o, ilk növbədə, ünsiyyət prosesini pozan mütləq dözümsüzlük amilinin antitezası kimi çıxış edir.
Yuxarıda göstərilən vərdişlərə (dinləmək bacarığı, fərqli baxışlara dözümlülük və s.) yiyələnmək üçün şagirdlərə diskussiya aparmağı öyrətmək lazımdır. Şagirdlərlə birlikdə aşağıdakılara uyğun olaraq diskussiya aparmaq qaydaları tərtib etmək olar:

– danışanı dinləmək;
– danışanın sözünü kəsməmək;
– eyni vaxtda yalnız bir nəfər danışa bilər;
– tənqid edəndə danışanı deyil, fikri tənqid etmək;
– reqlamenti nəzərə almaq;
– heç kəsi məsxərəyə qoymamaq;
– söz demək istədikdə əl qaldırmaq və s.

*Diskussiyanın gedişinin düzgünlüyünün qiymətləndirilməsi:*

– düzgün təriflər, aydın mülahizələr;
– yadda qalan və aktual misallar;
– sanballı dəlillər və analogiyalar;
– ümumiləşdirmə aparma və yekun vurma bacarığı;
– başqalarını dinləmək bacarığı.

Diskussiya vaxtı mülahizələrdə təkrar fikirlər, mövzuya aid olmayan faktlar, anlaşılmaz müddəalar səsləndirmək, dəlillərin yoxluğu, mövzudan qaçma, çıxış edənləri günahlandırma, şəxsi təhdid və s. yol vermək olmaz.

*Diskussiya aparmaq üçün şagirdlərə aşağıdakı tapşırıqları vermək olar:*

– *Təbrizin necə yaranıb və inkişaf etdiyini təsvir edin.*
– *Təbrizin təsərrüfat sahələrini fərqləndirin.*
– *Təbriz necə oldu, Azərbaycanın mərkəzi şəhərinə çevrildi?*
– *Təbrizi mədəniyyət paytaxtı kimi dəyərləndirin.*
– *Təbrizi xalqın milli azadlıq mübarizəsinin rəmzi kimi təsvir edin.*

Diskussiya aparılması əsnasında şagirdlər **məlumatın mübadiləsi və müzakirəsini** təşkil edir, müxtəlif yanaşmalarla, nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

– *Sizcə, Təbriz niyə qala-şəhər hesab edilirdi?*
– *"Sizə Gülüstan qalası, yoxsa Azərbaycan taxtı lazımdır?" ifadəsi hansı məşhur şəxsiyyətə aiddir?*
– *Təbriz həyatı üçün əlverişli təbii amillərdən hansını üstün tutursunuz? Fikrinizi əsaslandırın.*
– *Sizcə, Təbriz Azərbaycan üçün niyə xüsusi əhəmiyyət kəsb edirdi?*
– *Təbrizin Azərbaycan üçün hansı dəyərlərə malik olduğunu fərqləndirin.*
– *Niyə Təbrizə xalqın milli azadlıq mübarizəsinin rəmzi kimi baxılır? Fikrinizi əsaslandırın.*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə Təbriz və Bərdə arasında müqayisələrin aparılması, oxşar və fərqli cəhətlərinin aydınlaşdırılması verilə bilər.

**Ev tapşırığı.** Şagirdlərə "Azərbaycan taxtı – Təbriz" adlı afişa hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə:** təsvir etmə, fərqləndirmə
Mövcud dərsin qiymətləndirməsi yuxarıdakı meyara əsasən müəllimin dərsi izləməsi nəticəsində həyata keçirilməlidir. Əvvəlcədən qiymətləndirilməsi nəzərdə tutulmuş şagirdlər dərsin sonunda yuxarıda verilmiş meyar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirilə bilər.
Vaxtınız olacağı təqdirdə şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verə bilərsiniz.

**Diskussiya iştirakçısının özünüqiymətləndirmə vərəqi**

**Şagirdin adı və soyadı** ______________________________

| Meyarlar | Heç vaxt | Bəzən | Tez-tez | Həmişə |
|---|---|---|---|---|
| Fəal iştirak edirdim. | | | | |
| Tapşırıqları yerinə yetirirdim. | | | | |
| Öz ideyalarımı dəqiq izah edirdim. | | | | |
| Başqalarını dinləyir və dəstəkləyirdim. | | | | |
| Mən bugünkü diskussiyaya hazır gəlmişəm. | | | | |

# 22 Müsəlman Şərqinin ilk Cümhuriyyəti

**Qeyd.** Mövcud paraqrafın tədrisinə iki saat ayrılmışdır.

Birinci dərsdə 3.1.1. (Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir) və 3.1.2. (Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir) standartlarının;

İkinci dərs saatında isə 1.1.1. (Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir) və 3.1.1. (Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir) standartlarının reallaşdırılması nəzərdə tutulmuşdur.

Onu da qeyd edək ki, müəllimlərə təqdim etdiyimiz tədris bölgüsü mütləq deyil. Bu bölgü dəyişdirilə və yeni bölgü forması yaradıla bilər.

**Standartlar:**

3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.

3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Azərbaycan Xalq Cümhuriyyəti haqqında sadə biliklər nümayiş etdirir.
2. Xalqın mənafeyinin qorunmasında Azərbaycan Xalq Cümhuriyyətinin rolunu dəyərləndirir.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulları:** BİBÖ, fasiləli oxu

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya üçün BİBÖ üsulundan istifadə etmək olar. Bunun üçün lövhədə dərsin əvvəlində BİBÖ cədvəli çəkilir. Çəkilmiş cədvəl dərsin sonunadək saxlanılır. Çünki BİBÖ dərsin motivasiya mərhələsindən başlayaraq sonadək doldurulması zəruri olan üsullardan biridir.

| Bilirəm | İstəyirəm, biləm | Öyrəndim |
|---|---|---|
| | | |
| | | |
| | | |

Cədvəl çəkildikdən sonra şagirdlərdən Azərbaycan Xalq Cümhuriyyəti haqqında nə bildikləri soruşulur. Şagirdlər yaddaşlarında qalanlar əsasında Azərbaycan Xalq Cümhuriyyəti haqqında bildiklərini söyləyirlər. Onların bütün bildikləri BİBÖ cədvəlinin "Bilirəm" hissəsində qeyd edilməlidir. "Bilirəm" hissəsi doldurulduqdan sonra şagirdlərdən Azərbaycan Xalq Cümhuriyyəti haqqında nələri öyrənmək istədikləri soruşulur. Onların bu "istəkləri" də cədvəldə qeyd edildikdən sonra bir-iki cümlə ilə yeni dərsə keçid olunur, tədqiqat sualı elan edilir.

**Tədqiqat sualı.** Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını zəruri edən amillər hansılar idi?

**Tədqiqatın aparılması.** Bu mərhələni həyata keçirmək üçün fasiləli oxu üsulundan istifadə etmək olar. Məlum olduğu kimi, bu üsulla dərsi keçən zaman şagirdlərə növbə ilə mövzunu oxudub müəyyən hissələrdə fasilələrə yol verilir. Bu fasilə mövzuarası verilmiş sual və tapşırıqlar da ola bilər. Şagirdlərin səviyyəsindən asılı olaraq, bu fasilələri mürəkkəb görünən və düşünməyə, eləcə də mülahizələr söyləməyə imkan yaradan hissələrdə də etmək olar. Bu zaman şagirdlərə dərslikdə verilmiş sual və tapşırıqlarla müraciət edilə bilər:

– *Sizcə, nə üçün Rusiyanı "xalqlar həbsxanası" adlandırırdılar?*
– *Sizcə, bu cür qırğınların təkrarlanmaması üçün nə etmək lazımdır?*
– *Ölkəmizdə "Bayraq günü" hansı tarixdə qeyd olunur?*
– *Sizcə, yeni yaranan dövlətin təhsilə xüsusi diqqət ayırmasının səbəbi nə idi?*

Verilən sual və tapşırıqların müzakirəsi zamanı şagirdlərin cavablarına hörmətlə yanaşmaq lazımdır. Şagirdlərə verilən suallar onların əvvəllər əldə etdikləri biliklərin üzə çıxmasına şərait yaradacaq. Onlar həm dərslikdə verilən məlumatlardan nəticə çıxarmaqla, həm də əvvəllər öyrəndikləri materiallara istinad etməklə faktlar söyləyəcəklər. Şagirdlərin izahı onların münasibət bildirmə, izahetmə bacarıqlarının da formalaşmasına yardımçı olacaq.

Şagirdlərin öz fikirlərini söyləyərkən ən zəruri məqamları lövhədə və ya flipçartda (bunu vatman kağızı da əvəz edə bilər) qeyd etmələri məsləhətdir. Çünki bu fikirlər sonda ümumiləşdirmə və nəticələrin əldə olunması zamanı lazım olar. Fasiləli oxu zamanı təkcə mövzunu əhatə edən sual və tapşırıqlar deyil, "Bilirsinizmi?" başlıqlı məlumatlar və əyani vəsaitlər də diqqət mərkəzində saxlanılmalıdır. Mövzunun oxunuşu zamanı fasilə verməklə qısa vaxt ərzində şagirdlərin qiymətləndirməsini həyata keçirə bilərsiniz.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Əldə edilən nəticələrin müzakirəsi bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Bu zaman fasilitasiya əsasında (yönəldici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək edilir. İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilməlidir. Bu zaman şagirdləri lazımi məcraya yönəltmək, suallar vermək lazım gələcək. Onlara əlavə olaraq inqilab ərəfəsində Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, əhəmiyyəti, gördüyü tədbirlərlə bağlı əlavə sual və tapşırıqlar da verilə bilər. Müzakirələr zamanı şagirdlərin əlavə suallar verməsi təmin edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək üçün şagirdlərə aşağıdakı ümumiləşdirici sual və tapşırıqlarla müraciət etmək olar:

– *Necə oldu Rusiya imperiyası süqut etdi?*
– *Mart soyqırımı necə baş verdi?*
– *Mart soyqırımı baş verməyə bilərdimi? Fikrinizi əsaslandırın.*
– *"İstiqlal Bəyannaməsi"ni dəyərləndirin.*
– *Monarxiya ilə Cümhuriyyət arasında hansı fərqlər olduğunu şərh edin.*

Dərsin gedişindəki müzakirələrlə yanaşı, ümumiləşdirmə və nəticənin çıxarılması mərhələsində aparılan müzakirələr nəticəsində şagirdlər Azərbaycan Xalq Cümhuriyyəti haqqında sadə biliklər nümayiş etdirir, xalqın mənafeyinin qorunmasında Azərbaycan Xalq Cümhuriyyətinin rolunu dəyərləndirməyi bacarırlar.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə "Bizim ilk respublikamız" mövzusunda kiçik hekayə hazırlamaq tapşırıla bilər.

**Ev tapşırığı.** Məhəmməd Əmin Rəsulzadə, Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski haqqında məlumat toplamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** nümayiş etdirmə, dəyərləndirmə

Formativ qiymətləndirmə müəllim tərəfindən məzmun standartları əsasında müəyyənləşdirilməli və təlim məqsədləri üzrə hazırlanmış meyarlarla aparılmalıdır.

Qiymətləndirmənin istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizm, təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edən əks-əlaqə vasitəsi olduğunu nəzərə alaraq dərs prosesində şagirdlərin qiymətləndirilməsi zamanı yuxarıdakı meyarların nəzərə alınması vacibdir. Bu məqsədlə qiymətləndirilən şagirdləri dərs boyu diqqətdə saxlamalı və fəaliyyətləri izlənməlidir. Dərsin sonunda onları yuxarıda verilmiş meyar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirmək olar.

Şagirdlərə özünüqiymətləndirmə vərəqi də verilə bilər.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı və soyadı:** ___________________________________

Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (X).

| Meyarlar | Dərəcələr | | |
|---|---|---|---|
| | həmişə | bəzən | heç vaxt |
| 1. Müəllimin məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Verilən hissəni səlis oxudum. | | | |
| 4. Mövzuya uyğun bir neçə sual verdim. | | | |
| 5. Verilən sualları cavablandırdım. | | | |
| 6. Oxuduğumu anladım. | | | |

7. Bu dərsdə nələri öyrəndim?

___________________________________

___________________________________

8. Bu dərs müddətində ən yaxşı gördüyüm işlər:

___________________________________

___________________________________

**ŞƏRHLƏR:**

___________________________________

___________________________________

# 22 Müsəlman Şərqinin ilk Cümhuriyyəti

**Standartlar:**

1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.
3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.

**Təlim məqsədləri:**

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının hansı yüzilliyə və minilliyə təsadüf etdiyini müəyyənləşdirir.
2. Azərbaycan Xalq Cümhuriyyəti haqqında sadə biliklər nümayiş etdirir.

**Təlim formaları:** böyük və kiçik qruplar, fərdi

**Təlim üsulları:** zaman oxu ilə iş, “X-O” oyunu

**Dərsin gedişi**

**Qeyd.** Mövcud dərs Müsəlman Şərqinin ilk Cümhuriyyəti paraqrafına həsr edilmiş ikinci saat olduğundan aşağıdakı tədqiqat sualı üzərində iş aparmaq tövsiyə edilir.

**Tədqiqat sualı.** Azərbaycan xalqının mənafeyinin qorunmasında Azərbaycan Xalq Cümhuriyyəti hansı rolu oynadı?

**Tədqiqatın aparılması.** Dərsin tədqiqatın aparılması mərhələsi 1.1.1. standartının reallaşdırılmasına həsr edilə bilər. Bu zaman sinif kiçik qruplara bölünür, hər qrupa aşağıdakı tapşırıqlar verilir:

**I qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

a) “İstiqlaliyyət Bəyannaməsi”nin elan olunması;
b) Milli Ordunun ermənilərin anti-Azərbaycan çıxışına qarşı uğurlu əməliyyatı;
c) Mart soyqırımı;
d) Milli Ordu qüvvələrinin Bakını düşmənlərdən təmizləməsi;
e) Bakı Dövlət Universitetinin açılması.

**2. Hadisənin başvermə tarixini minilliyə, yüzilliyə və rüblərə ayırın.**

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması

---

**II qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

a) Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Bakıya köçməsi;
b) Milli Ordunun ermənilərin anti-Azərbaycan çıxışına qarşı uğurlu əməliyyatı;
c) Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması;
d) Rusiyada çar hakimiyyətinin devrilməsi;
e) Üçrəngli, ay-ulduzlu bayrağın dövlət bayrağı kimi təsdiq edilməsi.

**2. Hadisənin başvermə tarixini minilliyə, yüzilliyə və rüblərə ayırın.**

Mart soyqırımı

---

**III qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

a) Mart soyqırımı;
b) Milli Ordu qüvvələrinin Bakını düşmənlərdən təmizləməsi;
c) Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması;
d) Rusiyada çar hakimiyyətinin devrilməsi;
e) Bakı Dövlət Universitetinin açılması.

**2. Hadisənin başvermə tarixini minilliyə, yüzilliyə və rüblərə ayırın.**

Milli Ordunun ermənilərin anti-Azərbaycan çıxışına qarşı uğurlu əməliyyatı

---

**IV qrup**

**1. Hadisələri başvermə ardıcıllığına uyğun olaraq düzün.**

a) Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Bakıya köçməsi;
b) "İstiqlaliyyət Bəyannaməsi"nin elan olunması;
c) Birinci dünya müharibəsinin başlanması;
d) Milli Ordunun ermənilərin anti-Azərbaycan çıxışına qarşı uğurlu əməliyyatı;
e) Üçrəngli, ay-ulduzlu bayrağın dövlət bayrağı kimi təsdiq edilməsi

**2. Hadisənin başvermə tarixini minilliyə, yüzilliyə və rüblərə ayırın.**

Bakı Dövlət Universitetinin açılması

---

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir qrupun təqdimatı təşkil edilir. Təqdimata digər qruplar öz əlavə və düzəlişlərini edə bilərlər. Müəllim öz qeydlərini edib dərsin **ümumiləşdirməsini** həyata keçirir. Bu qarşıya qoyulan məqsədə çatmağa kömək etmiş olar.

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlərlə "X-O" oyununu keçirmək olar. Əvvəlcə onlara "NÜMUNƏ 1"dəki kimi vərəq paylanılır.

**NÜMUNƏ 1**

| | | |
|---|---|---|
| 1 | 2 | 3 |
| 4 | 5 | 6 |
| 7 | 8 | 9 |

Dərsliyin birinci paraqrafının ikinci saatının tədrisi zamanı şagirdlər bu oyunun qaydası ilə artıq tanış olmuşlar. Yaxşı olar ki, bu qaydalar lövhədə bu formada qeyd edilsin:

"0" – doğrunu

"X" – səhvi bildirir.

*Şagirdlərə ünvanlanan cümlələr aşağıdakı formada ola bilər:*

*1. İnqilab ərəfəsində Rusiyada parlamentli respublika quruluşu hakim idi.*

*2. Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin önündə "Müsavat" təşkilatı gedirdi.*
*3. Azərbaycan Xalq Cümhuriyyəti 33 ay yaşadı.*
*4. AXC-nin ilk hərbi naziri general Səməd bəy Mehmandarov olmuşdu.*
*5. Milli Ordunun ermənilərin anti-Azərbaycan çıxışına qarşı uğurlu əməliyyatına Nuru paşa başçılıq edirdi.*
*6. "İstiqlaliyyət Bəyannaməsi" Tiflisdə elan olundu.*
*7. Mart soyqırımını törədənlərə Şaumyan rəhbərlik etmişdi.*
*8. AXC-ni rəsmən tanıyan ilk dövlət İran oldu.*
*9. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov olmuşdu.*

Cümlələrə şagirdlər tərəfindən doğru cavab verilsə, cədvəl aşağıdakı formada doldurulacaq:

**NÜMUNƏ 2**

| | | | | | |
|---|---|---|---|---|---|
| 1 | X | 2 | O | 3 | X |
| 4 | O | 5 | X | 6 | O |
| 7 | O | 8 | X | 9 | O |

**Ev tapşırığı.** Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli haqqında kiçik təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə meyarları:** müəyyən etmə, nümayiş etdirmə

Yuxarıda verilmiş meyar əsasında, müəllimin dərsi izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxlaması yox, bu informasiyanı anlamaq səviyyəsi və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığı daha çox nəzərə alınmalıdır.

Qrupları qiymətləndirən zaman aşağıdakı qrup qiymətləndirmə vərəqindən də yararlanmaq olar.

| Qruplar | Tapşırığın düzgün hazırlanması | Əməkdaşlıq | Vaxta qənaət | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# 23 Sovet işğalı

**Standart:**

3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.

**Təlim məqsədi.**

Azərbaycan SSR haqqında sadə biliklər nümayiş etdirir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, restavrasiya

**Dərsin gedişi**

**Motivasiya.** Şagirdlərə youtube.com-da Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna dair sənədli film (https://www.youtube.com/watch?v=IU5CYXBYpfQ, "Tarixin izi ilə") nümayiş etdirilə bilər. Bu filmin nümayişindən sonra onlara aşağıdakı formada yönəldici suallar vermək olar:

– *İzlədiyiniz kadrlarda nədən bəhs edilir?*
– *Filmdəki hadisələr haqqında nə bilirsiniz?*

Alınan cavablar sistemləşdirilir, şagirdlər lazımi istiqamətə yönəldilir və yeni dərsə keçid edilir.

Əgər texniki imkanlar yoxdursa, şagirdlərə əvvəlki dərsdən – Azərbaycan Xalq Cümhuriyyətindən bir neçə cümləlik ümumiləşdirici məlumat verməklə də dərsin motivasiyasını qurmaq olar.

**Tədqiqat sualı.** Azərbaycanda Sovet hakimiyyəti necə quruldu?

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasında aparılması tövsiyə edilir. Fəal təlimin restavrasiya üsulundan istifadə etmək məqsədəuyğundur. Bu üsul şagirdlərə mətnlə işləməklə yanaşı, konspekt yazmaq və ondan istifadə etmək bacarığını da formalaşdırır. Bunun üçün şagirdlərə xüsusi işarələrlə işarələnmiş, şərti işarələri olmayan ixtisar olunmuş mətn verilir. Şagirdlər müəyyən edilmiş vaxt çərçivəsində mətni bərpa edib onu genişləndirməlidirlər.

Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqlar verilə bilər:

**I qrup**

Verilmiş mətni bərpa edin.

Qarabağdakı qiyam bolşevik-daşnak birliyinin ortaq planı idi. Belə ki daşnaklar

______________________________________________________________________

______________________________________________________________________

__________________________________________________________ AXC ordusu

Qarabağda erməni qiyamını ________________________________________________

______________________________________________________________________

______________________ Azərbaycanın işğalı XI Qırmızı Orduya tapşırılmışdı. Sayı 70 minə ______________________________________________________________

______________________________________________________________________

Lakin bu qatar ______________________________________________________________

**II qrup**

Verilmiş mətni bərpa edin.

1920-ci il aprelin 28-də rus-bolşevik işğalı nəticəsində AXC süqut etdi. ______________
______________________________________________________________________________
______________________________________________________________________________
_________________________ Sağ qalanlar ölkə xaricinə __________________________
______________________________________________________________________________
____________________________________________________________________________

Digərləri həbs edilərək Rusiyanın ucqar adalarına, ________________________________
______________________________________________________________________________
____________________________ dinləri əfsanə hesab edirdilər. Məscidlər, ___________
_____________________________________________________________________________

**III qrup**

Verilmiş mətni bərpa edin.

AXC dövlət orqanlarında çalışanların bir qismi güllələndi. __________________________
______________________________________________________________________________
______________________________________________________________________________
dinləri əfsanə hesab edirdilər. Məscidləri, dinləri əfsanə hesab edirdilər. Məscidlər, _____
______________________________________________________________________________
______________________________________________________________________________
____________________________________________________ Sərvətlərimiz (neft, pambıq, taxıl və s.) Rusiyaya ______________________________________________________
______________________________________________________________________________
bu tipli "müstəqil respublikalar" _______________________________________________

**IV qrup**

Verilmiş mətni bərpa edin.

Azadlığın itirilməsi, bolşeviklərin törətdikləri qırğın və talanlar _______________________
______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________ vətənpərvər insanlar Gəncə ______________________________________________________
______________________________________________________________________________
_____________ Gəncədəki vəziyyət bolşevikləri qorxuya saldı. _____________________
______________________________________________________________________________
________________________________________ yalnız dörd zirehli qatar və __________
______________________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Dərsin bu mərhələsində qruplara müəyyən vaxt verib tapşırıqlarını təqdim etmələri tapşırılır. Təqdimat zamanı qrupun tamamlaya bilmədiyi yerləri digər qrupların tamamlamasına və lazım gələrsə, sual verməsinə şərait yaradılır. Beləliklə, təqdim edilən cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə zamanı söylənilən fikirlərin ümu-

miləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması vacibdir. Dərsin bu mərhələsində müəllim şagirdlərə verdiyi yönləndirici suallar vasitəsilə ümumiləşdirmə apara bilər. Bununla belə, tədqiqat sualının tam cavabını almaqdan ötrü aşağıdakı sual və tapşırıqlar da yardımçı ola bilər.

– *Sizcə, Azərbaycanın XI Qırmızı Ordu tərəfindən işğalını asanlaşdıran amillər hansılar idi?*

– *Dərslik materialları əsasında Azərbaycan SSR-in xalqımızın mənafeyini qorumağa hazır olmadığını demək olarmı? Fikrinizi əsaslandırın.*

– *Azərbaycana münasibətdə bolşevik hökuməti ilə Rusiya imperiyasının siyasəti arasında hansı oxşarlıqları sadalamaq olar?*

– *Sizcə, Gəncə üsyanında qələbə qazanmaq üçün nələr lazım idi?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə "Azadlıq aşiqləri" adlı kiçik hekayə hazırlamaq tapşırıla bilər.

**Ev tapşırığı.** Səhifə 102-də verilmiş xəritə əsasında kiçik hekayə hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** bilikləri nümayiş etdirmə

Tədris prosesində aparılan qiymətləndirmə zamanı öyrənilmiş materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən əldə etdikləri biliyi tətbiq etmə bacarığı haqqında obyektiv təsəvvür yaranır. Qiymətləndirmə bütün dərs boyunca aparılmalı, lazımi qeydləri götürməli və sonda nəzərdə tutulan şagirdlər yuxarıdakı meyara və səviyyələrə görə qiymətləndirilməlidir.

Dərsin sonunda şagirdlərə aşağıdakı formada qrup qiymətləndirmə vərəqi verib aşağıdakı suala cavab verməklə cədvəli doldurmaq təklif edilə bilər.

**Qrupun adı** ___________________

**Təlimat.** *Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğu nəzərə alınaraq qrup qiymətləndirilir.*

| Meyarlar | Səviyyələr | | | | |
|---|---|---|---|---|---|
| | heç vaxt | nadir hallarda | bəzən | tez-tez | həmişə |
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur. | | | | | |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparırlarmı. | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Qrup üzvləri qərarlarını bir-birlə-rinə bildirir. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edir. | | | | | |
| Qrup üzvləri əldə etdikləri məlumatları müzakirə edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərir. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər. | | | | | |
| Qrupda ziddiyyətli fikirləri müza-kirə edirlər. | | | | | |
| Üzərində işlənilən mövzuda, qrup üzvləri ortaq bir fikrə gəlir. | | | | | |
| Qrup məhsuldar şəkildə işləyirmi. | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alır. | | | | | |

**Şərhlər:**

# 24 Azərbaycan xalqı faşizmə qarşı

**Qeyd.** Paraqrafdakı bütün məlumatları əhatə etməklə ayrı-ayrı standartların reallaşdırılması məqsədilə mövcud paraqrafın tədrisinə iki saat ayrılmışdır. Məqsəd şagirdlərin eyni materialla işləyərək fərqli məqsədlərlə, fərqli dərs üsulu ilə tədris materialını mənimsəməsi və bu müddət ərzində onlarda fərqli bacarıqlar inkişaf etdirilməsidir.
Onu da qeyd edək ki, bu bölgü mütləq deyil. Onu dəyişmək və yeni bölgü forması hazırlamaq olar.

**Standart:** 3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur.

**Təlim məqsədi.** İkinci dünya müharibəsi dövrünə aid kiçikhəcmli tarixi hekayə qurur.

**Təlim formaları:** böyük qruplarla, cütlərlə

**Təlim üsulları:** söz assosiasiyası, bir-birini öyrətmək

**Dərsin mərhələləri**

**Motivasiya.** Şagirdlərin İkinci dünya müharibəsi barədə məlumatlı olduğunu nəzərə alaraq dərsin motivasiyasını söz assosiasiyası üsulundan istifadə etməklə qurmaq mümkündür. Bunun üçün lövhədə faşizm, Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanı, Adolf Hitler, 1941–1945-ci illər, Mehdi Hüseynzadə və s. sözləri yazılır və şagirdlərə aşağıdakı suallar verilir.

– *Bu sözlər sizə nə deyir?*

– *Bu sözləri birləşdirən ümumi cəhətlər hansılardır?*

Motivasiyanın hansı yollarla reallaşdırılmasından asılı olmayaraq, əsas odur ki, şagirdlərdə fərziyyələr yaransın, eləcə də motivasiya uzun vaxt aparmasın. Düşündürücü olarsa və 4-5 dəqiqə sürərsə, daha səmərəli olar. Motivasiya reallaşdırıldıqdan sonra tədqiqat sualının qoyulması zəruridir.

**Tədqiqat sualı.** İkinci dünya müharibəsində Azərbaycanın rolu nədən ibarət idi?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsinin bir-birini öyrətmək üçün məsləhətlər üsulu ilə keçirilməsi təklif edilir. Unutmayın ki, dərsə maraq göstərən şagirdlər tədris resursu kimi çox dəyərli ola bilərlər. Onlardan bir-birlərinə öyrətmələrini istəməklə önəmli nailiyyət əldə etmək olar. Tədqiqatlarını auditoriyada həmyaşıdlarına anlaya biləcəyi bir yolla şifahi şəkildə izah etmək şagirdlərdən daha yüksək səviyyəli bacarıq tələb edir.

Bu zaman şagirdlərə tədqiqat xarakterli tapşırıq verilir. Sonra onlara tədqiqat zamanı əldə etdikləri məlumatları yoxlamaq öyrədilir. Əgər şagirdlər bir-birlərini öyrədərlərsə, onda, həqiqətən mövzunu mənimsəmiş sayılar.

Bunun üçün şagirdlərə aşağıdakı tapşırıqlar verilə bilər:

**I cüt**

İkinci dünya müharibəsinin necə başlaması haqqında kiçikhəcmli hekayə qurun.

____________________________________________

____________________________________________

**II cüt**
Faşistlərin hakimiyyətə gəlməsi barədə kiçikhəcmli hekayə qurun.

**III cüt**
SSRİ-nin İkinci dünya müharibəsinə qoşulmasına dair kiçikhəcmli hekayə qurun.

**IV cüt**
Sovet İttifaqı qəhrəmanları İsrafil Məmmədov və Gəray Əsədov haqqında kiçikhəcmli hekayə qurun.

**V cüt**
Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov haqqında kiçikhəcmli hekayə qurun.

**VI cüt**
İkinci dünya müharibəsinin qəhrəmanları Züleyxa Seyidməmmədova və Aliyə Rüstəmbəyova haqqında kiçikhəcmli hekayə qurun.

**VII cüt**
Qəhrəman partizan Əhmədiyyə Cəbrayılova dair kiçikhəcmli hekayə qurun.

**VIII cüt**
Qəhrəman partizan Mehdi Hüseynzadə haqqında kiçikhəcmli hekayə qurun.

**IX cüt**
İkinci dünya müharibəsi illərində Azərbaycan xalqının arxa cəbhədə gördüyü işlər barəsində kiçikhəcmli hekayə qurun.

**Qeyd.** Əgər sinifdə şagirdlərin sayı çoxdursa, daha əhəmiyyətli hesab olunan tapşırıqları yeni cütlərə vermək olar. Bu, eyni problemə müxtəlif yanaşmaların ortaya çıxmasına yardımçı olacaq.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir cüt təqdimatını edir. Bu zaman cüt üzvlərinin bir-birlərini

öyrətmə bacarığının hansı səviyyədə olduğu ortaya çıxmış olar. Müzakirələr zamanı cütlərdən kimin "öyrədən", kimin "öyrənən" olduğunun diqqətdə saxlanılması vacibdir. Təqdimat üçün konkret vaxt vermək və onu diqqətdə saxlamaq lazımdır. Təqdimat zamanı şagirdləri lazımi məcraya yönəltmək üçün onlara suallar verilir. Şagirdlərin də suallar verməsi qəbul ediləndir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Əldə edilən bilik və bacarıqları ümumiləşdirmək və tədqiqat sualına cavab tapmaq üçün aşağıdakı sual və tapşırıqlardan istifadə etmək olar:

– *Sizcə, nə üçün faşistlər Bakıya can atırdılar?*
– *Sizcə, düşmənin dilini öyrənməyin hansı üstünlükləri ola bilər?*
– *Müharibədə qələbə qazanmaq üçün nələr vacibdir?*
– *Azərbaycanın İkinci dünya müharibəsində rolu nədən ibarət idi?*

**Yaradıcı tətbiqetmə.** Xəritədə adı çəkilən qitələri tapmaq tapşırıla bilər.

**Ev tapşırığı.** Şagirdlərə ev işi kimi atom bombasının hansı ölkəyə atıldığı və nəticələri haqqında məlumat toplamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** hekayə qurma

Formativ qiymətləndirmənin daha yaxşı aparılması üçün yuxarıdakı meyar nəzərə alınaraq qiymətləndirilən şagirdlər dərs boyu diqqətdə saxlanmalı və onların fəaliyyətləri izlənməlidir. Qiymətləndirmə zamanı sizdə şagirdin fəaliyyəti ilə bağlı müəyyən suallar yaranarsa, şagirdə əlavə suallar da vermək olar.

Dərsin sonunda şagirdlərə refleksiya üçün aşağıdakı formada suallar verilə bilər:

– *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
– *Dərsdə hansı yeniliyi öyrəndiniz?*
– *Hansı suallarınız var?*
– *Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?*
– *Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı? və s.*

# 24 Azərbaycan xalqı faşizmə qarşı

**Standart:** 1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.

**Təlim məqsədi.** İkinci dünya müharibəsi illəri, hadisələri, anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.

**Təlim forması:** böyük qruplar

**Təlim üsulları:** auksion, afişaların yaradılması

**Dərsin gedişi**

**Qeyd.** Eyni materialın tədrisinə ayrılmış ikinci tədris saatı olduğundan şagirdlər artıq mövzu ilə tanışdırlar. Müəllim planlaşdırdığı dərsdən asılı olaraq, istənilən motivasiya və tədqiqat sualından istifadə edə bilər.

**Tədqiqatın aparılması.** Tədqiqatın auksion üsulundan istifadə etməklə həyata keçirilməsi məqsədəmüvafiq olardı. On altıncı paraqrafın tədrisi zamanı bu interaktiv təlim formasından istifadə olunduğundan dərs zamanı şagirdlər özlərini daha rahat hiss edərlər. Bu da qarşıya qoyulan məqsədə rahat çatmağa köməklik göstərəcəkdir. Bunun üçün şagirdlərə materialla tanışlıq üçün vaxt verib onlara bu dərs üsulunun qaydalarını qısaca xatırlatmaq yaxşı olar. Qarışıqlığın və sual "itkisi"nin olmaması üçün şagirdlərdən 5 nəfər sıra ilə düzülür. Sıradakı birinci şagirdə auksion üsulunun qaydasına uyğun olaraq sual verilir. Deyilən vaxtda cavablandıra bilməzsə, həmin sualı yanındakı şagird cavablandırmalıdır. O da cavab verə bilməsə, sıra növbəti şagirdə keçir. Beləcə, proses beşinci şəxsədək davam edir. Hər bir şagirdin 3 və ya 4 suala cavab verməsinə şərait yaradılır. İlk şagird ona verilən sualları oxuyub onları cavablandırdıqdan sonra yerinə oturur. Onun yerinə sinifdən digər şagird sıraya qatılır. Hansı şagirdin neçə suala düzgün cavab verməsini lövhə qarşısındakı şagirdin qeyd etməsi məqsədəmüvafiq olardı.

Bu üsulun tətbiqi zamanı aşağıdakı suallardan istifadə etmək olar:

1. *İkinci dünya müharibəsi necə başladı?*
2. *Sovet İttifaqı Qəhrəmanı adı alan ilk azərbaycanlı kimdir?*
3. *SSRİ-nin İkinci dünya müharibəsinə qoşulduğu ildə neçə onillik var?*
4. *İlk azərbaycanlı şturman (təyyarəçi) qız kimdir?*
5. *Qafqaza hücum etməkdə faşist ordusunun məqsədi nə idi?*
6. *"Uzaq sahillərdə" filmi kimə həsr olunmuşdur?*
7. *SSRİ İkinci dünya müharibəsinə necə qoşuldu?*
8. *İkinci dünya müharibəsinə töhfəsini verən kimyaçı alimimiz kimdir?*
9. *İki dəfə Sovet İttifaqı Qəhrəmanı adı alan yeganə azərbaycanlı kimdir?*
10. *İkinci dünya müharibəsinin başladığı ildə neçə onillik var?*
11. *"Mixaylo" ləqəbli azərbaycanlı kimdir?*
12. *Faşizmin vətəni hara hesab olunur?*
13. *"Armed Mişel" ləqəbi daşıyan azərbaycanlı kimdir?*
14. *1920–1930-cu illər ifadəsini yüzillik kimi necə səsləndirmək olar?*
15. *Sinəsi ilə alman pulemyotçusunu susduran azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı kimdir?*

*16. İkinci dünya müharibəsinin Azərbaycan xalqı üçün hansı nəticələri oldu?*
*17. “Aslanov nalı” adı alan taktika nəyə hesablanmışdı?*
*18. Həzi Aslanovun həlak olduğu ildə neçə yüzillik və minillik var?*

**Qeyd.** Yuxarıda verdiyimiz suallar nümunə xarakterlidir. Bunları artırmaq və ya dəyişmək olar. Eləcə də cavablandırılmayan sual təkrarən digər şagirddən soruşula bilər.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Dərsi auksion üsulu ilə keçən zaman sinfin bütün diqqəti bu “bilik yarışına” cəmlənmiş olur ki, bununla da əslində, dərsin tədqiqatın aparılması mərhələsində **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi yekunlaşmış olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlər İkinci dünya müharibəsi illəri, hadisələri, anlayışları arasındakı əlaqələri müəyyənləşdirməkdə çətinlik çəkərsə, dərsin bu mərhələsində xronoloji məsələlərlə bağlı izah və tapşırıqlar verilə bilər.

**Ev tapşırığı.** Şagirdlərə “Qəhrəman tankçı general Həzi Aslanov” adlı afişa hazırlanması verilə bilər.

**Qiymətləndirmə meyarı:** müəyyən etmə

Formativ qiymətləndirmə müəllim tərəfindən şagird fəaliyyətinin izlənməsi nəticəsində həyata keçirilir.

Dərsin sonunda şagirdlərə aşağıdakı formaya uyğun qarşılıqlı qiymətləndirmə vərəqi verilə bilər.

**Qarşılıqlı qiymətləndirmə vərəqi**

**Təlimat.** *Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə məqsədəmüvafiqdir.*

| Meyarlar | 1. Dostunun adı, soyadı | 2. Dostunun adı, soyadı | 3. Dostunun adı, soyadı |
|---|---|---|---|
| Verilən suala düzgün cavab verdimi? | | | |
| Reqlamentə riayət etdimi? | | | |
| Çıxışı savadlı idimi (terminlərin səslən-dirilməsi, vurğuların düzgünlüyü)? | | | |
| Tapşırığı başa düşüb və fikrini izah etdimi? | | | |
| Nəticə çıxarılıbmı? | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | |
| Başqalarının fikrinə maraq var idimi? | | | |
| Dinləmək bacarığı var idimi? | | | |
| Məntiqli yanaşma var idimi? | | | |

# 25 Dövlət müstəqilliyimizin bərpası

**Qeyd.** Mövcud dərsin keçirilməsi üçün iki saat ayrılmışdır. Birinci saatda 3.1.1. standartının (Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.), ikinci saatda isə 1.3.1. (İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.) və 1.2.2. standartlarının (İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.) reallaşdırılması nəzərdə tutulmuşdur.

**Standart.** 3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.

**Təlim məqsədi.** XX yüzillikdə Azərbaycanın ikinci dəfə dövlət müstəqilliyi əldə etməsi haqqında sadə biliklər nümayiş etdirir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, mətn üzərində iş

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyasını dərsliyin 22 və 23-cü paraqrafları üzərində qurmaq olar. Bunun üçün şagirdlərə qeyd edilən paraqraflardan çıxış edərək ümumiləşdirici məlumat vermək və ya onlara dərsin məqsədinə və tədqiqat sualına uyğun olaraq suallar ünvanlamaq olar.

**Tədqiqat sualı.** XX yüzillikdə Azərbaycan ikinci dəfə dövlət müstəqilliyini necə əldə etdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında mətn üzərində iş üsulu ilə dərsi qurmaq məqsədəmüvafiq olardı. Adından göründüyü kimi, bu zaman şagirdlər onlara verilmiş mətn üzərində işləməlidirlər.

Qruplara tədqiqat üçün aşağıdakı və ya müəllimin məsləhət bildiyi tapşırıqlar verilə bilər.

**I qrup**

1. Boş buraxılmış yerləri doldurun.
2. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etmək məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

Azərbaycan SSR ____________________ yaradılmışdı. Sovet hakimiyyəti illərində müstəqilliyimiz itirilmişdi. Xalqımız və ölkəmizlə bağlı qərarlar Moskvada qəbul edilirdi. Azərbaycan SSR-in nisbətən ______________________ vardı. 1948–1953-cü illərdə Ermənistan SSR-də __________________________________ __________________ edildilər. Onların evlərinə xaricdə yaşayan ermənilər köçürüldü. Alman faşizmi üzərində qələbədə böyük rol oynayan Azərbaycan xalqını sovet rəhbərliyi bu cür “mükafatlandırdı”. Qarabağda xaricdə hərbi təlim görmüş erməni silahlıları yerləşdirildi. Onlar azərbaycanlılara məxsus

___________________ hücumlar etməyə başladılar. Moskva isə bunlara göz yumdu. SSRİ rəhbərliyinin __________________________ xalqımızın etirazlarına səbəb oldu. 1988-ci ilin 17 noyabrında Bakıda xalq mitinqə çıxdı. Mitinqlərdə yarım milyondan çox insan iştirak edirdi. Dekabrın 4-dək davam edən bu çıxışlar ___________________ adlandırıldı. Əhali xalqımıza qarşı baş verən cinayətlərə cavab verilməsini tələb edirdi. Mitinqlərdə ________________________ ______________________ qaldırıldı. AXC-nin üçrəngli bayrağı mitinqlərə gətirildi.

### II qrup

1. Boş buraxılmış yerləri doldurun.
2. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

Azərbaycan SSR işğal nəticəsində yaradılmışdı. Sovet hakimiyyəti illərində müstəqilliyimiz itirilmişdi. Xalqımız və ___________________________________ qəbul edilirdi. Azərbaycan SSR-in nisbətən daxili müstəqilliyi vardı. _______________ illərdə Ermənistan SSR-də yaşayan soydaşlarımız ata-baba yurdlarından deportasiya edildilər. Onların evlərinə ____________________________ köçürüldü. Alman faşizmi üzərində qələbədə böyük rol oynayan Azərbaycan xalqını sovet rəhbərliyi bu cür “mükafatlandırdı”. Həmin ilin sonlarında SSRİ dağıldı. Azərbaycanda da ______________________________ keçirildi. Xalqımız Azərbaycanın müstəqilliyinə səs verdi. Beləliklə, 70 illik sovet işğalına rəsmən son qoyuldu. Xalqımız müstəqilliyini və azadlığını bərpa etdi. Bir qədər sonra Azərbaycan Respublikası ___ _______________________________________ üzv qəbul olundu. Müstəqilliyimiz beynəlxalq aləmdə də tanındı. Qarabağda xaricdə hərbi təlim görmüş erməni silahlıları yerləşdirildi. Onlar azərbaycanlılara məxsus yaşayış məntəqələrinə hücumlar etməyə başladılar. ________________ bunlara göz yumdu. SSRİ rəhbərliyinin anti-Azərbaycan siyasəti xalqımızın etirazlarına səbəb oldu. 1988-ci ilin 17 noyabrında Bakıda xalq ___________________.

### III qrup

1. Boş buraxılmış yerləri doldurun.
2. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

Beləliklə, Qərbi Azərbaycandan əhalinin qovulması, _____________________ hadisələr müstəqil dövlətin yaradılmasını zəruri etdi. Çünki SSRİ rəhbərliyi ədalətli mövqe nümayiş etdirmirdi. 1991-ci il oktyabrın 18-də __________________________ yaradıldığı elan edildi. Yeni yaranan dövlət özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdi. Üç rəngli, ay-ulduzlu bayraq yenidən başımızın üzərində dalğalanmağa başladı. AXC-nin ______________________ kimi təsdiq edildi. Sovet rəhbərliyi haqlı tələbləri yerinə yetirmək _____________________ yeritdi. Dinc nümayişlər ______________________. Həbslər başlandı. Saat 21:00-dan sonra insanların küçəyə çıxması qadağan edildi. Lakin bütün bunlar xalqımızı qorxutmadı. Əksinə, müstəqil-

lik tələbləri tez-tez səslənməyə başladı. Sovet hakimiyyəti dövründə ____________________ ________________________________ üçün muxtariyyət yaradıldı. Halbuki o dövrdə Ermənistanda yaşayan soydaşlarımıza belə hüquq verilməmişdi. 1988-ci ildə Ermənistan SSR rəhbərliyi Qarabağın onlara verilməsi tələbi ilə çıxış etdi. ___________________ Azərbaycan rəhbərliyi tərəfindən rədd edildi. Sovet rəhbərliyi bu məsələdə də ermənipərəst siyasət yürüdürdü.

**IV qrup**

1. Boş buraxılmış yerləri doldurun.
2. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

Sovet rəhbərliyi haqlı tələbləri yerinə yetirmək əvəzinə, Bakıya qoşun yeritdi. Dinc nümayişlər zor gücünə dağıdıldı. ____________________ Saat 21:00-dan sonra insanların küçəyə çıxması qadağan edildi. Lakin bütün bunlar xalqımızı qorxutmadı. Əksinə, müstəqillik tələbləri tez-tez səslənməyə başladı. Beləliklə, ____________________________________, Qarabağda başlanan hadisələr müstəqil dövlətin yaradılmasını zəruri etdi. Çünki SSRİ rəhbərliyi ____________________ nümayiş etdirmiridi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının yaradıldığı elan edildi. Yeni yaranan dövlət özünü __________________________________ varisi elan etdi. Üç rəngli, ay-ulduzlu bayraq yenidən başımızın üzərində dalğalanmağa başladı. ____________________ dövlət himni kimi təsdiq edildi. 1988-ci ildə isə deportasiyanın son mərhələsi başlandı. Yüz minlərlə soydaşımız ______________________________ zorla qovuldu. Deportasiyanın gedişində yüzlərlə azərbaycanlı öldürüldü. 1991-ci ildə Ermənistan SSR-də, yəni Qərbi Azərbaycanda artıq _________________________ qalmamışdı. Sovet rəhbərliyi bütün bunlara göz yumdu. Azərbaycanlılara qarşı törədilən cinayətlər isə ört-basdır edildi.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Bu mərhələdə şagirdlərə tədqiqatın gedişində əldə etdikləri məlumatları təqdim etmək, yeni informasiyanın mübadiləsini aparmaq üçün müəyyən vaxt verilir və onların təqdimatları dinlənilir. Suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edəcək.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirəcək. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində irəli sürülmüş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər.

– *Müstəqillik tələbləri dedikdə nə başa düşürsünüz?*
– *Hazırda 17 noyabr hansı əlamətdar gün kimi qeyd edilir?*
– *Dövlətin müstəqilliyinin əhəmiyyəti haqqında fikirlər bildirin.*

*– Dövlət müstəqilliyinin olmasının hansı üstünlükləri vardır?*

*– Azərbaycan Respublikası necə quruldu?*

**Yaradıcı tətbiqetmə.** Fərz edin ki, siz 1991-ci ildə yaşayırsınız (özünüzə yaş, məşğuliyyət, sosial təbəqə və s. seçin). Bu zaman müstəqillik uğrunda aparılan mübarizəni şərh edin.

**Ev tapşırığı.** Şagirdlərə Azərbaycan əhalisinin Ermənistan SSR-dən çıxarılması ilə bağlı araşdırma aparmaq tapşırıla bilər.

**Qiymətləndirmə:** nümayiş etdirmə

Qiymətləndirməni yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirmək olar. Şagirdi yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirmək olar.

Dərsin sonunda şagirdlərə refleksiya üçün aşağıdakı formada suallar verilə bilər:

*– Dərsdə hansı yeniliyi öyrəndiniz?*

*– Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*

*– Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?*

*– Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?*

*– Yeni mövzu üzərində necə işlədiniz?*

*– Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz? və s.*

# 25 Dövlət müstəqilliyimizin bərpası

**Standartlar:** 1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.
1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.

**Təlim məqsədləri:** 1. XX yüzillikdə Azərbaycanın ikinci dəfə dövlət müstəqilliyi əldə etməsi ilə insanların həyat tərzindəki dəyişiklikləri təsvir edir.
2. Sənədli materiallardan istifadə etməklə tədqiqat aparır.

**Təlim forması:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, mətn üzərində iş

**Qeyd.** Dövlət müstəqilliyimizin bərpası paraqrafın ikinci saatının, yuxarıda qeyd etdiyimiz kimi, 1.3.1. (İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.) və 1.2.2. standartları (İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.) əsasında tədrisi nəzərdə tutulmuşdur.

Şagirdlərin tədqiqat apara bilməsini təmin etmək üçün onlara Azərbaycanın dövlət müstəqilliyi əldə etməsinə dair mənbə tipli sənədli materiallar təqdim edilir. Təqdim ediləcək məlumatlar qəzet və ya jurnal materialları, elmi əsərlərdən çıxarışlar, məqalələr və mövzuya aid ola biləcək digər materiallar ola bilər.

Şagirdlər onlara verilən məlumatlarla tanış olandan sonra onlara 1.3.1. standartına (İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.) uyğun olaraq tapşırıqlar verilir.

Tapşırıqlar seçiləcək dərsin üsul və formalarından asılı olaraq, təlim strategiyasına uyğun olmalıdır.

**Qiymətləndirmə meyarları:** təsvir etmə, tədqiqat aparma

Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxlaması yox, bu informasiyanı anlamaq səviyyəsi və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığı daha çox nəzərə alınmalıdır. Tədris prosesində aparılan qiymətləndirmə zamanı materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən əldə etdiyi biliyi tətbiq etmə bacarığı haqqında obyektiv təsəvvür yaranır.

Dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi də verilə bilər.

# 26 Birinci Qarabağ müharibəsi

**Qeyd.** Tədris ediləcək paraqraf dərsliyin 112–118-ci səhifələrini əhatə edir. Bu paraqrafın tədrisinə iki saat vaxt ayrılmışdır. Paraqrafın saatlar üzrə bölgüsü aşağıdakı qaydada nəzərdə tutulmuşdur:

– birinci tədris saatında dərsliyin 112–115-ci səhifələrindəki məlumatların mənimsənilməsi;
– 116–118-ci səhifələrdəki məlumatların öyrədilməsi.

Bu bölgü mütləq deyil. Müəllim bu bölgünü tədris strategiyasına uyğun olaraq dəyişə, tədris üçün standartları ixtisar və ya yeni standartlar əlavə edə bilər.

**Standartlar:** 3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.
3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədləri:** 1. Azərbaycan SSR haqqında sadə biliklər nümayiş etdirir.
2. Dövlətin ərazi bütövlüyünü və xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulları:** beyin həmləsi, ikihissəli gündəlik

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiyanı lövhədən Birinci Qarabağ müharibəsini özündə əks etdirən şəkillər asaraq ona aid suallar verməklə qurmaq olar. Suallar aşağıdakı formada ola bilər:





– *Gördüyünüz şəkillərdən sizə nə aydın olur?*
– *Sizcə, bu şəkillər hansı hadisəyə aiddir?*

Əgər texniki imkanları varsa, şagirdlərə YouTube-dan Birinci Qarabağ müharibəsinə dair bir neçə dəqiqəlik film göstərib, ona uyğun suallar hazırlamaqla da dərsin motivasiyasını qurmaq olar.

**Tədqiqat sualı.** 1988–1992-ci illərdə baş vermiş hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən edin.

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılması mərhələsini reallaşdırmaq üçün "İki hissəli gündəlik" üsulundan istifadə etmək məqsədəmüvafiq olardı. Bunun üçün şagirdlərin dəftərlərində iki hissəli bir cədvəl qurması və cədvəlin birinci tərəfində "mövzuda diqqətimi daha çox cəlb edənlər", ikinci tərəfdə "bunun səbəbi" yazılması məqsədəuyğundur. Bu "gündəlik" müəllimin seçimindən, yanaşmasından asılı olaraq, müxtəlif formalarda tətbiq oluna bilər. Şagirdlər mətni oxuya-oxuya gündəlikdə müvafiq qeydlər aparırlar. Mövzunun oxunması, qeydlərin aparılması başa çatdıqdan sonra şagirdlər yenidən mətnə müraciət edir, qeydlərini zənginləşdirirlər.

Təbii ki, müəllim dərs prosesində qiymətləndirməyi nəzərdə tutduğu şagirdlərin qeydlərini dinləməli və sinfin digər şagirdlərinin bu müzakirələrə qoşulmasını təmin etməlidir. Dərsin daha maraqlı, canlı, nəticəyönümlü keçməsi üçün yaxşı olardı ki, mövzunu hissələrə bölüb, hər hissənin oxunması üçün şagirdlərə vaxt verilsin və sonra onlarla bunun müzakirəsi aparılsın. Paraqrafın strukturuna görə dərsin Birinci Qarabağ müharibəsinin başlanması, tarix unudanları bağışlamır və Qanlı yanvar kimi ayrı-ayrı hissələrə bölünüb keçilməsi daha məqsədəmüvafiq olardı.

Beləliklə, tədqiqatın aparılması mərhələsi ilə yanaşı, **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də bitmiş olar. Şagirdlər çıxışlarını yekunlaşdırandan sonra müəllim fikirlərini ifadə edib dərsin növbəti mərhələsinə keçid edə bilər.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldikləri nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirəcək. Bunun üçün də şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək məqsədəmüvafiqdir.

– *Birinci Qarabağ müharibəsi necə başladı?*
– *Sizcə, nəyə görə Azərbaycan SSR dövlətimizin ərazi bütövlüyünü müdafiə edə bilmədi?*
– *Ermənilərin əsas iddiaları nə idi?*
– *Qanlı yanvar hadisələrinin başvermə səbəbi hansılar idi?*
– *SSRİ rəhbərliyi 20 Yanvar cinayətini törətməklə nəyə nail olmaq istəyirdi?*
– *20 Yanvar qırğınının nəticəsi nə oldu?*
– *Sizcə, ovaxtkı Azərbaycan rəhbərliyi niyə xalqın mənafeyini qoruya bilmədi?*

**Yaradıcı tətbiqetmə.** "20 Yanvar şərəf tariximizdir" adlı kiçik hekayə hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** nümayiş etdirmə, dəyərləndirmə

Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxlaması yox, bu informasiyanı anlamaq səviyyəsi və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığı daha çox nəzərə alınmalıdır. Tədris prosesində aparılan qiymətləndirmə za-

manı materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən əldə etdiyi biliyi tətbiq etmə bacarğı haqqında obyektiv təsəvvür yaranır.

Dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi də verilə bilər.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı və soyadı** ______________________________

**Təlimat.** *Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (X).*

| | **Dərəcələr** | | |
|---|---|---|---|
| **Meyarlar** | **həmişə** | **bəzən** | **heç vaxt** |
| 1. Müəllimin məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. İkihissəli gündəlikdən səmərəli istifadə etdim. | | | |
| 4. Müvafiq qeydlər etməyi bacardım. | | | |
| 5. Mövzuya uyğun bir neçə sual verdim. | | | |
| 6. Verilən sualları cavablandırdım. | | | |
| 7. Oxuduğumu anladım. | | | |

**ŞƏRHLƏR:** ______________________________________________________________

# 26 Birinci Qarabağ müharibəsi

**Standartlar:** 3.1.1. Azərbaycan dövlətləri haqqında sadə biliklər nümayiş etdirir.
3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədləri:** 1. Azərbaycan Respublikası haqqında sadə biliklər nümayiş etdirir.
2. Dövlətin ərazi bütövlüyünü və xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulu:** ikihissəli gündəlik

**Dərsin gedişi**

**Qeyd.** Birinci dərs saatında olduğu kimi, bu dərsin də ikihissəli gündəlik üsulundan istifadə etməklə tədrisi məqsədəmüvafiqdir. Bu üsul şagirdlərin daha yaxşı işləməsini təmin etməklə yanaşı, seçimlərində, yanaşmalarında daha diqqətli olmağa, səbəb və nəticə əlaqələrini tapmağa, fikirlərini daha dolğun ifadə etməyə şərait yaradar.

**Tədqiqat sualı.** 1992-ci illərin əvvəllərində ərazi bütövlüyümüz və xalqın mənafeyi qoruna bildimi?

**Tədqiqatın aparılması.** İkihissəli gündəlik üsulu ötən dərsdən şagirdlərə tanış olsa da, yenə də dərsin qaydalarını onlara izah etmək vacibdir:

"Əziz şagirdlər, dəftərlərinizdə iki hissəli bir cədvəl qurun. Cədvəlin birinci tərəfində "mövzuda diqqətimi daha çox cəlb edənlər", ikinci tərəfdə "bunun səbəbi" yazılması məqsədəuyğundur. Daha sonra mətni oxuya-oxuya gündəlikdə müvafiq qeydlər aparın. Mövzunun oxunması, qeydlərin aparılması başa çatdıqdan sonra yenidən mətnə müraciət edə, qeydlərinizi zənginləşdirə bilərsiniz".

| Mövzuda diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| 1. | |
| 2. | |
| .................................................................. | |

Təbii ki, müəllim dərs prosesində qiymətləndirəcəyi şagirdlərin qeydlərinin səsləndirilməsini istəməli və digər şagirdlərin bu müzakirələrə qoşulmasını təmin etməlidir. Dərsin daha maraqlı, canlı, nəticəyönümlü keçməsi üçün yaxşı olardı ki, mövzu hissələrə bölünsün, hər

hissənin oxunması üçün şagirdlərə vaxt verilsin və verilən vaxt bitəndən sonra şagirdlərlə bunun müzakirəsi təşkil edilsin. Müzakirə apararkən şagirdlərə aşağıdakı suallar da verilə bilər:

– *Mövzunu oxuyarkən nə hiss etdiniz?*
– *Mövzunu oxuduqdan sonra nə haqqında fikirləşdiniz?*
– *Xoşunuza gəlib-gəlməməyi necə əsaslandırarsınız?*

Beləliklə, tədqiqatın aparılması mərhələsi ilə yanaşı, **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də bitmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirəcək. Müzakirə zamanı fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər.

– *Xocalının Qarabağ üçün əhəmiyyətini vurğulayın.*
– *Sizcə, ovaxtkı Azərbaycan rəhbərliyi Xocalı soyqırımının qarşısını necə ala bilərdi?*
– *Sizcə, faciələrin təkrarlanmaması üçün nə etmək lazımdır?*
– *Sizcə, Birinci Qarabağ müharibəsində Azərbaycanın məğlub olma səbəbləri hansılar idi?*
– *Sizcə, Birinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyünün pozulması gələcəkdə hansı nəticələr yol aça bilərdi?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə aşağıdakı tapşırıqları vermək olar.

– *1918-ci ilin mart soyqırımılarını xatırlayın. Dövrlər arasında müqayisələr aparın.*
– *Xocavənd rayonunu xəritədə göstərin.*

**Ev tapşırığı.** Şagirdlərə Xatın, Holokost, Serebrenitsa soyqırımıları haqqında məlumat toplamaq və Xocalı soyqırımı ilə müqayisələr aparmaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** nümayiş etdirmə, dəyərləndirmə

Tədris prosesində aparılan qiymətləndirmə zamanı öyrənilmiş materialın şagirdlər tərəfindən nə dərəcədə mənimsənilməsi, mühakimə yürütmə qabiliyyətinin inkişafı, konkret faktları, hadisələri izah edərkən, müxtəlif tapşırıqları yerinə yetirərkən şagirdin əldə etdiyi biliyi tətbiq etmə bacarığı haqqında obyektiv təsəvvür yaranır. Qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxladığı yox, bu informasiyanı anlamaq səviyyəsi və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığı daha çox nəzərə alınır. Qiymətləndirmə bütün dərs boyunca aparılmalı, lazımi qeydləri götürməli və sonda nəzərdə tutulan şagirdlər meyarlara və səviyyələrə görə qiymətləndirilməlidir.

Dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə cədvəli verilə bilər. Əvvəlki dərsdə istifadə edilmiş özünüqiymətləndirmə cədvəlindən də yararlanmaq olar.

**Özünüqiymətləndirmə vərəqi**

**Adı və soyadı** ___________________________________

**Təlimat.** *Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

| **Meyarlar** | **Qiymət** |
|---|---|
| 1. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | |
| 2. Çalışmalarımı bitirdim. | |
| 3. Təlimata əməl etdim. | |
| 4. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | |
| 5. Anlamadığım məsələyə aid sual verdim. | |
| 6. İkihissəli gündəlik üsuluna uyğun cədvəl qurmağı bacardım. | |
| 7. Cədvəl üzrə müvafiq qeydlər etdim. | |

**Şərhlər:** ___________________________________

# 27 Dövlətin xilaskarı

**Qeyd.** Mövcud paraqrafın tədrisinə iki saat vaxt ayrılmışdır. Paraqrafın hər iki saatının dərslikdəki bütün materialın tədqiqi əsasında, lakin ayrı-ayrı dərs üsullarının köməyi ilə keçirilməsi nəzərdə tutulmuşdur. Bu, şagirdlər tərəfdən paraqrafdakı materialın tam mənimsənilməsinə, həm də eyni material üzərində yeni təlim üsulu ilə işləmək imkanı verərək onları hadisələrə fərqli müstəvidən yanaşmağa sövq edir.

**Standart:**

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri *(İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

**Təlim məqsədi.**

Heydər Əliyevin Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərdən biri olduğunu müəyyən edir.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulları:** anlayışın çıxarılması, bitməmiş cümlələr

**Dərsin gedişi**

**Motivasiya.** Anlayışın çıxarılması üsulundan istifadə etməklə şagirdləri dərsə motivə etmək olar. Bunun üçün lövhədə aşağıdakı formada sxem çəkilir.



Daha sonra açar cümlələr qeyd edilir, şagirdlərə aşağıdakı sualla müraciət edilir:

– *Bu cümlələr kimə aiddir?*

İzahlar bitdikdən sonra mərkəzdəki sualın cavabı şagirdlərin köməyi ilə elan edilir.

**Tədqiqat sualı.** Uğur necə əldə edilir?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını əvvəlki dərslərdən şagirdlərə tanış olan *"bitməmiş cümlələr"* üsulunun köməyi ilə həyata keçirmək məqsədəmüvafiqdir. Ehtiyac yaranarsa, şagirdlərə bu üsulun qısa izahını vermək olar. *"Uşaqlar, indi mən sizə bir bitməmiş cümlə deyəcəm və siz bu cümləni 2-3 arqumentlə tamamlamalısınız".*

Şagirdlərə verdiyiniz "bitməmiş cümlələr" aşağıdakı formada ola bilər:

– *Heydər Əliyevin Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirməsini belə qiymətləndirərdim ki, ...................*

– *Heydər Əliyevin müxtəlif vəzifələrdə çalışmasını belə dəyərləndirmək olar ki, ....................*

– *Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda böyük uğurlar qazanılmasının səbəblərini belə şərh etmək olar ki, .................*

– *Bugünkü dərsdə mən Heydər Əliyev haqqında ............................ öyrəndim.*

– *1993-cü ildə Heydər Əliyevin yenidən dövlətə rəhbərlik etməsinin izahını belə verərdim ki, ..........................*

– *"Əsrin müqaviləsi" adlandırılan neft sazişinin imzalanmasını belə dəyərləndirərdim ki, .....................*

– *Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" ifadəsi bizə belə nəticə çıxarmağa imkan verir ki, .......................*

–*Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin tikintisini belə izah edərdim ki, ...........................*

– *Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" ifadəsini belə dəyərləndirərdim ki, ....................*

Bir neçə şagirdə cümlələri tamamlamaq tapşırılır. Hər şagirdə fikrini ifadə etmək üçün neçə dəqiqə vaxt verildiyinin əvvəlcədən elan edilməsi zəruridir. Bu, dərs prosesində əlavə vaxt itkisinin qarşısını alacaqdır.

Əslində, dərsin bu mərhələsində **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də yekunlaşmış olur. Şagirdlərin çıxışları bitəndən sonra müəllim öz fikirlərini ifadə edir. Bu zaman şagirdlərdən əlavə fikirlər soruşulur, onların fikirləri yekunlaşdırılır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlər onlara verilən tapşırıqları yerinə yetirdikdən sonra, əslində, tədqiqat sualına cavab tapmaqda çətinlik çəkməzlər. Bununla belə, onlarda hər hansı bir anlaşılmazlıq olarsa, aşağıdakı formada əlavə sual və tapşırıqlar verilə bilər:

– *Sizcə, uğur qazanmaq, böyük şəxsiyyət olmaq üçün nələr lazımdır?*

– *Heydər Əliyev nə üçün Azərbaycanın Ümummilli lideri adını almışdır? Fikrinizi faktlarla əsaslandırın.*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə Azərbaycanın Ümummilli lideri Heydər Əliyev və onun fəaliyyəti haqqında təqdimat (videoklip, divar qəzeti, buklet və s.) hazırlamaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** müəyyən etmə

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, dərsin bu mərhələsində müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyara uyğun olaraq səviyyələr üzrə qiymətləndirməlidir.

Dərsin sonunda şagirdlərə aşağıdakı formaya uyğun qarşılıqlı qiymətləndirmə vərəqi verilə bilər.

**Qarşılıqlı qiymətləndirmə vərəqi**
**Adı və soyadı** ________________________________

**Təlimat.** *Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

| Meyarlar | 1. Dostunun adı, soyadı ____________ | 2. Dostunun adı, soyadı ____________ | 3. Dostunun adı, soyadı ____________ |
|---|---|---|---|
| Səsləndirilən bitməmiş cümləni doğru tamamladımı? | | | |
| Reqlamentə riayət etdimi? | | | |
| Çıxış savadlı idimi (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü)? | | | |
| Tapşırığı başa düşüb və fikrini izah etdimi? | | | |
| Nəticə çıxarılıbmı? | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | |
| Başqalarının fikrinə maraq var idimi? | | | |
| Dinləmək bacarığı var idimi? | | | |
| Məntiqli yanaşma var idimi? | | | |

# 27 Dövlətin xilaskarı

**Standartlar:**

1.1.2. Sadə xronoloji məsələləri həll edir.

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri *(İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

**Təlim məqsədləri:**

1. Zaman ölçülərindən istifadə etməklə sadə xronoloji məsələləri həll edir.
2. Heydər Əliyevin Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərdən biri olduğunu müəyyən edir.

**Təlim forması:** kiçik qruplar

**Təlim üsulları:** söz assosiasiyası, iki həqiqət və bir yanlış

**Dərsin gedişi**

**Motivasiya.** Müəllim planlaşdırdığı dərsdən asılı olaraq motivasiyanı istədiyi kimi qura bilər. Motivasiyanı qurmaq üçün söz assosiasiyası üsulundan istifadə etmək olar.

**Tədqiqat sualı.** Heydər Əliyev Azərbaycan xalqının Ümummilli lideri adını necə qazandı?

**Tədqiqatın aparılması.** Müəllim iki həqiqət və bir yanlış üsulunun köməyi ilə dərsin **tədqiqatın aparılması mərhələsini** həyata keçirə bilər. Sinif kiçik qruplara bölünür, hər qrupa bir mövzu verilir. Mövzu əsasında şagirdlərə növbəti tapşırıq təqdim edilir:

– *Bu mövzu haqqında üç fikir yazın.*

– *Yazdığınız üç fikirdən ikisi doğru, biri isə yanlış olmalıdır. Fikirlər elə təqdim olunmalıdır ki, yanlış doğruya bənzəsin.*

– *Yazılan fikirlər kitab cümləsi olmamalıdır.*

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqlar verilə bilər:

**I qrup**

**1.** Heydər Əliyevi tarixi şəxsiyyət kimi qiymətləndirin.

1. ______________________________

2. ______________________________

3. ______________________________

**2.** Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərlik etməsindən neçə il ötüb?

______________________________

**II qrup**

**1.** Heydər Əliyevin tarixi zaman baxımından dövlətin xilaskarı olduğunu izah edin.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**2.** Zamanı yüzilliklə hesablasaq, Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərlik etməsindən neçə yüz il ötüb?

______________________________

**III qrup**

**1.** Heydər Əliyevin uğurlarının sirlərini şərh edin.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**2.** Zamanı minilliklə hesablasaq, "Əsrin müqaviləsi" adlandırılan neft sazişinin imzalanmasından neçə min il ötüb?

______________________________

**IV qrup**

**1.** Azərbaycanın iqtisadi cəhətdən inkişafında Heydər Əliyevin rolunu qiymətləndirin.

1. ______________________________
2. ______________________________
3. ______________________________

**2.** Zamanı yüzilliklə hesablasaq, "Əsrin müqaviləsi" adlandırılan neft sazişinin imzalanmasından neçə yüz il ötüb?

______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir qrupun təqdimatı təşkil edilir. Bu zaman digər qruplar təqdim edilən bu üç fikirlərdən hansının səhv olduğunu təxmin etməlidir. Müzakirələr zamanı müəllimin də üç fikir söyləməsi (iki doğru, biri yanlış) məqsədəmüvafiq olardı. Bu onun qarşısına qoyduğu məqsədə çatmasına kömək etmiş olar.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlərin verdiyi cavabları ümumiləşdirmək və dərsin məqsədlərinə uyğun olaraq nəticələr çıxarmaq (bu zaman şagirdlərdən də fikirlərin alınması vacibdir) müəllimdən asılıdır.

**Qiymətləndirmə meyarları:** həlletmə, müəyyən etmə

Bu meyarlar əsasında, dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə və əvvəlcədən müəyyənləşdirilən səviyyələr üzrə qiymətləndirmək olar.

Dərsin sonunda aşağıdakı formaya uyğun qrup qiymətləndirmə vərəqindən istifadə edilə bilər.

| **Qruplar** | **Mübadilədən düzgün istifadə** | **Tapşırığın vaxtında yerinə yetirilməsi** | **Əməkdaşlıq** | **Təqdimetmə** | **Ümumi nəticə** |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# 28 Müzəffər Ali Baş Komandan

**Qeyd.** Mövcud paraqrafın tədrisinə iki saat vaxt ayrılmışdır. Paraqrafın hər iki saatının dərslikdəki bütün materialın tədqiqi əsasında, lakin ayrı-ayrı dərs üsullarının köməyi ilə keçirilməsi nəzərdə tutulmuşdur.

**Standartlar:**

1.1.1. Tarixi zaman anlayışları arasındakı əlaqələri müəyyənləşdirir.

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri *(İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

**Təlim məqsədləri:**

1. Minillik və yüzilliklər arasındakı əlaqələri müəyyənləşdirir.
2. İlham Əliyevin Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərdən biri olduğunu müəyyən edir.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulları:** beyin həmləsi, ardıcıl suallar

**Dərsin gedişi**

**Motivasiya.** Texniki imkanlar olduğu təqdirdə, "İlham Əliyev. And 20 il sonra", "Cənab Prezident", "Müzəffər Komandan" və s. bu kimi sənədli filmlərin hər hansı birindən müvafiq parça göstərilir və yardımçı suallar vasitəsilə şagirdlər mövzuya istiqamətləndirilir.

Suallar aşağıdakı kimi ola bilər:

– *Gördüyünüz kadrlardan sizə nə aydın oldu?*

– *Kadrlarda diqqətinizi ən çox nə cəlb etdi?*

Nümayiş olunan kadrlardan asılı olaraq müəllim müxtəlif suallar hazırlaya bilər.

Əgər texniki imkanlar yoxdursa, əvvəlki mövzudan çıxış edərək və ya İkinci Qarabağ müharibəsindəki qələbədə əsas pay sahibi olan Müzəffər Ali Baş Komandandan bir neçə cümlə şagirdlərə məlumat verməklə yeni dərsə giriş edilə bilər.

**Tədqiqat sualı.** Ulu öndərin davamçısı etimadı necə doğrultdu?

**Tədqiqatın aparılması.** Tədqiqatın ardıcıl suallar üsulundan istifadə etməklə aparılması tövsiyə olunur. Mətn abzaslara bölünür, əvvəlki dərslərdə göstərildiyi qayda üzrə icra edilir. Bu üsulun tətbiqi ilə şagirdlərdə ünsiyyət, mətnlə müstəqil işləmək, oxuyub-anlama vərdişləri ilə yanaşı, sual vermək, sualı cavablandırmaq, müstəqil düşünmək kimi idraki bacarıqlar formalaşdırmaq mümkündür.

Ardıcıl suallar üsulu ilə dərsi keçən zaman **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi ilə tədqiqatın aparılması mərhələsi birləşdirilmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Müzakirə başa çatdıqdan sonra nəticələr ümumiləşdirilir. Müəllim yönəldici suallar vasitəsilə tədqiqat sualına cavab ala bilər:

– *Haqqında məlumat aldığınız dövlət başçılarını hansı cəhətlər birləşdirir?*

– *Sizcə, dövlətin nüfuzunun artırılmasında şəxsiyyətlər, dövlət başçıları hansı addımlar atmalıdır?*

– *İlham Əliyevin prezidentliyi dövrü nə ilə yadda qalır?*

– *Sizcə, İlham Əliyevin ən böyük iqtisadi layihəsi hansıdır?*
– *Nə üçün biz prezidentimizə Müzəffər Ali Baş Komandan deyirik?*
– *Ulu öndərin davamçısı etimadı necə doğrultdu?*

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə cədvəldəki illəri yüzilliyə və minilliyə çevirmək tapşırığı verilir.

| İl | Yüzillik | Minillik |
|---|---|---|
| 2020 | | |
| 1995 | | |
| 2003 | | |
| 1736 | | |
| 2011 | | |
| 1514 | | |

**Qiymətləndirmə meyarları:** müəyyənləşdirmə, müəyyən etmə

Dərsin sonuncu mərhələsi olan qiymətləndirmə yuxarıda verilmiş meyarlar nəzərə alınmaqla səviyyələr üzrə həyata keçirilə bilər. Bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirmək olar.

Dərsin sonunda şagirdlərə aşağıdakı formaya uyğun özünüqiymətləndirmə vərəqi verilə bilər.

**Şagirdin özünüqiymətləndirmə vərəqi**

**Adı və soyadı** ________________________________

**Təlimat.** *Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (X).*

| Qabiliyyətlər | DƏRƏCƏLƏR | | |
|---|---|---|---|
| | həmişə | bəzən | heç vaxt |
| 1. Müəllimin məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Verilən hissəni səlis oxudum. | | | |
| 4. Yaxşı opponentlik etdim. | | | |
| 5. Mövzuya uyğun bir neçə sual verdim. | | | |
| 6. Verilən sualları cavablandırdım. | | | |
| 7. Oxuduğumu anladım. | | | |

8. Bu dərsdə nələri öyrəndim?

______________________________________________

9. Bu dərs müddətində ən yaxşı gördüyüm işlər:

______________________________________________

**ŞƏRHLƏR:**______________________________________

# 28 Müzəffər Ali Baş Komandan

**Standart:**

4.1.1. Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətləri *(İranzu, Cavanşir, Şəmsəddin Eldəniz, Uzun Həsən, Sara xatun, Şah I İsmayıl, Cavad xan, Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Heydər Əliyev, İlham Əliyev və b.)* müəyyən edir.

**Təlim məqsədi.** İlham Əliyevin Azərbaycan tarixində mühüm rol oynamış şəxsiyyətlərdən biri olduğunu müəyyən edir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, üç cümlə

**Dərsin gedişi**

**Motivasiya.** Müəllim planlaşdırdığı dərsə uyğun olaraq motivasiya qura bilər.

**Tədqiqat sualı.** Ulu öndərin davamçısı etimadı necə doğrultdu?

**Tədqiqatın aparılması.** Tədqiqatı fəal təlimin müxtəlif üsullarından istifadə etməklə həyata keçirmək olar. Üç cümlə üsulu ilə keçilən dərs zamanı verilmiş tapşırığı şagirdlərə əsaslandırılmış şəkildə, daha qısa həcmdə təqdim etmək tapşırılır. Sonra onlara növbəti tövsiyələr xatırladılır: hansı qrup hekayəni daha qısa və məzmunlu yazıbsa, o qalib gəlir. Bu zaman məzmun əsas götürülür.

Qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqlar verilə bilər:

**I qrup**

İlham Əliyevin prezident seçilənə qədərki fəaliyyətini müəyyən edin və dəyərləndirin.

________________________________________

________________________________________

**II qrup**

İlham Əliyevin prezident seçiləndən sonra gördüyü işləri müəyyən edin və dəyərləndirin.

________________________________________

________________________________________

____________________________________

**III qrup**

İlham Əliyevin ordu quruculuğu sahəsindəki fəaliyyətini müəyyənləşdirin.

________________________________________

________________________________________

**IV qrup**

İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi fəaliyyətini müəyyən edin.

________________________________________

________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra dərsin **mübadilə və müzakirə** mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim etməlidirlər. Cavablar diqqətlə dinlənilir, onların müzakirə olunmasına, əlavələr edilməsinə şərait yaradılır. Müzakirələrdə sinfin bütün şagirdlərinin iştirakı təmin edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Aparılan araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə şagirdlərə yönləndirici suallar verilə bilər. Bu da, öz növbəsində, tədqiqat sualına cavab tapmağa kömək etmiş olar.

**Yaradıcı tətbiqetmə.** Dərsin bu mərhələsində şagirdlərə Müzəffər Ali Baş Komandan adlı təqdimat hazırlanması tapşırıla bilər.

**Qiymətləndirmə meyarları:** müəyyən etmə

Dərsin bu son mərhələsində yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəyyənləşdirilən səviyyələr üzrə şagirdlər qiymətləndirilə bilər.

Qrupları qiymətləndirən zaman aşağıdakı qrup qiymətləndirmə vərəqindən də yararlanmaq olar.

**Qrup özünüqiymətləndirmə vərəqi**

Qrupun iş ovqatı necə idi? (Bunu rənglə ifadə etmək olar.)

______________________________

Problemin həllində hamı fəallıq göstərə və öz töhfəsini verə bildimi?

______________________________

Kimlər passiv, kimlər fəal oldu?

______________________________

Qrupun fəaliyyəti hamını təmin etdimi?

______________________________

Qrup öz vəzifəsinin öhdəsindən gələ bildimi? Nə dərəcədə?

# 29 Böyük Zəfərin ilk qaranquşu– Aprel döyüşləri

**Qeyd.** Dərsin tədrisinə iki saat ayrılmışdır. Mövcud paraqraf dərsliyin 130–134-cü səhifələrini əhatə edir.

– *Birinci tədris saatı 130-cu səhifədən 133-cü səhifədəki "Tarix yazan qəhrəmanlar" yarımbaşlığına qədərki məlumatların mənimsənilməsinə hesablanmışdır.*

– *İkinci tədris saatı isə 133–134-cü səhifələri əhatə edən "Tarix yazan qəhrəmanlar" yarımbaşlığının tədqiqi üçün nəzərdə tutulmuşdur.*

Əvvəlki icmallarda qeyd edildiyi kimi, bu bölgü mütləq deyil. Mövcud bölgünü dəyişə və yeni bölgü forması yaratmaq olar .

**Standart:** 3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədi.** Dövlətin ərazi bütövlüyünün və xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim formaları:** böyük qruplar, fərdi

**Təlim üsulları:** beyin həmləsi, ikihissəli gündəlik

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün şagirdlərə İkinci Qarabağ müharibəsi zamanı xüsusi təyinatlılarımızın döyüş əməliyyatlarını özündə əks etdirən 2-3 dəqiqəlik film göstərmək və kadra uyğun suallar ünvanlamaq olar. Daha sonra şagirdlərin diqqəti Böyük Zəfərin ilk qaranquşu – Aprel döyüşlərinə cəmlənir.

Əgər texniki imkanlar yoxdursa, onda şagirdlərə Birinci Qarabağ müharibəsinin atəşkəs sazişi ilə müvəqqəti dayandırıldığı və ermənilər tərəfindən tez-tez atəşkəsin pozulduğuna dair qısa izah verilərək onları dərsə motivə etmək olar.

**Tədqiqat sualı.** Aprel döyüşləri zamanı ərazi bütövlüyümüz necə qorundu?

**Tədqiqatın aparılması.** Tədqiqatın "iki hissəli gündəlik texnikası" üsulunun köməyi ilə aparılması məqsədəmüvafiqdir. Mətni oxuya-oxuya gündəlikdə müvafiq qeydlər aparılır. Mövzunun oxunması, qeydlərin aparılması başa çatdıqdan sonra yenidən mətnə müraciət edilə, qeydlər zənginləşdirilə bilər.

Təbii ki, müəllim dərs prosesində nəzərdə tutduğu şagirdlərin qeydlərini səsləndirməsini istəməli və sinfin digər şagirdlərinin bu müzakirələrə qoşulmasını təmin etməlidir. Dərsin daha maraqlı, canlı, nəticəyönümlü keçməsi üçün yaxşı olardı ki, mövzunu hissələrə bölüb, hər hissənin oxunması üçün şagirdlərə vaxt verilsin və verilən vaxt bitəndən sonra onun müzakirəsi aparılsın. Müzakirə apararkən şagirdlərə aşağıdakı suallar da verilə bilər:

– *Mövzunu oxuyarkən nə hiss etdiniz?*

– *Mövzunu oxuduqdan sonra nə haqqında fikirləşdiniz?*

– *Xoşunuza gəlib-gəlməməyi necə əsaslandırarsınız?*

Beləliklə, dərsin tədqiqatın aparılması mərhələsi ilə yanaşı, **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də yekunlaşmış olur. Şagirdlər çıxışlarını bitirdikdən sonra müəllim fikirlərini ifadə edib dərsin növbəti mərhələsinə keçid edir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin kulminasiyasını bilgiləri məhz özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir. Bunun üçün müəllim dərsin tədqiqat mərhələsinə yekun vurmalı, daha doğrusu, əldə edilən bilik və bacarıqları ümumiləşdirməli və tədqiqat sualına cavablandırılmalıdır. Aşağıdakı sual və tapşırıqlardan istifadə etmək olar:

– *Sizcə, yüksəkliklərin hansı əhəmiyyəti var?*
– *Talış kəndi yüksəklikləri uğrunda döyüşlərin hansı nəticələri oldu?*
– *Təhlükəsizliyin təmin edilməsi dedikdə nə başa düşürsünüz?*
– *Lələtəpə döyüşləri sizdə hansı təəssüratı oyatdı?*

**Ev tapşırığı.** Növbəti dərsdə şagirdlərə Aprel döyüşlərində igidlik göstərən qəhrəmanlar haqqında (əgər varsa, öz ailəsi nümunəsində) kiçikhəcmli tarixi hekayə qurulması tapşırığının veriləcəyini nəzərə alaraq şagirdlərə Qarabağ müharibələrinin iştirakçısı olan qohumlardan, yaxınlardan, qonşulardan və ya tanıdıqlarından müsahibə götürməyi və bu müsahibəni qeydə almağı tapşırmaq olar.

**Qiymətləndirmə meyarı:** dəyərləndirmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bu mərhələ zamanı müəllim müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilər. Bu mərhələdə yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəllim müəyyənləşdirilən səviyyələr üzrə şagirdləri qiymətləndirə bilər.

Dərsin sonunda şagirdlərə aşağıdakı formada özünüqiymətləndirmə vərəqi verilə bilər.

**Özünüqiymətləndirmə vərəqi**

**Adı və soyadı** ________________________________

**Təlimat.** *Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

| Meyarlar | Qiymət |
|---|---|
| 1. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | |
| 2. Çalışmalarımı bitirdim. | |
| 3. Təlimata əməl etdim. | |
| 4. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | |
| 5. Anlamadığım məsələyə aid sual verdim. | |
| 6. İki hissəli gündəlik texnikası üsuluna uyğun cədvəl qurmağı bacardım. | |
| 7. Cədvəl üzrə müvafiq qeydlər etdim. | |

**ŞƏRHLƏR:**

________________________________

________________________________

# 29 Böyük Zəfərin ilk qaranquşu– Aprel döyüşləri

**Standartlar:**

1.3.1. İnsanların həyat tərzindəki dəyişiklikləri öz ailəsi nümunəsində təsvir edir.
3.1.3. Kiçikhəcmli tarixi hekayə qurur.

**Təlim məqsədləri:**

1. Aprel döyüşləri qəhrəmanlarını öz ailəsi nümunəsində təsvir edir.
2. Aprel döyüşləri qəhrəmanlarına dair kiçikhəcmli tarixi hekayə qurur.

**Təlim forması:** fərdi iş

**Təlim üsulu:** hekayə yazmaq

**Dərsin gedişi**

**Motivasiya.** planlaşdırılan dərsə uyğun olaraq qurula bilər.
**Tədqiqat sualı.** Qəhrəmanlıq nədir?

**Tədqiqatın aparılması.** Tədqiqatın fərdi iş formasında aparılması tövsiyə edilir. Bu zaman şagirdlərə hekayə qurmaq üçün aşağıdakı tapşırıqlar verilə bilər.

– *“Ordun varsa, yurdun var” adlı kiçik hekayə hazırlayın.*
– *Aprel döyüşləri qəhrəmanlarından olan Murad Mirzəyev haqqında öz ailəsi nümunəsində kiçikhəcmli tarixi hekayə qurun.*
– *Aprel döyüşləri qəhrəmanlarından olan Samid İmanov haqqında öz ailəsi nümunəsində kiçikhəcmli tarixi hekayə qurun.*
– *Aprel döyüşləri qəhrəmanlarından olan Sərxan Bayramov haqqında öz ailəsi nümunəsində kiçikhəcmli tarixi hekayə qurun.*
– *Aprel döyüşləri qəhrəmanlarından olan Raquf Orucov haqqında öz ailəsi nümunəsində kiçikhəcmli tarixi hekayə qurun.*
– *Aprel döyüşüləri qəhrəmanlarından olan Pəncəli Teymurov haqqında öz ailəsi nümunəsində kiçikhəcmli tarixi hekayə qurun.*
– *Aprel döyüşüləri qəhrəmanlarından olan Elmidar Səfərov haqqında öz ailəsi nümunəsində kiçikhəcmli tarixi hekayə qurun.*
– *Aprel döyüşləri qəhrəmanlarından olan Şükür Həmidov haqqında öz ailəsi nümunəsində kiçikhəcmli tarixi hekayə qurun.*

**Qeyd.** Əvvəlki dərsdə şagirdlərə Qarabağ müharibələrinin iştirakçısı olan qohumlardan, yaxınlardan, qonşulardan və ya tanıdıqlarından müsahibə götürmək və bu müsahibəni qeydə almaq tapşırığı verilmişdi. Bunu nəzərə alaraq onlara hekayə yazan zaman əldə etdikləri məlumatlardan da istifadə etməyə icazə verilir. Tapşırıqların çox olduğunu nəzərə alaraq yanaşı oturan şagirdlərə fərqli tapşırıqlar vermək məqsədəmüvafiqdir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Hekayə qurmaq üçün ayırdığınız vaxt bitdikdən sonra şagirdlərə yazdıqları hekayəni səsləndirmələrinə şərait yaradılır. Vaxtın məhdud oldu-

ğunu nəzərə alaraq hər mövzu üzrə 1-2 hekayə sinifdə səsləndirilsə, yaxşı olardı. Lakin şagirdlərin yazdıqları digər hekayələr növbəti dərs üçün oxunur, qiymətləndirilib nəticələri ilə şagirdlər tanış edilir. Hər mövzu üzrə hekayələr oxunduqdan sonra müzakirələr təşkil edib lazımi əlavələr olunur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlərin yazdıqları hekayələr dinlənildikdən sonra, əslində, tədqiqat sualına – "Qəhrəmanlıq səhifəsi necə yazılır?" sualına cavab tapılmış olar. Təbii ki, bu zaman da şagirdlərin yazdıqlarından çıxış edərək dərsi ümumiləşdirmək olar.

**Yaradıcı tətbiqetmə.** Şagirdlərə Azərbaycan tarixində mühüm rol oynamış tarixi şəxsiyyətlər, qəhrəmanlarla bağlı 5-6 sözdən ibarət krosvord qurulmasını təklif etmək olar.

**Qiymətləndirmə meyarları:** təsvir etmə, hekayə qurma

Formativ qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə, bu mərhələ zamanı siz müxtəlif suallar verməklə də təlim prosesində şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirə bilərsiniz. Qiymətləndirmə zamanı şagirdlər yuxarıdakı meyarlara uyğun olaraq səviyyələr üzrə qiymətləndirilməlidir.

Dərsin əsas hissəsinin fərdi iş formasında keçdiyini nəzərə alaraq şagirdlərə aşağıdakı formaya uyğun özünüqiymətləndirmə vərəqi verilə bilər.

**Adı və soyadı** ________________________________

*Bu anket özünüqiymətləndirmə məqsədilə hazırlanmışdır. Gördüyünüz işləri ən düzgün formada ifadə edən seçimi işarələyin (+).*

| Meyarlar | Dərəcələr | | |
|---|---|---|---|
| | həmişə | bəzən | heç vaxt |
| 1. Müəllimin izahlarını və məsləhətlərini dinlədim. | | | |
| 2. Təlimata əməl etdim. | | | |
| 3. Çalışmalarımı bitirdim. | | | |
| 4. Anlamadığım məsələyə aid sual verdim. | | | |
| 5. Tapşırığı yerinə yetirərkən vaxtdan düzgün istifadə etdim. | | | |
| 6. Tapşırığı yerinə yetirmək üçün müxtəlif materiallardan istifadə etdim. | | | |

**ŞƏRHLƏR:**

________________________________________________

________________________________________________

# 30 Qanı ilə tarix yazan qəhrəmanlar

**Standart:** 4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.

**Təlim məqsədi.** Milli qəhrəmanlar haqqında təqdimatlar hazırlayır.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** anlayışın çıxarılması, təqdimat

**Dərsin gedişi**

**Motivasiya.** Motivasiya qurmaq üçün anlayışın çıxarılması üsulundan istifadə edilə bilər. Bunun üçün lövhədə sizə aşağıda təqdim etdiyimiz formaya uyğun SmartArt qurmaq təklif edilir.




**Tədqiqat sualı.** İgidlərimiz Milli Qəhrəmanlığa necə yüksəldilər?

**Tədqiqatın aparılması.** Təqdimat etmə üsulunun köməyi ilə dərsin tədqiqatın aparılması mərhələsi həyata keçirilə bilər. Təqdimat etmə fəal təlim üsulları ilə aparılan dərslərin mühüm elementlərindən biridir. Bu zaman şagirdlər tədqiqat fəaliyyətinin nəticələrini təqdim edirlər. Təqdimat şifahi, yazılı, vizual, rollar üzrə oyun və s. formalarda ola bilər. Şagirdlər təqdimatı fərdi şəkildə və ya qrup halında edə bilərlər. Müəllim bu dərsdə şagirdlərə təqdimatın növünü, onun keçirilmə şəraiti və şərtlərini elan edə bilər.

Ünsiyyətin ən vacib xüsusiyyətlərindən biri şagirdin öz fikirlərini dəqiq və aydın ifadə edə bilməsidir. Yaxşı təşkil edilmiş təqdimat onun növündən asılı olmayaraq, şagirdlərin biliklərinin və əqli vərdişlərinin yüksək səviyyəsini göstərir.

Təlim üsuluna uyğun olaraq qruplara aşağıdakı tapşırıqlar verilə bilər. Tədris materialına uyğun olaraq iki qrupa eyni tapşırığın verilməsi nəzərdə tutulsa da, bunun özü eyni problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmanı təmin edir.

**I qrup**
Milli Qəhrəman Natiq Qasımov haqqında təqdimat hazırlayın.

**II qrup**
Milli Qəhrəman Mübariz İbrahimov haqqında təqdimat hazırlayın.

**III qrup**
Milli Qəhrəman Natiq Qasımov haqqında təqdimat hazırlayın.

**IV qrup**
Milli Qəhrəman Mübariz İbrahimov haqqında təqdimat hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutduğunuz vaxt bitdikdən sonra hər bir qrupun təqdimatını etməsi təşkil edilir. Yaxşı olar ki, eyni mövzu üzərində işləyən qrupların təqdimatı paralel şəkildə həyata keçirilsin. Bu zaman şagirdlərin eyni hadisəyə hansı nöqteyi-nəzərdən yanaşdıqları digər şagirdlərə də tam aydın olar. Müzakirələr zamanı digər qrup üzvləri suallar verməyə, əlavələr etməyə təşviq edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılmasına müəllimin verdiyi suallar da kömək edər. Bunun üçün aşağıdakı sual və tapşırıqlardan istifadə edilə bilər.

– *Sizcə, qəhrəmanlarda hansı xüsusiyyətlər olmalıdır?*
– *Sizcə, təkbaşına düşmən üzərinə getmək üçün insanda hansı xüsusiyyətlər olmalıdır?*

**Ev tapşırığı.** Natiq Qasımov haqqında çəkilmiş "Oğul" filminə baxmaq və müzakirələr aparmaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** təqdimatlar hazırlama

Yuxarıda verilmiş meyarlar əsasında, dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir. Unutmayın ki, qiymətləndirmə zamanı şagirdlərin informasiyanı yadda saxladığı yox, bu informasiyanı anlamaq səviyyəsi və hər hansı problemin həll edilməsi zamanı həmin bilikdən istifadə etmək bacarığı daha çox nəzərə alınmalıdır.

Dərsin sonunda şagirdləri aşağıdakı formaya uyğun **Qrup təqdimatının qiymətləndirilməsi vərəqi** ilə qiymətləndirmək olar.

**Təlimat.** *Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

### Qrup təqdimatının qiymətləndirilməsi vərəqi

| Meyarlar | I qrup | I qrup | I qrup | I qrup |
|---|---|---|---|---|
| Mövzu açıqlanıbmı? | | | | |
| Reqlamentə riayət olundumu? | | | | |
| Çıxış savadlı idimi (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü)? | | | | |
| Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu? | | | | |
| Təqdimat nə dərəcədə mükəmməl hazırlanmışdı? | | | | |
| Təqdimatda illüstrasiyalardan istifadə edildimi? | | | | |
| Məlumat üçün material nə qədər keyfiyyətli seçilib? | | | | |
| Nəticə çıxarılıbmı? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | | |

# 31 Vətən müharibəsi

**Qeyd.** Paraqrafın tədrisinə iki saat vaxt ayrılmışdır. Birinci saatın dərslikdəki material əsasında keçirilməsi nəzərdə tutulmuşdur. İkinci saatda isə dərslikdəki materiallardan savayı, şagirdlərə 1.2.2. standartının tələblərinə uyğun olaraq illüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək təqdimat hazırlamaq tapşırığı verilə bilər.

**Standart:** 3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.
**Təlim məqsədi.** Ərazilərimizin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim formaları:** böyük və kiçik qruplarla iş

**Təlim üsulları:** söz assosiasiyası, mətnə əsasən cədvəlin doldurulması
**Dərsin gedişi**
**Motivasiya.** Mövcud dərsə motivasiyanı “söz assosiasiyası” üsulundan istifadə etməklə qurmaq olar. Bunun üçün lövhədə “Qayıdış”, “Şuşa əməliyyatı”, “PUA”, “2020-ci il 27 sentyabr”, “Ali Baş Komandan” və s. sözləri yazılır və şagirdlərə aşagıdakı suallar verilir:

– *Bu sözlər sizə nə deyir?*
– *Gördüyünüz sözləri hansı hadisəyə aid etmək olar?*
– *Bu sözləri birləşdirən ümumi cəhətlər hansılardır?*

Alınan cavabları ümumiləşdirib şagirdlərin diqqətini tədqiqat sualına yönəltmək vacibdir.

Dərsin motivasiyasını paraqrafın əvvəlində verilmiş giriş hissəni şagirdlərə oxumaqla da qurmaq olar.

**Tədqiqat sualı.** Ərazilərimiz düşmən tapdağından necə azad edildi?
**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasından və *mətnə əsasən cədvəlin doldurulması* üsulundan istifadə edilməklə aparılması məqsədəmüvafiqdir. Cədvəllər mətnin əsas ideyasını aşkar etməyə imkan verər. Mətnlə işləyən zaman bir neçə növ cədvəldən istifadə oluna bilər: sadalanan obyektlərin, anlayışların, təriflərin cədvəlin müvafiq sütunlarına yerləşdirilməsi, müqayisə olunan obyektlərdə (qruplarda) müəyyən əlamətlərin olub-olmaması, göstərilən alqoritmlə qismən doldurulmuş cədvəli bitirmək və s. Bu və ya digər proseslər haqqında məlumatlar olan mətnlə işlədikdə işin gedişi boyunca “Nə? Harada? Nə zaman? Hansı səbəbdən?” cədvəlini doldurmaq olar.

Adından göründüyü kimi, bu üsuldan istifadə zamanı şagirdlər onlara təqdim edilən mətnə əsasən cədvəli tamamlamalıdırlar. Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları vermək olar:

**I qrup**
**Mətnə əsasən cədvəli doldurun.**

| Döyüşdə azad edilən məntəqələr | Ələ keçirilən qənimətlər | Qeyd |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |

**II qrup**
**Mətnə əsasən cədvəli doldurun.**

| Nə? | Harada? | Nə zaman? | Hansı səbəbdən? |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |

**III qrup**
**Mətnə əsasən cədvəli doldurun.**

| Döyüşdə azad edilən məntəqələr | Necə azad edildi | Qeyd |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |

**IV qrup**
**Mətnə əsasən cədvəli doldurun.**

| Vətən müharibəsinin başlanma səbəbləri | Vətən müharibəsindəki qələbənin səbəbləri | Qələbənin nəticələri |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplarla iş üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif yanaşmalarla, nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

– *Sizcə, qələbə qazanmaq üçün nələr lazımdır?*

– *"Qarabağ Azərbaycandır" ifadəsini necə dəyərləndirərdiniz?*

*– Dövlətimiz işğal altında olan ərazilərimizi geri qaytarmaq üçün hansı addımı atdı?*

**Yaradıcı tətbiqetmə.** Hərbi əməliyyatlarla, eləcə də saziş əsasında işğaldan azad edilən ərazilərimizi fərqli rənglərdən istifadə etməklə kontur xəritədə işarələmək tapşırıla bilər.

**Ev tapşırığı.** Növbəti dərsdə şagirdlərə Xüsusi Təyinatlılarımız, Şuşa əməliyyatı, Horadiz istiqamətində əks-hücum əməliyyatı, Vətən müharibəsində PUA-ların rolu, saziş əsasında rayonlarımızın azad edilməsi, Xalq-Ali Baş Komandan-Ordu birliyi mövzuları haqqında məlumat toplayaraq təqdimat hazırlamaqları tapşırılır. Onlara toplanan məlumatların illüstrasiya, şəkil və sənədli materiallardan ibarət olması bildirilir.

Yaxşı olar ki, sinif kiçik qruplara bölünsün, hər qrupa axtarış üçün bir mövzu verilsin və onlara "gələn dərs hər bir qrup topladığı məlumatlar üzərində işləyər" elanı verilsin.

**Qiymətləndirmə meyarı:** dəyərləndirmə

Əvvəlcədən nəzərdə tutulmuş şagirdləri dərsin sonunda yuxarıda verilmiş meyar nəzərə alınmaqla müəyyənləşdirdiyiniz səviyyələr üzrə qiymətləndirmək olar.

Vaxt qalarsa, şagirdlərə aşağıdakı formada qrup qiymətləndirmə vərəqi verilə bilər.

**Qrupun adı** ____________________

**Təlimat.** Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.

| **Meyarlar** | **Səviyyələr** | | | | |
|---|---|---|---|---|---|
| | **heç vaxt** | **nadir hallarda** | **bəzən** | **tez-tez** | **həmişə** |
| Qrup üzvlərinin hər biri tapşırıqlarda iştirak edir. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparırlarmı. | | | | | |
| Qrup üzvləri qərarlarını bir-biri ilə bölüşür. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər. | | | | | |

Şərhlər:

___________________________________________________________

# 31 Vətən müharibəsi

**Standart:** 1.2.2. İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək tarixi tədqiqat aparır.

**Təlim məqsədi.** İllüstrasiya, şəkil və sənədli materiallardan istifadə edərək Vətən müharibəsinə dair tədqiqat aparır.

**Təlim forması:** kiçik qruplar

**Təlim üsulu:** təqdimat

**Dərsin gedişi**

**Tədqiqat sualı.** Vətən müharibəsində qələbə necə qazanıldı?

**Tədqiqatın aparılması.** Vətən müharibəsi dərsinin ikinci saatını təqdimat etmə üsulunun köməyi ilə həyata keçirmək məqsədəmüvafiqdir. Bu zaman şagirdlər tədqiqat fəaliyyətinin nəticələrini təqdim edirlər. Təqdimat şifahi, yazılı, vizual, rollar üzrə oyun və s. formalarda ola bilər. Şagirdlərə təqdimatı kiçik qruplar şəklində hazırlamaq tapşırılır. Müəllim bu dərsdə şagirdlərə təqdimatın növünü və onun keçirilmə şəraiti və şərtlərini elan edir.

Şagirdlər əvvəlki dərslərdən təqdimat etmə üsulu ilə tanış olduqlarından onlar lazımi tapşırıqları alandan sonra təqdimat hazırlamağı bacararlar. Əvvəlki dərsdə verilən ev tapşırıqlarına uyğun olaraq kiçik qruplara aşağıdakı tapşırıqlar verilə bilər.

– *Ordumuzun Xüsusi Təyinatlılarının Vətən müharibəsində göstərdiyi igidlikləri.*
– *Şuşa əməliyyatı.*
– *Horadiz (Füzuli) istiqamətində əks-hücum əməliyyatı.*
– *Vətən müharibəsində qazanılan qələbədə PUA-ların rolu.*
– *İşğalçı Ermənistanın imzaladığı təslimçi saziş əsasında rayonlarımızın azad edilməsi.*
– *Xalq–Ali Baş Komandan–Ordu birliyi.*

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqatın aparılması mərhələsi üçün nəzərdə tutulan vaxt bitdikdən sonra hər bir qrupun təqdimatını etməsi təşkil edilir. Bu zaman digər qruplar öz təqdimatlarını sinfin diqqətinə çatdırır. Qarşıya qoyulan məqsədə çatmaq üçün müzakirələr zamanı digər qrup üzvlərinin suallar verməsinə, əlavələr etməsinə şərait yaradılır.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Bu proses zamanı şagirdlər nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Bu zaman müəllimin verdiyi suallar da onlara kömək edəcək.

**Qiymətləndirmə meyarı:** tədqiqat aparma

Yuxarıda verilmiş meyar əsasında, dərs izləməsi nəticəsində şagirdlərin qiymətləndirilməsi həyata keçirilir.

Dərsin sonunda şagirdləri aşağıdakı formaya uyğun **Qrup təqdimatının qiymətləndirilməsi vərəqi** ilə qiymətləndirmək olar.

*Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir.*

**Qrup təqdimatının qiymətləndirmə cədvəli**

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Mövzu açıqlanıbmı? | | | | |
| Reqlamentə riayət olundumu? | | | | |
| Çıxış savadlı idimi (terminlərin səsləndirilməsi, vurğuların düzgünlüyü)? | | | | |
| Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu? | | | | |
| Təqdimat nə dərəcədə mükəmməl hazırlanmışdı? | | | | |
| Təqdimat zamanı illüstrasiya və şəkillərdən istifadə edildimi? | | | | |
| Məlumat üçün material nə qədər keyfiyyətli seçilib? | | | | |
| Nəticə çıxarılıbmı? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | | |
| Tarixi tədqiqat aparılıbmı? | | | | |

# 32 Qarabağda quruculuq

**Standartlar:**
2.1.2. Xəritələrdə Azərbaycan ərazisini və mühüm tarixi abidələri müəyyənləşdirir.
3.1.2. Xalqın mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim məqsədləri:**

1. Xəritə əsasında Qarabağda quruculuq işləri aparılan əraziləri müəyyənləşdirir.
2. Məcburi köçkünlərin mənafeyinin qorunmasında dövlətin rolunu dəyərləndirir.

**Təlim formaları:** böyük və kiçik qruplar
**Təlim üsulları:** beyin həmləsi, üç cümlə
**Dərsin gedişi**

**Motivasiya.** PowerPoint proqramının köməyi ilə şagirdlərə 2-3 slaydda Qarabağda düşmənlər tərəfindən dağıdılmış kənd və şəhərlərin şəkilləri, növbəti 2-3 slaydda isə işğaldan azad edilmiş Qarabağda aparılan quruculuq işlərini özündə əks etdirən şəkillər göstərilir. Daha sonra isə bu slaydlarda göstərilənlərlə bağlı şagirdlərə suallar verilir.

Əgər texniki imkanlarınız yoxdursa, onda şagirdlərin diqqətini dərsliyin 143 və 145-ci səhifələrində verilmiş şəkillər üzərində cəmləmək olar.

Şagirdlərə ünvanlanan suallara aldığınız cavabları müzakirə edib dərsin növbəti mərhələsinə keçid edin.

**Tədqiqat sualı.** Qarabağda aparılan quruculuğun əhəmiyyəti nədir?

**Tədqiqatın aparılması.** Tədqiqatın kiçik qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman fəal təlimin “üç cümlə” üsulundan istifadə edilə bilər.

“Üç cümlə” üsulu ilə keçiləcək dərsin qaydaları şagirdlərə izah edildikdən sonra qruplara tədqiqat üçün aşağıdakı tapşırıqlar verilə bilər.

**I qrup**
İşğaldan azad edilən şəhər, kənd və qəsəbələrdə vəziyyəti şərh edin.

________________________________________

________________________________________

**II qrup**
Prezident İlham Əliyevin çıxışını dəyərləndirin.

________________________________________

________________________________________

**III qrup**
Dağıdılmış ərazilərin bərpa edilməsi üçün dövlət proqramı və bu proqrama uyğun görüləcək işləri dəyərləndirin.

________________________________________

________________________________________

**IV qrup**

Ağalıda aparılan quruculuq işlərini dəyərləndirin.

______________________________________________________________________________

______________________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra **mübadilə və müzakirə** mərhələsi həyata keçirilir. Bu mərhələdə müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin bu mərhələsində şagirdlər əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Lazımi nəticəyə gəlmək üçün aşağıdakı suallardan istifadə etmək olar.

– *Sizcə, nə üçün erməni millətçiləri işğal etdikləri Azərbaycan torpaqlarında xalqımıza məxsus abidələri dağıdır, hər yerdən izlərimizi silməyə çalışırdılar?*

– *Qarabağda aparılan quruculuq işlərini məcburi köçkünlərin mənafeyinin qorunması kimi dəyərləndirə bilərikmi? Fikrinizi əsaslandırın.*

**Yaradıcı tətbiqetmə.** Xəritə əsasında Qarabağda quruculuq işləri aparılan əraziləri müəyyənləşdirmək tapşırıla bilər.

**Ev tapşırığı.** Füzuli şəhərinin yenidən qurulmasına dair təqdimat hazırlamağı tapşırmaq olar.

**Qiymətləndirmə meyarları:** müəyyənləşdirmə, dəyərləndirmə

Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bununla belə bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyi dəqiqləşdirilə bilər. Qrup təqdimatını aşağıdakı meyarlara uyğun qiymətləndirmək olar.

**Qrup təqdimatının qiymətləndirmə vərəqi**

| Qruplar | Mübadilədən düzgün istifadə | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

# 33 “Kitabi-Dədə Qorqud”

**Standartlar:**

5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir.
5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.

**Təlim məqsədləri:**

1. “Kitabi-Dədə Qorqud” dastanının əhəmiyyətini izah edir.
2. “Kitabi-Dədə Qorqud” dastanındakı milli-mənəvi dəyərləri fərqləndirir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, iş vərəqləri

**Dərsin gedişi**

**Motivasiya.** Şagirdlərə “Dədə Qorqud” filmindən bir kadr göstərməklə mövcud dərsə motivasiya qurmaq olar. Onlara göstərilən kadrlara aid suallar vermək də vacibdir. Suallar düşündürücü olub şagirdlərdən lazımi cavabı almağa kömək etməlidir. Bununla da çətinlik çəkmədən dərsin motivasiyasını qurmaq və tədqiqat sualını vermək olar.
**Tədqiqat sualı.** “Kitabi-Dədə Qorqud” dastanında milli-mənəvi dəyərlər necə əks olunub?
**Tədqiqatın aparılması.** Mövcud dərsin tədqiqatın aparılması mərhələsinin kiçik qruplarla iş formasında, yuxarıda adını çəkdiyimiz dərs üsulunun köməyi ilə aparılması tövsiyə edilir. Bu zaman qruplara tədqiqat üçün aşağıdakı sual və tapşırıqlar verilə bilər.

**I qrup**
Dədə Qorqudun kimliyini və “Kitabi-Dədə Qorqud” dastanının yaranma tarixini izah edin.

______________________________________________

__________________________________________

**II qrup**
Dastandakı Oğuz adətlərini fərqləndirin.

______________________________________________

__________________________________________

**III qrup**
Oğuzların həyatını şərh edin.

______________________________________________

__________________________________________

**IV qrup**

“Kitabi-Dədə Qorqud” dastanının əhəmiyyətini izah edin.

______________________________________________________________

__________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsinə başlanılır. Bu mərhələdə şagirdlərə tədqiqatın gedişində əldə etdikləri yenilikləri təqdim etməyə, yeni informasiyanın mübadiləsini aparmaq üçün müəyyən vaxt verilir və onların təqdimatları dinlənilir. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edəcək.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Araşdırmanın yekunlaşdırılması, yeni biliklərin ümumiləşdirilməsi, nəticə çıxarılması məqsədilə aparılan müzakirə şagirdləri ortaq mövqeyə gəlməyə, ümumi qənaətlərə istiqamətləndirəcək. Müzakirə zamanı söylənilən fikirlərin ümumiləşdirilməsi, dərsin əvvəlində söylənilmiş fərziyyələrlə müqayisə aparılması və tədqiqat sualı ilə bağlı nəticə çıxarılması üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət edilə bilər.

– *Bayat tayfasının Dərbənddə məskunlaşması nəyi sübut edir?*
– *Dədə Qorqudun şəxsiyyətini qiymətləndirin.*
– *Sizcə, el şənliklərinin əhəmiyyəti nə idi?*
– *Sizcə, oğuzların hansı adətləri bu gün də qorunub saxlanır?*
– *Oğuz türklərində vətən sevgisinin yüksək olmasını hansı faktlar sübut edir?*
– *Oğuz türklərində nə üçün əkinçilik və bağçılıq inkişaf etmişdi?*
– *“Kitabi-Dədə Qorqud” dastanının əhəmiyyətini nədə görürsünüz?*

**Yaradıcı tətbiqetmə. Mətnə əsasən cədvəli tamamlamaq tapşırıla bilər.**

| Oğuzların həyat tərzi | Oğuzlarda təsərrüfat | Oğuzların xüsusiyyətləri |
|---|---|---|
| | | |
| | | |

**Ev tapşırığı.** “Dədə Qorqud” filminə baxıb film əsasında esse yazmaq tapşırıla bilər.
**Qiymətləndirmə meyarları:** izahetmə, fərqləndirmə

Bu mərhələdə müəllim dərs ərzində apardığı qeydlər əsasında şagirdləri fərdi və qrup üzrə qiymətləndirə bilər. Şagirdlərin formativ qiymətləndirməsini yuxarıdakı meyarlar əsasında müəyyənləşdirilən səviyyələrə görə həyata keçirmək olar.

Dərsin sonunda qrup üzvlərindən qruplarının fəaliyyətini dəyərləndirmələri istənilə bilər.

**Qrup fəaliyyətinin qiymətləndirilməsi vərəqi**
**Qrupun adı** ____________________
**Sinif** ___________________

**Təlimat.** *Aşağıdakı meyarlara hansı səviyyədə əməl olunduğunu nəzərə alaraq qrupu qiymətləndirin.*

| Meyarlar | Səviyyələr | | | | |
|---|---|---|---|---|---|
| | heç vaxt | nadir hallarda | bəzən | tez-tez | həmişə |
| Qrup üzvlərinin hamısı fəaliyyətə qoşulur. | | | | | |
| Qrup üzvləri bir-birlərinin fikir və fəaliyyətinə hörmət edir. | | | | | |
| Qarşılıqlı şəkildə müzakirələr aparırlarmı. | | | | | |
| Qrup üzvləri iş bölgüsünə əməl edirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərinə etimad göstərirlər. | | | | | |
| Qrup üzvləri bir-birlərini cəsarətləndirir. | | | | | |
| Nəticələrin qrup üzvləri tərəfindən növbəli və ədalətli şəkildə təqdim olunmasına diqqət edirlər. | | | | | |
| Üzərində işlənilən mövzuda qrup üzvləri ortaq bir fikrə gəlir. | | | | | |
| Qrup üzvləri birlikdə işləməkdən zövq alırlar. | | | | | |

**Şərhlər:**

# 34 Nizami Gəncəvi

**Standart:** 5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.

**Təlim məqsədi.** Nizami Gəncəvi yaradıcılığını fərqləndirir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, ziqzaq, afişaların yaradılması

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərsə motivasiya qurmağın ən asan yolu şagirdlərə Nizami Gəncəvi yaradıcılığından 2-3 beyt səsləndirməkdir. Məsələn:

*"Bir inci saflığı varsa da suda,*
*Artıq içiləndə dərd verir o da".*

*"Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq palançılıqdan".*

Beytləri səsləndirdikdən sonra şagirdlərə aşağıdakı suallar verilir:

*– Bu beytlər haqqında nə bilirsiniz?*
*– Bu beytlər kimə məxsusdur?*

Verilən cavablar qaneedici olmasa, növbəti sualları verin:

*– Azərbaycanın hansı tanınmış şairlərini tanıyırsınız?*
*– Sizcə, səsləndirilən beytlər hansı dahi Azərbaycan şairinə aiddir?*

Cavablar dinlənildikdən sonra ümumiləşdirmə aparılır, şagirdlərin diqqətini yeni dərsə yönəldib dərsin tədqiqatın aparılması mərhələsinə keçid edilir.

**Tədqiqat sualı.** Nizami Gəncəvi yaradıcılığının üstünlükləri hansılardır?

**Tədqiqatın aparılması.** Tədqiqatın aparılmasını ziqzaq üsulu ilə həyata keçirmək tövsiyə edilir. Bu üsul mətnin məzmununun qısa müddət ərzində şagirdlər tərəfindən mənimsənilməsinə imkan yaradır. Bunun üçün şagirdlər dörd nəfərlik qruplara bölünür (əsas qrup). Qruplardakı şagirdlər nömrələnir. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır. Öyrəniləcək mətn qrupların sayı qədər hissələrə bölünüb ekspert qruplarına verilir. Ekspert qrupları onlara verilən hissəni oxumalı, məzmununu qavramalı və öz əvvəlki qrupuna qayıdaraq öyrəndiyi hissəni qrup yoldaşlarına danışmalıdır. Bunun ardınca qruplara aşağıdakı formada tapşırıqlar verilə bilər. Proses zamanı informasiyanın dəqiq verildiyinə əmin olmaq üçün suallar verilə bilər.

**I qrup**

Nizami Gəncəvinin həyatını şərh edin.

______________________________

______________________________

**II qrup**

Nizami Gəncəvi yaradıcılığını fərqləndirin.

______________________________

______________________________

**III qrup**
Farsca yazan türk şairini tanıdın.

**IV qrup**
Nizami Gəncəvinin beytlərini öz sözlərinizlə izah edin:

*"Səadət kamalla yetişir başa*
*Xalqa hörmət elə, ədəblə yaşa,*
*Öz adına layiq işlər gör ki, sən,*
*Axırda utanma xəcalətindən".*

*"Dünyada ədalətlə zəfər tapmışlar,*
*Zülm ilə bu dünyada zərər tapmışlar.*
*Hər yerdə paxıllıq hünəri danmışdır,*
*Mərdlər eyib örtüb hünər tapmışlar".*

**Məlumatın mübadiləsi və müzakirəsi.** Hazırlaşmaq üçün qruplara ayrılmış vaxt bitdikdən sonra hər biri öz təqdimatını edir. Bu zaman təqdimat ətrafında müzakirələrin aparılması üçün konkret vaxt ayrılır. Təqdimatlar edilərkən şagirdlərin yarımçıq işlədikləri tapşırıqların tamamlanması üçün digər qruplardan kömək istənilir. Bu zaman şagirdləri lazımi məcraya yönəltmək, suallar vermək lazım gələcək. Müzakirələr zamanı şagirdlərin də yerdən suallar verməsi təmin edilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması. Məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi qrup təqdimatları ilə bitdikdən sonra dərsi yekunlaşdırmaq üçün şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər:

– *Nizami Gəncəvi nə üçün müdrik şəxs hesab edilirdi?*
– *Nizami Gəncəvi "Həyatda faydalı bir elmi axtar" dedikdə nəyi nəzərdə tuturdu?*
– *Nizaminin insani keyfiyyətləri təbliğ etməkdə məqsədi nə idi?*
– *Nizami Gəncəvinin hansı xüsusiyyətini daha çox bəyənirsiniz?*
– *Şairin dünya şöhrəti qazanmasını hansı faktlar sübut edir?*

**Ev tapşırığı.** "Azadlığı sevən şair" adlı kiçik hekayə qurmaq tapşırıla bilər.

**Qiymətləndirmə meyarı:** fərqləndirmə

Formativ qiymətləndirməni daha yaxşı aparmaq üçün yuxarıdakı meyarı nəzərə almaq vacibdir. Bu məqsədlə qiymətləndiriləcək şagirdlər dərs boyu diqqətdə saxlanmalı və fəaliyyətləri izlənməlidir. Dərsin sonunda onları yuxarıda verilmiş meyar nəzərə alınmaqla əvvəlcədən müəyyənləşdirilən səviyyələr üzrə qiymətləndirmək olar.

Dərsin sonunda refleksiya üçün aşağıdakı formada suallardan istifadə edilə bilər:

– *Sizin üçün dərsin ən önəmli nəticəsi nə oldu?*
– *Sizə nə aydın olmadı?*
– *Yeni materialın öyrənilməsi sizə hansı təsiri bağışladı?*
– *Dərs əsnasında qarşıya qoyulan hədəfə çatdınızmı?*
– *Yeni mövzu üzərində necə işlədiniz?*
– *Dərsdə informasiya əldə etmənin hansı yeni metodunu öyrəndiniz? və s.*

# 35 Elmlə siyasət yürüdən alimlər

**Standart:.**

5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir.

**Təlim məqsədləri:**

1. Alimlərin xalq və dövlət üçün əhəmiyyətini izah edir.
2. Nəsirəddin Tusi və Fəzlullah Rəşidəddin haqqında sadə təqdimatlar hazırlayır.

**Təlim forması:** böyük qruplar

**Təlim üsulları:** beyin həmləsi, akvarium

**Dərsin gedişi**

**Motivasiya.** Mövcud dərsə motivasiya qurmaq üçün dərsliyin 150-ci səhifəsindəki ikinci abzası şagirdlərə oxuyub onlara aşağıdakı sualları vermək olar.

– *Sizə oxunan məlumatdan nə anlaşıldı?*

– *Dinlədiyiniz mətnə görə Nizami Gəncəvinin nə kimi işlə məşğul olduğunu demək olarmı? Fikrinizi əsaslandırın.*

Şagirdlərin verdiyi cavabları ümumiləşdirib tədqiqat sualını elan etmək olar.

**Tədqiqat sualı.** Alimlərimiz elmlə necə siyasət yürüdüblər?

**Tədqiqatın aparılması.** Tədqiqatın böyük qruplarla iş formasında aparılmasını tövsiyə edərdik. Bu zaman akvarium metodundan yararlanmaq olar. Akvarium dərs üsulunun qaydalarına uyğun olaraq sinif iki dairəyə – iç və çöl dairələrinə bölünür. İç dairəyə müəyyən vaxt müddətində müəyyən bir problemin müzakirəsi verilir, sonra dairədəki şagirdlər yerlərini dəyişib müzakirəni davam etdirir. Hər müzakirə bitəndən sonra çöl dairənin cavablarını almaq da şərtdir. Müzakirə üçün aşağıdakı tapşırıqlardan istifadə edilə bilər.

– *Nəsirəddin Tusinin xalq və dövlət üçün gördüyü əhəmiyyətli işləri şərh edin.*

– *Fəzlullah Rəşidəddinin xalq və dövlət üçün gördüyü əhəmiyyətli işləri şərh edin.*

“Akvarium”da iş zamanı, əslində, dərsin **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi də həyata keçirilmiş olur.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsin sonunda əldə olunan nəticələr müəyyən edilir və aşağıdakı suallar verilir:

– *Sizcə, dövlətin idarə edilməsində alimlərin fəaliyyətinin nə əhəmiyyəti ola bilər?*

– *“Rəb-i Rəşidi” mədrəsəsini hansı xüsusiyyətlərinə görə universitet adlandırmaq olar?*

– *“Elmlə siyasət yürüdən alimlər” ifadəsini necə başa düşürsünüz?*

**Yaradıcı tətbiqetmə.** 5-6 sözdən ibarət Azərbaycan mədəniyyətinə aid krosvord qurmağı şagirdlərə tapşırıq kimi vermək olar.

**Ev tapşırığı.** 5.1.3. standartını reallaşdırmaqdan ötrü şagirdlərə aşağıdakı mövzularda təqdimat hazırlanmasını tapşırmaq olar:

– *Nəsirəddin Tusi haqqında sadə təqdimatlar hazırlayın.*
– *Fəzlullah Rəşidəddin haqqında sadə təqdimatlar hazırlayın.*

**Qiymətləndirmə meyarları:** izahetmə, təqdimatlar hazırlama
Qiymətləndirmə müəllimin dərsi izləməsi nəticəsində baş verməlidir. Bu mərhələ zamanı müxtəlif suallar verməklə də təlim prosesində izlənmiş şagirdin hansı meyara cavab verdiyini dəqiqləşdirmək və müəyyən edilən səviyyələr üzrə qiymətləndirmək olar. İkinci meyar üzrə şagirdlərin qiymətləndirilməsi onların ev tapşırığı hazırlayıb təqdim etməsindən sonra mümkün olacaqdır.
Eləcə də hər bir şagirdin öz fəaliyyətini qiymətləndirməsini həyata keçirmək olar. Bunun üçün aşağıdakı cədvəldən istifadə etmək olar.

**Şagirdin adı və soyadı** ______________________________

| Dərsdə diqqətli idim. | Sual-cavabda aktiv idim. | Məntiqli yanaşmam var idi. | Əməkdaşlıq etdim. | Tapşırığı tam və düzgün yerinə yetirdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

# 36 Azərbaycan tarixinin atası

**Standart:**

5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir.

**Təlim məqsədi.**

Abbasqulu ağa Bakıxanovun elmi fəaliyyətini izah edir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, mətn üzərində iş

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyasının ən asan yolu əvvəlki dərsdə qazanılan bilgilər üzərində qurulmasıdır. Abbasqulu ağa Bakıxanovun çoxsahəli elmi biliyə yiyələnməsini və eləcədə dövlət işləri ilə məşğul olduğunu nəzərə alsaq, bu iki paraqraf arasında rabitəni rahat qurmaq olar. Şagirdlərdə dərsə maraq yaratmaq üçün mütləq qaydada suallar vermək vacib deyil.

**Tədqiqat sualı.** Abbasqulu ağa Bakıxanov yaradıcılığının hansı üstünlükləri var?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında mətn üzərində iş üsulu ilə dərsi qurmağınız məqsədəmüvafiq olardı. Bu zaman şagirdlər onlara verilmiş tapşırıqlara uyğun olaraq mətn üzərində işləməlidirlər.

Qruplara tədqiqat üçün aşağıdakı tapşırıqları və ya müəllimin məsləhət bildiyi digər tapşırıqları vermək olar.

**I qrup**

1. Mətni oxuyun. Boş buraxılmış yerləri doldurun.
2. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

Bakı xanları nəslindən olan Abbasqulu ağa Bakıxanov ________________ Bakıda anadan olmuşdur. O, Azərbaycan tarixini qədim keçmişdən başlayaraq ________________ qədər ardıcıllıqla yazan tarixçimizdir. Alimin ən böyük elmi əsəri __________________. Müəllif bu əsərini yazarkən müxtəlif mənbələrdən istifadə etmişdir. Əsər Azərbaycan və Dağıstan xalqlarının tarixinə aiddir. Burada Azərbaycanın ________________________ tutmuş 1813-cü ildə Azərbaycan torpaqlarının Rusiya ilə Qacarlar dövləti arasında bölüşdürülməsinə qədər olan hadisələrdən danışılır. “Gülüstani-İrəm” ____________________________ nəşr edilmişdir. Bu əsər qiymətli mənbələrdən biri hesab edilir.

**Cədvəli tamamlayın:**

| "TƏHZİBÜL-ƏXLAQ" ƏSƏRİNDƏ | |
|---|---|
| **Təbliğ edilən xüsusiyyətlər** | **Tənqid edilən xüsusiyyətlər** |
| əməyə rəğbət<br>dostluq<br>dostluqda sədaqətli olmaq<br>elm öyrənmək<br>bilik əldə etmək<br>• ____________________<br>• ____________________<br>• ____________________ | • tənbəllik<br>• paxıllıq<br>• nankorluq<br>• lovğalıq<br>• ________________<br>• ________________<br>• ________________ |

**II qrup**

1. Mətni oxuyun. Boş buraxılmış yerləri doldurun.
2. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

Dövrünün görkəmli maarifpərvər yazıçılarından olan A.Bakıxanov ____________________ ilə şeirlər də yazmışdır. Abbasqulu ağa Bakıxanovun dil, coğrafiya, tarix, astronomiya, məntiq, psixologiya və sair elmlərə aid əsərləri onun ________________ biliyə malik bir alim olduğunu göstərir. Ömrünün sonlarına yaxın __________________ səyahət etməyə çıxan Bakıxanov ____________ Mədinə ilə Məkkə arasındakı ərazidə vəfat edir, elə orada dəfn olunur. Onun haqqında sənədli-bədii film çəkilmiş, Bakının qəsəbələrindən birinə adı verilmişdir. Bakıxanov qəsəbəsində və Qubada ona heykəli qoyulmuşdur. Azərbaycan Elmlər Akademiyasının ____________________________ Abbasqulu ağa Bakıxanovun adını daşıyır.

**Cədvəli tamamlayın.**

| "TƏHZİBÜL-ƏXLAQ" ƏSƏRİNDƏ | |
|---|---|
| **Təbliğ edilən xüsusiyyətlər** | **Tənqid edilən xüsusiyyətlər** |

| | |
|---|---|
| • dostluq<br>• dostluqda sədaqətli olmaq<br>• böyüklərə hörmət<br>• vətənə və xalqa məhəbbət<br>• elm öyrənmək<br>• ________________<br>• ________________<br>• ________________ | • riya<br>• paxıllıq<br>• yalançılıq<br>• lovğalıq<br>• ________________<br>• ________________<br>• ________________ |

**III qrup**

1. Mətni oxuyun. Boş buraxılmış yerləri doldurun.
2. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələmlərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).
3. Mətnin hər hissəsinə ad qoyun.

A.Bakıxanov tariximizin atası hesab edilir. O, bəşəriyyətin keçmiş həyatını ____________ adlandırırdı. Hazırkı və gələcək həyatı ________________________, bu təcrübədən istifadə etməyi lazım bilir. Bakıxanov tarix elminin əvəzi olmayan ______________________ məktəbi adlandırır, onu "mənəvi elmlərin qiymətlisi" hesab edirdi. ______________________ əsəri coğrafiyaya aiddir. Əsərdə Amerikanın ________________________tərəfindən kəşf olunmasından və bu qitənin vəziyyətindən danışılır. Burada ozamankı Amerika ərazisində yaşayan qəbilələrin ənənə və mərasimlərindən, coğrafi və iqlim şəraitindən geniş bəhs edilir.

**Cədvəli tamamlayın.**

| **"TƏHZİBÜL-ƏXLAQ" ƏSƏRİNDƏ** | |
|---|---|
| **Təbliğ edilən xüsusiyyətlər** | **Tənqid edilən xüsusiyyətlər** |
| • əməyə rəğbət<br>• dostluqda sədaqətli olmaq<br>• böyüklərə hörmət<br>• yaxşı rəftar<br>• bilik əldə etmək<br>• ________________<br>• ________________<br>• ________________ | • tənbəllik<br>• nankorluq<br>• yalançılıq<br>• şöhrətpərəstlik<br>• ________________<br>• ________________<br>• ________________ |

**IV qrup**

1. Mətni oxuyun. Boş buraxılmış yerləri doldurun.
2. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun (bölgünü rəngli qələm-

lərin köməyi ilə etməyiniz məqsədəmüvafiq olardı).

3. Mətnin hər hissəsinə ad qoyun.

A.Bakıxanov ərəb və fars dillərini mükəmməl bilmiş, Tiflisdə, Qafqaz Baş Hərbi İdarəsində ________________ üzrə tərcüməçi vəzifəsində çalışmışdır. Tiflis mühiti, Avropa və rus ______________________ ilə görüş onun dünyagörüşünə müsbət təsir göstərmişdi. _______________________ əsərində əsas məqsəd gəncləri pis əməllərdən çəkindirmək, onlarda nəcib və gözəl ____________ normaları tərbiyələndirməkdir. A.Bakıxanov bir müəllimi kimi faydalı məsləhət və nəsihətləri ilə gəncləri düz yola dəvət edir, doğruluq, ədalət, mərdlik kimi keyfiyyətləri təbliğ edirdi. Uşaqlarda _________________________ yaranmasını təbliğ edən belə nəsihətlər bu gün də öz əhəmiyyətini itirməmişdir.

**Cədvəli tamamlayın.**

| "TƏHZİBÜL-ƏXLAQ" ƏSƏRİNDƏ | |
|---|---|
| **Təbliğ edilən xüsusiyyətlər** | **Tənqid edilən xüsusiyyətlər** |
| • əməyə rəğbət<br>• dostluq<br>• yaxşı rəftar<br>• elm öyrənmək<br>• bilik əldə etmək<br>• ________________<br>• ________________<br>• ________________ | • tənbəllik<br>• riya<br>• şöhrətpərəstlik<br>• lovğalıq<br>• ________________<br>• ________________<br>• ________________ |

Tədqiqatın aparılması mərhələsi üçün ayrılmış vaxt bitdikdən sonra dərsin yeni mərhələsinə – **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsinə keçilir.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Tədqiqat aparmaq üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər mətn üzərində işləyən zaman qrupların gəldiyi nəticələrlə, məlumatlarla, hissələrə bölünmüş mətnə verilən adlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi məcraya yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı suallarla müraciət edilə bilər:

– Sizcə, Bakıxanov neçə dil bilirdi? Fikrinizi əsaslandırın.
– Sizcə, A.Bakıxanov nə üçün keçmiş həyatı təcrübə adlandırır?
– "Gülüstani-İrəm" əsəri nə üçün qiymətli mənbə hesab edilir?
– Bakıxanovun bəhs olunan bu əsərlərində hansı oxşarlığı tapmaq olar?
– Bakıxanov nə üçün Azərbaycan tarixinin atası adlandırılır?
– Abbasqulu ağa Bakıxanovun yaradıcılığında nəyi daha çox qiymətləndirirsiniz? Fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə.** "Azərbaycan tarixinin atası" başlıqlı afişa hazırlamaq tapşırığı verilir.

**Qiymətləndirmə:** izahetmə

Dərsin sonunda şagirdi yuxarıda verilmiş meyar nəzərə alınmaqla səviyyələr üzrə qiymətləndirə bilərsiz.

Sonda şagirdlərdən aşağıdakı qrup qiymətləndirmə vərəqinin doldurulması istənilə bilər.

**Qrup qiymətləndirmə cədvəli**

**Təlimat.** Qrupdakı hər bir şagirdi meyarlar üzrə qiymətləndirin.

**Qeyd.** *Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə edə bilərsiniz.*

| Şagirdin adı, soyadı | Tapşırığa hazır olma | Başqalarını dinləmə | Məsuliyyəti bölüşmə | Qrup yoldaşlarına kömək | Müzakirələrə qoşulma | Fikirlərini reallaşdırma | Fərqli fikirlərə hörmət etmə | Zamandan məhsuldar istifadə etmə | Tapşırıqları yerinə yetirmə | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |

**Şərhlər:**

# 37 “Əkinçi”dən başlanan yol

**Standart:**

5.1.3. Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır.

**Təlim məqsədi.**

Həsən bəy Zərdabi və “Əkinçi” qəzeti ilə bağlı sadə təqdimatlar hazırlayır.

**Təlim formaları:** kiçik qruplarla və fərdi iş

**Təlim üsulları:** klaster, təqdimat

**Dərsin gedişi**

**Motivasiya.** Bu mövzunun tədrisi zamanı motivasiya üçün – jurnal, məqalə, kitab, afişa və s. bu kimi açar sözlərdən istifadə edilə bilər. Açar sözlərin təqdim edilməsini klaster üsulu ilə reallaşdırmaq olar. Əgər imkan varsa, İKT resurslarından istifadə etməklə də motivasiyanı qurmaq olar. Nümunələr göstərildikdən sonra onlara şifahi şəkildə suallar vermək olar.

– *Sizə təqdim edilən sözləri birləşdirən ümumi cəhət hansıdır?*

– *Sizcə, jurnal, məqalə, kitab, afişa sözləri ilə yanaşı, bu sıraya daha hansı sözü əlavə etmək olar?*

Şagirdlər müxtəlif fərziyyələr söylədikdən sonra tədqiqat sualı verilir.

**Tədqiqat sualı.** İlk milli mətbu orqanımız olan “Əkinçi” necə yarandı?

**Tədqiqatın aparılması.**

Bu mərhələni “Təqdimat etmə” üsulunun köməyi ilə həyata keçirmək olar. Təqdimat etmə, fəal təlim üsulları ilə aparılan dərslərin mühüm elementlərindən biridir. Bu zaman şagirdlər tədqiqat fəaliyyətinin nəticələrini təqdim edirlər. Təqdimat şifahi, yazılı, vizual, rollar üzrə oyun və s. formalarda ola bilər. Şagirdlər təqdimatı fərdi şəkildə və ya qrup halında keçirə bilərlər. Müəllim bu dərsdə şagirdlərə təqdimatın növünü və onun keçirilmə şəraiti və şərtlərini elan edə bilər.

Şərhin aydınlığı informasiyanın təşkilindən asılıdır. Yaxşı təşkil edilmiş təqdimatın zəruri şərtləri – problemin mahiyyəti üzərində fikri cəmləyə bilmək bacarığı, faktiki informasiyaya əsaslanan başlıca ideya və nəticələrə dəstək verən münasib nümunə və misalların mövcudluğudur.

5.1.3. standartının tələblərinə uyğun olaraq şagirdlərə tədqiqat aparmaqdan ötrü mənbələrdən əlavə məlumatlar paylanılır. Bu məlumatlar qəzet, jurnal, elmi əsər və ya internet resurslarından əldə etdiyimiz müxtəlif səpkili materiallar ola bilər. Əgər sinif otağında texniki imkanlar varsa (kompüter, internet), şagirdlərə dərs prosesində bu imkanlardan istifadəyə şərait yaradılır.

*Şagirdlərə təqdimat hazırlamaq üçün aşağıdakı tapşırıqlar verilə bilər.*

**I qrup**
Həsən bəy Zərdabinin maarifçilik fəaliyyəti haqqında təqdimat hazırlayın.

______________________________________________________________________

______________________________________________________________________

**II qrup**
Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin çap olunmasında roluna dair təqdimat hazırlayın.

______________________________________________________________________

______________________________________________________________________

**III qrup**
İlk milli mətbuatımız olan "Əkinçi" qəzeti haqqında təqdimat hazırlayın.

______________________________________________________________________

______________________________________________________________________

**IV qrup**
"Əkinçi" qəzetində ziyalılarımızın fəaliyyətinə dair təqdimat hazırlayın.

______________________________________________________________________

______________________________________________________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Müəyyən edilmiş zaman ərzində şagirdlər cavabları hazırlayaraq təqdim edirlər. Təqdimatda öz əksini tapmış cavablar diqqətlə dinlənilir, müzakirə olunur və əlavələr edilir.

Qruplar meyarlar əsasında qiymətləndirilir. Meyarlar cədvəli öncədən sinifdə asılır və ya lövhədə göstərilir ki, şagirdlər nəyin əsasında qiymətləndiriləcəklərini bilsinlər.

| Qruplar | Tapşırığın düzgün hazırlanması | Əməkdaşlıq | Vaxta qənaət | Təqdimetmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Mövzu üzrə nəticələrin çıxarılması üçün aşağıdakı suallardan istifadə edilə bilər:

– *Sizcə, nə üçün H.Zərdabi Azərbaycana qayıtmağı daha üstün tutmuşdur?*
– *Həsən bəy Zərdabi nə üçün elmə və təhsilə önəm verirdi?*
– *Onun azərbaycanlı gəncləri təhsilə cəlb etməkdə məqsədi nə idi?*
– *Sizcə, qəzetin bağlanmasının səbəbi nə ola bilərdi?*

**Yaradıcı tətbiqetmə.** Mətnə əsasən cədvəli tamamlayın.

| “Əkinçi” qəzetinin | |
|---|---|
| əhəmiyyəti | bağlanma səbəbi |
| | |
| | |

**Qiymətləndirmə meyarları:** təqdimatlar hazırlama
Meyara uyğun səviyyələr əsasında formativ qiymətləndirmə həyata keçirilir.
Qiymətləndirmə zamanı özünüqiymətləndirmə vərəqlərindən istifadə etmək olar.

**Şagirdin adı soyadı** ____________________

| Tapşırığı tam və düzgün yerinə yetirdim. | Dərsdə diqqətli idim. | Məntiqli yanaşmam var idi. | Sual-cavabda aktiv idim. | Əməkdaşlıq etdim. | Etiket qaydalarına riayət etdim. |
|---|---|---|---|---|---|
| | | | | | |

# 38 Milli operamızın banisi

**Standart:**

5.1.3. Azərbaycan mədəniyyəti ilə bağlı sadə təqdimatlar hazırlayır.

**Təlim məqsədi.**

Üzeyir Hacıbəyli və milli operamızın yaradılması ilə bağlı sadə təqdimatlar hazırlayır.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, təqdimat

**Dərsin gedişi**

**Motivasiya.** Dərs başlayanda şagirdlərlə birlikdə Azərbaycan Respublikasının Dövlət Himnini oxumaqla motivasiyanı qurmaq olar. Himn oxunandan sonra şagirdlərə aşağıdakı suallar verilir:

– *Sizcə, hərgünkü dərslərdən fərqli olaraq, himn niyə oxundu?*

– *Dövlət Himnimiz haqqında nə bilirsiniz? və s.*

Cavabları ümumiləşdirib dərsin növbəti mərhələsinə keçid edilir.

**Tədqiqat sualı.** Üzeyir Hacıbəylinin Azərbaycan musiqi tarixində rolu nədir?

**Tədqiqatın aparılması.**

Sinif qruplara bölünür. Qruplar özlərini müvafiq şəkildə adlandırırlar. Bundan sonra iş vərəqləri ilə tapşırıqlar təqdim edilir. Şagirdlərə tədqiqat aparmaqdan ötrü dərslik materialından əlavə, Üzeyir Hacıbəyli və milli operamızın yaradılması ilə bağlı mənbə tipli əlavə məlumatlar paylayın. Bu məlumatlar qəzet, jurnal, elmi əsər və ya internet resurslarından əldə etdiyiniz müxtəlif səpkili materiallar ola bilər. Standartın tələbindən irəli gələrək qrupların işi təqdimat üsuluna əsasən hazırlanacaq. Təqdimatlar müxtəlif formalarda (elektron təqdimat, qəzet, buklet, kollaj, vebsayt və s.) və müxtəlif xarakterli ola bilər. Təqdimatla bağlı tapşırığın həm fərdi, həm də qrup şəklində verilməsi mümkündür. Məqsəd şagirdləri fəaliyyətə, yaradıcılığa, tədqiqatçılığa sövq etməkdir. Şagirdlərin təqdimatları müxtəlif olduğundan onlara maraq çox yüksəkdir. Bu üsul həm də şagird özünüqiymətləndirməsində səmərəlidir.

**I qrup**

Üzeyir Hacıbəyli yaradıcılığı haqqında təqdimat hazırlayın.

________________________________________

________________________________________

**II qrup**

Üzeyir Hacıbəylinin milli operamızın yaradılmasında roluna dair təqdimat hazırlayın.

**III qrup**

İlk operamız olan “Leyli və Məcnun”un tamaşaya qoyulmasına dair təqdimat hazırlayın.

**IV qrup.**

“Arşın mal alan” və “Koroğlu” operaları haqqında təqdimat hazırlayın.

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qrup işinə ayrılmış vaxt bitdikdən sonra **məlumatın mübadiləsi və müzakirəsi** mərhələsi həyata keçirilir. Bu mərhələdə şagirdlərə tədqiqatın gedişində əldə etdikləri yenilikləri təqdim etməyə, yeni informasiyanın mübadiləsini aparmağa müəyyən vaxt verib onların təqdimatları dinlənilir. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edəcək.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Üzeyir Hacıbəyli yaradıcılığı, milli operamızın yaradılması, musiqili komediya janrlarında əsərlərin səhnələşdirilməsi ilə bağlı bütün məsələlər ümumiləşdirmənin və nəticənin başlıca məqamları olmalıdır. Nəticədə şagirdlər müxtəlif resurslardan və məlumatlardan istifadə etməklə yuxarıdakı mövzularda sadə təqdimatlar hazırlamağı bacaracaqlar.

**Qiymətləndirmə meyarları:** təqdimatlar hazırlama

Bu mərhələdə müəllim dərs ərzində apardığı qeydlər əsasında şagirdləri fərdi və qrup üzrə qiymətləndirə bilər. Şagirdlərin formativ qiymətləndirməsini yuxarıdakı meyar əsasında müəyyənləşdirilən səviyyələrə görə həyata keçirmək olar.

Dərsin sonunda şagirdləri aşağıdakı formaya uyğun **Qrup təqdimatının qiymətləndirilməsi vərəqi** ilə qiymətləndirmək olar. Cədvəli doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə məqsədəmüvafiqdir.

**Qrup təqdimatının qiymətləndirmə cədvəli**

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Mövzu açıqlanıbmı? | | | | |
| Reqlamentə riayət olundumu? | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Çıxış savadlı idimi (terminlərin səsləndiril-məsi, vurğuların düzgünlüyü)? | | | | |
| Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu? | | | | |
| Təqdimat nə dərəcədə mükəmməl hazır-lanmışdı? | | | | |
| Təqdimatda illüstrasiyalardan istifadə edil-dimi? | | | | |
| Məlumat üçün seçilən material nə qədər keyfiyyətli seçilib? | | | | |
| Nəticə çıxarılıbmı? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bil-dimi? | | | | |

# 39 Lütfi Zadə

**Standartlar:**

5.1.1. Mədəniyyət abidələrinin əhəmiyyətini izah edir.

5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.

**Təlim məqsədləri:**

1. Lütfi Zadənin elmə verdiyi töhfələrin əhəmiyyətini izah edir.
2. Lütfi Zadə yaradıcılığını fərqləndirir.

**Təlim formaları:** böyük və kiçik qruplar

**Təlim üsulları:** beyin həmləsi, mətn üzərində

**Dərsin gedişi**

**Motivasiya.** Dərsin motivasiyasını beyin həmləsi üsulundan istifadə edərək qurmaq olar. Bunun üçün şagirdlərə aşağıdakı suallar verilir:

– *Dünya şöhrəti qazanmış hansı Azərbaycan alimlərini tanıyırsınız?*

– *Sizcə, bu alimlərdən kimlər Azərbaycandan kənarda yaşayaraq bu şöhrətə yiyələnmişlər?*

Əgər lazımi nəticə əldə olunmasa, onda şagirdlərə aşağıdakı açar sözləri elan edilir:

Lütfi Zadə, qeyri-səlis məntiq nəzəriyyəsi, sözlə işləyən kompüterlər nəzəriyyəsi, fəza vəziyyətləri nəzəriyyəsi.

Şagirdlərə "bu açar sözlərdən hansıları sizə tanışdır?" sualını ünvanlayaraq, cavabları ümumiləşdirib dərsin motivasiyasını qurmaq olar.

**Tədqiqat sualı.** Lütfi Zadə dünya elminə hansı töhfələri verdi?

**Tədqiqatın aparılması.** Tədqiqat sualı elan olunandan sonra kiçik qruplarla iş formasında mətn üzərində iş üsulu ilə dərsi qurmaq məqsədəmüvafiq olardı. Adından göründüyü kimi, bu zaman şagirdlər onlara verilmiş mətn üzərində işləməlidirlər.

Qruplara tədqiqat üçün aşağıdakı və ya müəllimin məsləhət bildiyi digər tapşırıqları vermək olar.

**I qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun.
2. Mətni dərslikdəki mətnlə uzlaşdırın və sizə yeni olan hissələri rəngli qələmlərin köməyi ilə işarələyin.
3. Mətndə verilmiş yeni bilgilərdən ən önəmli saydığınız üç faktı iş vərəqinin sonunda qeyd edin.

"Heç zaman azərbaycanlı olduğumu gizlətməmişəm, əksinə, bununla qürur duymuşam". Bu sözləri dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadə demişdir. Belə deməklə o, Vətənini,

xalqını çox sevdiyini, milllətinə nə qədər bağlı olduğunu göstərmişdir. Riyaziyyatçı, kompüter alimi, elektrik mühəndisi, süni zəka araşdırmaçısı olan Lütfəli Rəhim oğlu Ələsgərzadə 1921-ci ildə Bakıda doğulub. Lütfi Zadə üçüncü sinfədək təhsilini Bakıda alıb, sonradan o, ailəsi ilə birgə Tehrana köçüb. Qeyri-səlis çoxluqlar ideyası Lütfi Zadə üçün sadə və cəlbedici görünürdü. "Qeyri-səlis məntiq" adlı elmi konsepsiyasını təqdim edərkən Lütfi Zadə söyləmişdi: "Bunun vacib olacağını bilirdim, ancaq dünya miqyasında bir hadisə olacağını xəyal etmirdim". Zadənin kəşfi elm və texnikanın bütün sahələrində mühüm rol oynamışdır. Qeyri-səlis məntiq nəzəriyyəsi riyaziyyatın, kibernetikanın, informatika və hesablama texnologiyasının inkişafı tarixində yeni bir dövr açmışdır. Bu nəzəriyyə bütün dünyada elmə, texnika və texnologiyaya böyük təsir etmişdir.  Bu kimi elmi kəşflər dünya elminin inkişafında böyük rol oynayıb. Eyni zamanda bu gün bu nəzəriyyələr həyatımızın bir çox sahələrində çox geniş tətbiq olunur. Lütfi Zadənin fikrincə, XXI yüzilliyin əsas inkişafını bilik təşkil edir. Kim biliyə sahib olacaqsa, o daha güclü olacaq. Güclü olan isə hər zaman qalibdir. Əldə etdiyi nailiyyətlərlə kifayətlənməyən, daim öz üzərində çalışan bir insan olan Lütfi Zadə özü haqqında belə demişdi: "Yalnız savad kifayət etmir, zəhmət və uğur da çox vacibdir. Mənim uğur formulum qabiliyyət, zəhmət və isrardır. Uğurun elementləri bunlardır".

**Önəmli saydığınız faktlar:**

1. ________________________________________
2. ________________________________________
3. ________________________________________

**II qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun
2. Mətni dərslikdəki mətnlə uzlaşdırın və sizə yeni olan hissələri rəngli qələmlərin köməyi ilə işarələyin.
3. Mətndə verilmiş yeni bilgilərdən ən önəmli saydığınız üç faktı iş vərəqinin sonunda qeyd edin.

Həyatı boyu yenilik ruhu ilə yaşayan Lütfi Zadəyə dünya şöhrəti qazandıran onun qeyri-səlis məntiq nəzəriyyəsidir. Bu nəzəriyyənin mahiyyətinin nədən ibarət olduğunu ondan soruşanda bu suala belə cavab vermişdi: "...Qeyri-səlis məntiq, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin əsas mahiyyəti odur ki, mütləq heç nə yoxdur. ..."  O, sübut etdi ki, insan dünyanı yalnız "ağ" və "qara" rənglərdə duyub qavramır. İnsanın dünyanı görüb dərk etmə imkanları zəngin və hüdudsuzdur. Lütfi Zadənin məntiqi dünyanı bütün çalarları ilə qavramağa imkan verir.  Lütfü Zadə dünya elminə ona şöhrət qazandırmış qeyri-səlis məntiq nəzəriyyəsindən əlavə, digər nəzəriyyələr də bəxş etmişdir. Sözlə işləyən kompüterlər nəzəriyyəsi əsasında işləyən kompüterlər təxmini məntiqi nəticə çıxara bilir. Belə kompüterlər bir növ insan beyninin texniki modelidir. Lütfi Zadə asanlıqla ünsiyyət quran və tamamilə demokratik bir insan idi. O, kübar davranışları, nəzakəti, xeyirxahlığı, həssaslığı, sakitliyi və sağlam düşüncəsi ilə seçilirdi. Daxili aləmini əks etdirən dərin biliyə sahib olan Lütfi Zadə intuitiv, yaradıcı, həyatı-

nın hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışan, ailənin sabitliyinə, adət və ənənələrinə dəyər verən bir şəxsiyyət idi. Alim vətənini tərk etdikdən sonra Azərbaycana cəmi iki dəfə səfər etmişdi. Üçüncü dəfə isə 2017-ci ildə o, əbədi olaraq vətəninə dönür. ABŞ-də vəfat edən alim Bakıda Birinci Fəxri xiyabanda dəfn edilir. Ölümündən bir ay əvvəl Lütfi Zadə müsəlman adətlərinə görə vətənində dəfn olunmasını xahiş edən bir məktubla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına müraciət etmişdi. Onun bu istəyi yerinə yetirilmişdi.

**Önəmli saydığınız faktlar.**

1. ______________________________
2. ______________________________
3. ______________________________

**III qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun.
2. Mətni dərslikdəki mətnlə uzlaşdırın və sizə yeni olan hissələri rəngli qələmlərin köməyi ilə işarələyin.
3. Mətndə verilmiş yeni bilgilərdən ən önəmli saydığınız üç faktı iş vərəqinin sonunda qeyd edin.

Professor Lütfi Zadə və bir çox alimlər qeyri-səlis məntiqi gələcəkdə süni intellektin yaradılması üçün bir vasitə kimi görürdülər. Alimin bəzi həmkarları bu metodların nə qədər effektiv olacağına şübhə ilə yanaşırdılar. Lakin Lütfi Zadə öz fikirlərinə həmişə sadiq qalmışdı. Həmyerlimizin fikrincə, Azərbaycan qanı ona əzm və möhkəmlik vermiş, mübahisədən qorxmamağı öyrətmişdi. Fəza vəziyyətləri nəzəriyyəsi dinamik sistemlərin idarə olunması və müşahidə olunma nəzəriyyələri müasir idarəetmə elminin əsasını təşkil edir. ABŞ-nin Milli Kosmik Tədqiqatlar Mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələndirir və tətbiq edir. Lütfi Zadə bəşəriyyətin gələcək inkişafının informasiya kommunikasiya texnologiyaları sahəsi ilə bağlılığına əmin idi. O, Azərbaycanda elm və texnologiyaların inkişaf etməsini istəyirdi. Gənc mühəndislərin və tədqiqatçıların formalaşması üçün müasir tədqiqat mərkəzlərinin yaradılmasını arzu edirdi. “Elmlə məşğul olan insanlara qayğı göstərilməlidir. Onlar adi adamlar deyil. Millətin inkişafı bir çox hallarda həmin insanlardan asılıdır”. O öz müsahibələrində ölkəmizdə elm və texnologiyaların inkişafı üçün böyük potensialın olduğunu bildirmişdi. Elm və texnologiyaların inkişafına misilsiz töhfələr vermiş məşhur alim Lütfi Zadə həmişə azərbaycanlı olması ilə qürur duyub, onun ürəyi daim doğma Vətəni ilə döyünüb. O yazırdı: “...Vətənimin oğlu kimi qəbul edilməyim həyatımın məğzi və şərəfimdir. Bakı və xalqım qəlbimin qaynar guşəsində özünə əbədi yer tutub”.

**Önəmli saydığınız faktlar.**

1. ______________________________
2. ______________________________
3. ______________________________

**IV qrup**

1. Mətni oxuyun. Onu elə hissələrə bölün ki, hər birində fikir tamamlanmış olsun.
2. Mətni dərslikdəki mətnlə uzlaşdırın və sizə yeni olan hissələri rəngli qələmlərin köməyi ilə işarələyin.
3. Mətndə verilmiş yeni bilgilərdən ən önəmli saydığınız üç faktı iş vərəqinin sonunda qeyd edin.

Orta təhsilini bitirdikdən sonra ilk ali təhsilini Tehran Universitetində alır. Universiteti bitirdikdən sonra Amerika Birləşmiş Ştatlarına (ABŞ) köçür və mühəndis-elektrik ixtisası üzrə alimlik dərəcəsi alır. Bir neçə il Kolumbiya universitetlərində fəaliyyət göstərmişdir. 1959-cu ildən ömrünün sonunadək Kaliforniyadakı Berkeley Universitetində dərs deyib kompüter elmi üzrə Əməkdar professor adını alıb. Bu gün dünyanın bir çox iri şirkətləri öz istehsalatlarında alimin bu nəzəriyyəsindən istifadə edir. General Motors, General Electric, Motorola, Kodak, Canon, Mitsubishi, Sony, Daewoo, Nissan, Panasonic, Honda kimi dünya nəhəngləri bu şirkətlərdəndir. Lütfi Zadənin nəzəriyyəsindən foto və videokameralar, paltaryuyan maşınlar, tozsoranların istehsalında, nəqliyyat vasitələrinin, sənaye proseslərinin idarə olunmasında geniş istifadə edilir. Lütfi Zadə 1989-cu ildə sənayedəki qeyri-səlis məntiq nəzəriyyəsinin uğurlarına görə yapon alimlərinə verilən ən yüksək “Honda” mükafatına layiq görülmüşdür. Məhsuldar tədqiqatlarına görə Lütfi Zadə çoxsaylı milli və beynəlxalq mükafatlara layiq görülmüşdür. Lütfi Zadə dünya miqyasında əsərlərinə ən çox istinad olunan alimlərdəndir. Azərbaycanlı olduğunu fəxrlə bildirən və ürəyi daim doğma Vətəni ilə döyünən Lütfi Zadə elm və texnologiyaların inkişafında, eləcə də mədəniyyətlərarası dialoqun qurulmasında misilsiz xidmətlərinə görə 2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Dostluq” ordeni ilə təltif edilmişdi. Daha sonra Nizami Gəncəvi adına qızıl medala layiq görülmüşdü.

**Önəmli saydığınız faktlar.**

1. ______________________________
2. ______________________________
3. ______________________________

**Məlumatın mübadiləsi və müzakirəsi.** Qruplarla iş üçün ayrılmış vaxt bitdikdən sonra hər bir qrup təqdimat üçün nümayəndəsini seçir. Qruplar iş vərəqlərini lövhədən asır və təqdimatlarını həyata keçirirlər. Şagirdlər təqdimatlar əsasında müxtəlif yanaşmalarla, nəticələrlə, məlumatlarla tanış olurlar. Suallar verilir. Fikirlər dinlənilir, dağınıq faktlar arasında əlaqə yaradılır, şagirdlərin düşüncəsi lazımi istiqamətə yönəldilir və yeni biliklər sistemləşdirilir.

**Ümumiləşdirmə və nəticənin çıxarılması.** Dərsi ümumiləşdirmək və müəyyən nəticələrə gəlmək üçün şagirdlərə aşağıdakı sual və tapşırıqlarla müraciət etmək olar:

– *Nizami Gəncəvinin “Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz” sözlərini Lütfi Zadənin hansı fikirləri ilə müqayisə etmək olar?*

– *Lütfi Zadənin böyük uğurlar əldə etməsinin səbəbləri nədir?*

– *Hansı fikirlər Lütfi Zadənin doğma torpağına bağlı olduğunu göstərir?*

**Qiymətləndirmə meyarları:** izahetmə, fərqləndirmə

Mövcud dərsin qiymətləndirilməsi yuxarıdakı meyarlara nəzərən dərs izləməsi nəticəsində həyata keçirilir. Dərsin sonunda şagird müəllimin müəyyənləşdirdiyi səviyyələr üzrə qiymətləndirilə bilər.

Dərsin sonunda şagirdləri aşağıdakı formaya uyğun **Qrup təqdimatının qiymətləndirilməsi vərəqi** ilə dəyərləndirmək olar. Vərəqi doldurarkən 2, 3, 4, 5 rəqəmlərindən istifadə etmək məqsədəmüvafiqdir**.**

**Qrup təqdimatının qiymətləndirilmə vərəqi**

| Meyarlar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| İzahetmə, fərqləndirmə meyarlarına nə səviyyədə cavab verildi. | | | | |
| Reqlamentə riayət olundumu? | | | | |
| Tapşırıq vaxtında yerinə yetrildi. | | | | |
| Qrup daxilində əməkdaşlıq var idimi? | | | | |
| Təqdim edən sərbəst çıxış edirdi və ya oxuyurdu? | | | | |
| Faktlar nə dərəcədə düzgün seçilib? | | | | |
| Çıxış edən əlavə suallara cavab verə bildimi? | | | | |
| Nəticə çıxarılıbmı? | | | | |

# KONTUR XƏRİTƏLƏR

**Kontur xəritələrin verilməsində məqsəd:**

1. Şagirdlər öyrəndikləri mövzulara uyğun olaraq ölkənin adını, paytaxtını; çay və dəniz adlarını (əgər varsa) qeyd edirlər;

2. Ölkələrin sərhədlərini müəyyən edirlər.

3. Xəritənin hansı əraziyə aid olduğunu müəyyən edir və onu adlandırılar.

**Qeyd.**

Kontur xəritələrlə işləmək şagirdlərdə ilkin coğrafi biliklərin formalaşmasına ve genişlənməsinə imkan yaradır.

Kontur xəritələr şagirdlərə müvafiq dərslərdə təqdim olunur.

Kontur xəritələrdən motivasiya və yaradıcı tətbiqetmə mərhələsində istifadə etmək tövsiyə edilir.











# Buraxılış məlumatı

**AZƏRBAYCAN TARİXİ 5**

*Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün*
*Azərbaycan tarixi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2024-051)*

**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: **Pərviz Ağalarov**
**Niyaməddin Quliyev**
**Elnur Hüseynov**

Buraxılışa məsul **Rafiq Kazımov**
Səhifələyici **Yetər Əlizadə**
Üz qabığının dizayneri **Ayaz Abdulzadə**
Korrektor **Nigar Əliyeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Allahverdi Kərimov**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

**© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 17,5. Fiziki çap vərəqi 21. Formatı 57x82 $^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 168.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Pulsuz. Bakı – 2024

Çap məhsulunu hazırlayan:
**"Şərq-Qərb" ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Pulsuz